**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**İBRAHİM SƏRVƏR oğlu SƏFƏRLİ**

# XXI ƏSRDƏ ABŞ-RUSİYA MÜNASİBƏTLƏRİ: STRATEJİ TƏRƏFDAŞLIQ VƏ MÖVCUD PROBLEMLƏR

**HSM-060213-Beynəlxalq münasibətlər və diplomatiya**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

Elmi rəhbər: *E.A.Qasımov*
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**BAKI- 2022**

# MÜNDƏRİCAT

**GİRİŞ.........................................................................................................4 -9**

**I FƏSİL. XXI əsrdə ABŞ-Rusiya əməkdaşlığının əsas istiqamətləri.......................................................................9-43**

1.1 Siyasi və iqtisadi sahədə əməkdaşlıq......................................9-25

1.2 Hərbi-strateji təhlükəsizlik məsələləri və geosiyasi maraqlar qarşılıqlı münasibətlərin mühüm elementi kimi.............................25-35

1.3 Çoxtərəfli əməkdaşlıq çərçivəsində münasibətlər...................35-43

**II FƏSİL. ABŞ-Rusiya münasibətlərində mövcud problemlər...............43-77**

2.1 Demokratiya və insan hüquqları problemi.............................43-52

2.2 Kibermüharibə və terrorizmə qarşı birgə mübarizə................52-67

2.3 Gürcüstan, Suriya və Ukrayna böhranı: ABŞ-Rusiya münasibətləri...........................................................................67-77

**NƏTİCƏ.......................................................................................................77-79**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI.......................................79-100**

| | |
|---|---|
| ABŞ | Amerika Birləşmiş Ştatları |
| Aİ | Avropa İttifaqı |
| AVRORƏM | Avropada raket əleyhinə müdafiə |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| BRİKS | Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika |
| DXR | Donetsk Xalq Respublikası |
| FTB | Federal Təhlükəsizlik Bürosu |
| FTX | Federal Təhlükəsizlik Xidməti |
| XİN | Xarici İşlər Nazirliyi |
| INF | Orta Mənzilli Nüvə Qüvvələri Müqaviləsi |
| QİYŞ | Qarşılıqlı İqtisadi Yardım Şurası |
| KMR | Krım Muxtar Respublikası |
| KP | Kommunist Partiyası |
| KTMT | Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı |
| LXR | Luqansk Xalq Respublikası |
| MK | Mərkəzi Komitə |
| MKİ | Mərkəzi Kəşfiyyat İdarəsi |
| NATO | Şimali Atlantika Müqaviləsi Təşkilatı |
| RƏMS | Raket Əleyhinə Müdafiə Sistemləri |
| RSFSR | Rusiya Sovet Federativ Sosialist Respublikası |
| SHPM | Strateji Hücum Potensialının Məhdudlaşdırılması Müqaviləsi |
| SHS | Strateji Hücum Silahları |
| SSRİ | Sovet Sosialist Respublikaları İttifaqı |
| TŞ | Təhlükəsizlik Şurası |
| ÜTT | Ümumdünya Ticarət Təşkilatı |
| VMT | Varşava Müqaviləsi Təşkilatı |

# GİRİŞ

**Mövzunun aktuallığı.** ABŞ-Rusiya münasibətləri öz başlanğıcını XVIII əsrin birinci yarısından etibarən, Şimali Amerika torpaqlarında, Aleut adalarında, Alyaksa yarımadasında, Kanadanın müasir Yukon və Britaniya Kolumbiyası əyalətlərində rus tacirlərinin və Amerikanın Vaşinqton, Oreqon və Kaliforniya ştatlarında bir çox yaşayış məntəqələri yaradan rus immiqrantlarının, yerli əhali və hökumət orqanları ilə ilkin tanışlığından götürür. Amerika İstiqlaliyyət müharibəsi (1765-1783) zamanı Rusiya (Rusiya İmperiyası) formal olaraq neytral olsa da və birbaşa qoşun və ya təchizatla yardım göndərməsə də, ABŞ İstiqlal Bəyannaməsini müsbət qarşılamış və Amerika İnqilabının xaricdə qalıcı irsinə töhfə vermişdi. Beləliklə, dövlətlər səviyyəsində, Rusiya ilə Amerika Birləşmiş Ştatları arasında ilkin rəsmi əlaqələr 1776-cı ildə qurulmuşdur.

I və II Dünya müharibəsi illərində tərəflər müttəfiq hesab olunsalar da, 1945-ci ildən sonra milli gəliri artan, kapitalizm dünyasının maliyyə-iqtisadi və hərbi-siyasi liderinə çevrilən ABŞ ilə müharibədə ən çox maddi və insan qüvvəsi itirmiş, dünyanın ikinci güclü dövlətinə çevrilmiş və dünya kommunizm inqilabı ideologiyasını həyata keçirməyə başlamış SSRİ arasında uzunmüddətli rəqabət başladı. Post-müharibə dövrünün şərtləri və reallıqları sosialist düşərgəsi ölkələri (başda SSRİ olmaqla) və Qərb bloku ölkələri (başda ABŞ olmaqla) arasında, həmçinin iki bir-birinə əks olan ictimai quruluş - sosializm və kapitalizm arasında, 1945-1990-cı illərdə qlobal səviyyədə geosiyasi, iqtisadi və ideoloji mübarizə vəziyyətinə - “Soyuq müharibə”-yə gətirib çıxardı. “Soyuq müharibə” çağırışına cavab olaraq, tərəflər hərbi xərclərini artırmaqla sürətli silahlanma və qütbləşmə yarışına başladılar. Lakin, 1948 və 1961-ci illər Berlin və 1962-ci il Kuba ilə əlaqədar Karib dənizi hövzəsində fəlakətli münaqişə həddinə gəlsələr də, son nəticədə birbaşa qarşıdurmadan çəkindilər. 1950-ci illərdə başlanan mülayimləşmə, özünü 1960-1970-ci illərdə qarşılıqlı tərksilah razılaşmalarında göstərdi. 80-cı illərin ortalarından sosializm birliyini, xüsusən Sovet İttifaqını hələ illər əvvəl bürüməyə başlayan siyasi, ideoloji və etnik böhran meyillərinin güclənməsi ilə əlaqədar “soyuq

müharibə" siyasətinin yumşalması daha da gücləndi. ABŞ Prezidenti Corc Buşla SSRİ KP MK Baş Katibi Mixail Qorbaçov arasında 1989-cu ilin dekabrın 2-3-də Malta adasında keçən görüş, qarşıdurmanın ləğv olunmasında mühüm rol oynadı, belə ki, Malta sammitində liderlər soyuq müharibənin bitdiyini elan etdilər.

1991-ci il dekabrın 25-də Prezident M.Qorbaçovun istefası ilə rəsmi şəkildə Sovet İttifaqının dağılmasından sonra, həmin gün ABŞ SSRİ-nin varisi olan Rusiya Federasiyasını tanıdı və 31 dekabr 1991-ci ildə diplomatik əlaqələr quruldu. 31 dekabr 1999-cu ildə yeni minillik ərəfəsində Rusiya Federasiyası Prezidenti B.Yeltsin gözlənilməz açıqlama ilə istefa verdi və səlahiyyətlərini Baş nazir Vladimir Putinə təhvil verdiyini bəyan etdi. Nəticə etibarı ilə beynəlxalq münasibətlər sistemində də kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verdi. Beləliklə, bütün soyuq müharibə dövründə, birbaşa hərbi qarşıdurmanın yaşanmaması, yeni minillikdə tərəflər arasında mülayim, dostluq və tərəfdaşlıq münasibətlərinin formalaşması üçün əliverişli şərait yaradırdı. Bu baxımdan Yeni Dünya Nizamında ABŞ və Rusiya Federasiyası arasında mövcud münasibətlərin öyrənilməsi elmi və siyasi aktuallıq kəsb edir.

Bu istiqamətdə müəyyən tədqiqatlar aparılmışdır, lakin tədqiq olunmamış bir sıra problem və mövzular mövcuddur. Bu məsələlərin araşdırılması, yeni materialların ortaya çıxarılması və onların təhlil edilməsi vacibdir. XXI əsrdə bu ölkələr arasında mövcud olan və davam edən siyasi-diplomatik, iqtisadi-ticari, sosial, elmi-texniki, mədəni-humanitar və hərbi-təhlükəsizlik münasibətlərini, tərəflərin milli maraq və mənafelərinin, bundan başqa əlaqələrdəki problem və maneələrin öyrənilməsi və araşdırılması əhəmiyyət kəsb edən məsələlərdəndir.

**Tədqiqatın öyrənilmə səviyyəsi.** Mövzu ilə bağlı kifayət qədər araşdırma aparılmış və tədqiqatlar həsr olunmuşdur. Tədqiqat işinin hazırlanmasına cəlb olunan Ağalar Abbasbəylinin "Dünya Siyasəti (XX əsrin ikinci yarısı - XXI əsrin əvvəlləri)" kitabında münasibətlərin yeni dövrdə məzmununu müəyyənləşdirən amillər və inkişaf istiqamətləri açıqlanmış, ümumi problemlərinə aydınlıq gətirilmiş, beynəlxalq terrorizmə qarşı mübarizədə onların birgə roluna diqqət yetirilmiş,

dünyanın müxtəlif regionlarında - Qafqazda, Avropa və Asiyada cərəyan edən hadisə və proseslər bu kontekstdən təhlil edilmişdir. Lakin, burada beynəlxalq münasibətlərdə mühüm faktor olan informasiya təhlükəsizliyi, kibermüharibə, demokratiya və insan hüquqları kimi problemlərin ikitərəfli əlaqələrə təsirinə qismən toxunulmuşdur. Məmmədağa Baxışovun müəllifi olduğu “Amerika Birləşmiş Ştatlarının xarici siyasəti (1776-2016)” və Səmayə Mustafayevanın müəllifi olduğu “ABŞ-ın xarici siyasəti (1945-2010-cu illər)” adlı dərs vəsaitlərində isə, 1776-2016-cı illərdə ABŞ-ın xarici siyasəti çərçivəsində münasibətlərin bir sıra konkret mövzularına ümumi şəkildə toxunulsa da, ABŞ-ın xüsusilə Rusiya ilə əlaqələri, həmçinin, son dövrlərdə baş verən hadisə və proseslər diqqətdən kənarda qalmışdır. “Beynəlxalq münasibətlər tarixi. Müasir dövr (1945-1991-ci illər)” adlı dərs vəsaitinin birinci hissəsində ikitərəfli münasibətlərin Soyuq müharibə dövründəki kökləri, yeni əsrdə münasibətləri şərtləndirən araşdırılmış, əsas hadisə və problemlər ardıcıl olaraq izlənmiş, ikinci hissədə isə 2021-ci ilə qədər Yeni Dünya Nizamında baş verən hadisə və proseslərin ABŞ-Rusiya münasibətlərinə təsiri haqqında qeyd olunmuşdur. Novruz Məmmədovun “Geosiyasətə giriş” kitabı da tədqiqata cəlb olunan ədəbiyyatlar arasında xüsusi əhəmiyyət kəsb edir. Burada, daha çox praktiki və nəzəri təhlillər aparılsa da, məsələyə xronoloji ardıcıllıqla daah az yanaşma qeydə alınmışdır. Hərbi-strateji təhlükəsizlik, terrorizmlə mübarizə, kibermüharibə, infomasiya təhlükəsizliyində əməkdaşlıq kimi məlumatlarda istinad olunan Samir Həmidovun və Azərbaycan Dillər Universiteti, Beynəlxalq münasibətlər kafedrasının müəllim kollektivinin ortaq araşdırmalarının yekunu kimi “Beynəlxalq Təhlükəsizlik” kitabında, beynəlxalq təhlükəsizliyin nəzəri və praktiki məsələləri ən müasir meyllər və çağırışlar üzrə ələ alınsa da, problemlər daha çox qlobal miqyasda nəzərdə keçirildiyindən, ABŞ və Rusiyanın bu istiqamətdə fəaliyyətlərinə geniş kontekstdə yanaşılmamışdır.

**Tədqiqatın mənbə bazası.** Dissertasiya işinin yazılmasında ABŞ-Rusiya münasibətləri və müasir dövr beynəlxalq münasibətlər tarixi üzrə azərbaycan, ingilis, rus və türk dillərində mövzu ilə bağlı elmi əsərlərdən, qəzet və jurnal

materiallarından, elmi-tədqiqat araşdırma materiallarından və nəşrlərindən istifadə olunmuşdur. Həmçinin, hazırkı işin mənbələri sırasına Rusiya Federasiyası və ABŞ-ın rəsmi dövlət sənədləri, beynəlxalq təşkilatların sənədləri, o cümlədən qanunvericilik və normativ aktlar, strateji sənədlər (məsələn, ABŞ-ın milli təhlükəsizlik strategiyası), hökumətlərarası sazişlər, ictimai bəyanatlar daxil edilmişdir. Problemin araşdırılmasında internet resurslarından da geniş istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin başlıca məqsədi XXI əsrdə ABŞ və Rusiya arasında siyasi-diplomatik, iqtisadi-ticari və digər sahələr üzrə mövcud münasibətlər, bu əlaqələrin hüquq-siyasi əsasları, əsas forma və reallaşdırma mexanizmlərinin öyrənilməsi, tədqiqat prdemeti ilə bağlı elmi-nəzəri mühakimələr, ideyalar, praktiki tövsiyələr irəli sürməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün dissertasiya işində aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- iki dövlət arasında münasibətlərin formalaşmasını şərtləndirən amillərin aşkar edilməsi;
- həm ABŞ, həm də Rusiyanın xarici siyasət maraqlarının müəyyənləşdirilməsi;
- Yeni Dünya Nizamı kontekstində ABŞ-Rusiya münasibətlərinin qiymətləndirilməsi;
- ikitərəfi münasibətlərin nəzəri məsələlərinin tədqiqi və müvafiq qiymətləndirilmənin yerinə yetirilməsi;
- müxtəlif sahələrdə əməkdaşlığın praktiki məsələlərin analizinin aparılması.

**Tədqiqatın obyektini** ABŞ və Rusiya Federasiyası arasında qarşılıqlı münasibətlər təşkil edir.

**Tədqiqatın predmetini** XXI əsrdə ABŞ və Rusiya Federasiyası arasında müxtəlif sahələrdə münasibətlər, o cümlədən onların reallaşma mexanizmləri və əməkdaşlığın inkişaf dinamikası, maraqlardakı ziddiyyət və problemlər təşkil edir.

**Tədqiqatın xronoloji çərçivəsi** 2000-2022-ci illəri əhatə edir və münasibətlərin yeni mərhələsində ölkələr arasında mövcud olmuş siyasi, iqtisadi, elmi-texniki və mədəni sahədə əməkdaşlığın inkişaf dinamikasını izləməyə imkan verir. Bəzi hallarda ABŞ və Rusiya arasındakı münasibətlərin daha dolğun şəkildə əks etdirilməsi üçün, qeyd edilən xronoloji çərçivədən qismən kənara çıxmalara yol verilmişdir.

**Tədqiqatın metodoloji əsası və metodları.** Tədqiqat işinin metodoloji əsasını elmi-nəzəri yanaşmalar təşkil edir. Dissertasiya işində ilk növbədə, tarix elminin metodlar sistemindən, sosial-siyasi proseslərin dərk olunmasının ümumelmi metodlarından, sistemli yanaşma, induksiya və deduksiya, struktur-funksional, obyektivlik və ümumiləşdirmə kimi tədqiqat metodlarından geniş istifadə olunmuşdur. Tarixilik prinsipinə əməl olunmaqla elmi nəticə çıxarılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi aşağıdakılarla xarakterizə olunur:

- elmi ədəbiyyatların və digər mənbələrin öyrənilməsi və sistemləşdirilməsi nəticəsində XXI əsrdə ABŞ və Rusiya Federasiyası arasında münasibətlərin bir sıra vacib istiqamətləri üzrə kompleks analiz aparılmış və onların nəticələri üzə çıxarılmışdır;
- ABŞ və Rusiya Federasiyası arasındakı münasibətlər xarakterinə və istiqamətinə uyğun olaraq, fəsillərə (yarım fəsillərə) bölünmüş və sistemli şəkildə araşdırılmışdır;
- beynəlxalq münasibətlərdə hələ də davam etməkdə olan son dövrlərin aktual hadisə və proseslərin ikitərəfli əlaqələrə təsiri öyrənilmişdir;
- ənənəvi problemlərlə yanaşı, informasiya təhlükəsizliyi, kibermüharibə, terrorizmə qarşı mübarizə, demokratiya və insan hüquqları kimi mövzulara toxunulmuşdur;
- dərc edilmiş yeni mənbə və ədəbiyyatlar tədqiqat işinə cəlb edilmişdir.

**Tədqiqat işinin praktik əhəmiyyəti.** Tədqiqat işindən XXI əsrdə ABŞ-Rusiya münasibətləri ilə əlaqədar ümumiləşdirilmiş materialların hazırlanmasında, mühazirələrin tərtibində, elmi konfransların keçirilməsində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatın nəticələri müəllifin mövzu ilə bağlı çap olunmuş 1 məqaləsində öz əksini tapmışdır.

**Tədqiqat işinin strukturu.** Dissertasiya işi giriş, 2 fəsil, 6 yarım fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL. XXI ƏSRDƏ ABŞ-RUSİYA ƏMƏKDAŞLIĞININ ƏSAS İSTİQAMƏTLƏRİ

## 1.1. Siyasi və iqtisadi sahədə əməkdaşlıq

Prezident səlahiyyətlərini icra edən Vladimir Putin tərəfindən 10 yanvar 2000-ci il tarixində imzalanan "Rusiya Federasiyasının yeni xarici siyasət konsepsiyası. Beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi" adlı sənəd, Soyuq Müharibənin bitməsindən sonra beynəlxalq münasibətlərdə Rusiyanın milli maraqlarına təhdidlər yaradan problemlər sırasında, ABŞ-ın iqtisadi və güc ağalığı ilə dünyanın birqütblü strukturunun yaradılması tendensiyasını vurğulayırdı. Bu istiqamətdə, Rusiya beynəlxalq münasibətlərdə güc amilinin rolunun daha da azaldılması, eyni zamanda strateji və regional sabitliyin möhkəmləndirilməsinin tərəfdarı olaraq, həm öz milli maraqlarına, həm də digər dövlətlərin təhlükəsizlik maraqlarına cavab verən danışıqların aparılmasında və yeni sazişlərin işlənib hazırlanmasında ABŞ və NATO ilə çoxtərəfli formatda əməkdaşlığa hazır olduğunu qeyd edirdi [12].

26 mart 2000-ci il tarixində keçirilən prezident seçkilərində, prezident səlahiyyətlərini icra edən V.Putin 53,4% səslə ölkə prezidenti seçildikdən sonra isə, 28 may 2000-ci il tarixli yeni Xarici Siyasət Konsepsiyasında isə artıq, ABŞ-ın mütləq üstünlüyündən söhbət getmirdi. Bu sənəddə qeyd olunurdu ki, "Rusiya Federasiyası son dövrlərdə bəzi mürəkkəb fikir ayrılıqlarının olmasına baxmayaraq,

ABŞ-la yaranmış çətinlikləri aradan qaldırmağa, təxminən on il ərzində formalaşmış əməkdaşlıq strukturunu saxlamağa hazırdır" [1, 523].

Noyabrda ABŞ-da keçirilən seçkilərdə ölkənin 43-cü prezidenti kimi hakimiyyətə gələn Respublikaçı Corc Uoker Buş (kiçik) öz seçki kompaniyasında sələfinin Rusiya ilə bağlı siyasətini "yumşaq" hesab edərək, narazılığını ifadə etmişdi. Onsuz da, Kosova münaqişəsi nəticəsində yaranmış fikir ayrılıqları münasibətləri soyutmuşdu [5, 172]. Xüsusən, 2000-ci il 3-5 iyun tarixində Avropa səfəri zamanı ABŞ Prezidenti Bill Klinton Rusiya Federasiyası Prezidenti V.Putinlə ilk dəfə görüşmək üçün Moskvaya səfər etdi. Keçirilən sammitdə B.Klinton, V.Putinin bir sıra addımlarından (xüsusən Çeçenistan siyasəti ilə bağlı) narazılığını ifadə etmişdi. Sammitdən sonra isə, təxminən üç saatlıq qeyri-rəsmi nahar zamanı, yeni hökumətin iqtisadi islahatları, beynəlxalq ticarət və Rusiya iqtisadiyyatının vəziyyəti, dini azadlıq və iqlim dəyişikliyi ilə bağlı problemlər, Balkanlarda və Qafqazda davam edən münaqişələr müzakirə edilmişdi [84].

Tərəflər arasında Birinci Zirvə Görüşü 2001-ci il iyunun 16-da Sloveniyanın paytaxtı Lyublynada, Brdo pri Kranju malikanəsində keçirildi. Danışıqlar zamanı liderlər Rusiya-Amerika əməkdaşlığını və strateji sabitliyin möhkəmləndirilməsinə yönəlmiş bəzi beynəlxalq məsələləri və ABŞ-ın milli raketdən müdafiə sisteminin yaradılması təşəbbüsünü müzakirə etdilər. Bir saatdan çox davam edən danışıqlardan sonra yekun mətbuat konfransında, ABŞ Prezidenti iki saatlıq mehriban, səmimi və məhsuldar görüşdən, bütün dünyaya fayda verəcək konstruktiv iqtisadi, ticarət, regional və təhlükəsizlik məsələlərində əməkdaşlıq münasibətlərinin qurulması imkanlarından məmnunluğunu bildirdi. Rusiya Prezidenti isə ilk növbədə, həmkarının fikirlərini təsdiqləyərək əlavə etdi ki, "Rusiya və ABŞ düşmən deyillər, bir-birlərini təhdid etmirlər və onlar tam yaxşı müttəfiq ola bilərlər...Biz Rusiya ilə ABŞ arasında praqmatik münasibətlərə ümid edirik" [94]. 2000-2001-ci illərdə keçirilən görüşlər zamanı ilk növbədə tərəflər bir-birilərini düşmən hesab etmədiklərini bəyan etdilər, bütün dünyaya fayda verəcək konstruktiv iqtisadi, ticarət, regional və təhlükəsizlik məsələlərində əməkdaşlıq və strateji

sabitliyin möhkəmləndirilməsinə yönəlmiş beynəlxalq məsələlər və s. ilə bağlı müzakirələr apardılar.

Müstəqilliyin ilk illərindən Rusiyanın ABŞ ticarətindəki az payına baxmayaraq, ABŞ-ın ticari-iqtisadi əməkdaşlığın inkişafına böyük önəm verməsi, Rusiya regionlarının böyük həcmdə təbii ehtiyatlara malik olması ABŞ şirkətlərinin diqqət mərkəzində idisə, Rusiya üçün isə əsas məsələ, ABŞ-dan ehtiyac duyduğu qabaqcıl sənaye avadanlığı və digər maşınqayırma məhsullarına olan marağı idi.

Tərəflər arasında siyasi münasibətlər 11 sentyabr tarixindən etibarən genişləndi. Belə ki, 2001-ci il 11 sentyabrda, ABŞ-a qarşı törədilən terror hücumlarına cavab olaraq, xarici dövlət liderləri arasında birinci olaraq Rusiya Federasiyasının Prezidenti V.Putin, dərhal Prezident C.Buşa və Amerika xalqına başsağlığı verdi, təəssüfünü və Amerika administrasiyasının qəbul edəcəyi hər cür qərara tərəddüdsüz və birmənalı dəstəyini bildirdi [88]. V.Putinin dəstək vədləri tərəflər arasında əməkdaşlığın keyfiyyətcə yeni səviyyəsinə işarə edirdi. Bəziləri hətta bu "tarixi dəyişiklik"-liyi "yeni əsrin yeni ittifaqı" adlandırırdılar. Beləliklə, 11 Sentyabr hadisəsindən dərhal sonrakı dövr, Sovet İttifaqının dağılmasından sonrakı üç onillikdə ABŞ-Rusiya münasibətlərinin ən yüksək nöqtəsi idi. Lakin, 2002-ci ilə doğru bəzi anlaşılmazlıqlar və ziddiyyətlərin mövcudluğu səbəbindən ikitərəfli münasibətlər ahəngdar inkişaf etmirdi [19, 62-81]. Xüsusən Taliban hökumətinin süqutundan sonra, rəsmi Vaşinqtonun İraqa müdaxilə məsələsində israrlı davranışı münasibətlərdə yeni böhran vəziyyətinin yaranmasına gətirib çıxarmışdı. 2003-cü ilin fevralın sonlarında isə, ABŞ-ın İraqda hərbi əməliyyatlarına qarşı, Rusiyanın mövqeyi xeyli sərtləşdi. Prezidentlər fevralın 27-də və martın 6-da danışıqlara cəhd etsələr də, çox az irəliləyiş əldə edildi [87].

Heç şübhəsiz, ABŞ-ı sarsıtmış 11 sentyabr hadisələrindən sonra Rusiyanın antiterror koalisiyası çərçivəsində ABŞ-ı dəstəkləməsi iqtisadi sahədə də bu dövlətlər arasında əlaqələrin inkişafına pozitiv təsir göstərmişdir. 2001-2005-ci illər qarşılıqlı ticarət şərtləri əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Xüsusən, 2002-ci ilin

iyun ayında ABŞ-ın Rusiyada bazar iqtisadiyyatının mövcudluğunu qəbul etməsi həqiqətən də, ticari-iqtisadi sahədə əməkdaşlığın inkişafına yeni impuls vermişdir. 2003-cü ildə Rusiya ABŞ məhsulunun idxalatçıları arasında yalnız 35-ci, ABŞ-a mal ixracatçıları sırasında isə 29-cu yerdə idi. Rusiyadan ABŞ-a ixrac 2003-cü ildə 8.6 mlrd dollara, idxalın həcmi isə 2.4 mlrd dollara bərabər olmuşdur. Rusiyanın bütün xarici ticarət dövriyyəsinin 6%-i ABŞ-ın üzərinə düşürdü. 2004-cü ildə isə Rusiya-ABŞ əmtəə dövriyyəsi əvvəlki illə müqayisədə 34% artaraq rekord səviyyəyə, 14,8 mlrd dollara çatmışdır. Rusiyadan ixrac 37% artaraq 11,85 mlrd dollar təşkil etmişdir, idxal isə 2,96 mlrd dolları ötmüşdür [11].

2000-ci il iyul ayında İtaliyanın Genuya şəhərində G8 sammitində, Rusiya və ABŞ Prezidentləri "Rusiya-Amerika Biznes Dialoqu" adlı yeni ikitərəfli işgüzar əməkdaşlıq institutunun yaradılmasını dəstəkləyən birgə bəyanatla çıxış etdilər. Biznes Dialoqunda Amerika Ticarət Palatası, ABŞ-Rusiya İşgüzar Şurası, Rusiya-Amerika Biznes Şurası və Sənayeçilər və Sahibkarlar İttifaqı iştirak edirdi. Format, tövsiyələr hazırlamalı və onları rəsmi şəkildə təqdim etməli idi. Səfirliklər isə, olduqları ölkədə bazara çıxış problemlərini həll etmək və investisiya maneələrini aradan qaldırmaq öhdəliyinə uyğun olaraq bu biznes qrupları və Rusiya hökuməti ilə sıx əməkdaşlıq etmək öhdəliyi götürdülər [140].

2004-cü ilin mart ayında V.Putinin, noyabrda isə C.Buşun yenidən prezident seçilməsi ilə hər iki lider gələcək dövr üçün birgə səylərlə ölkələr arasında əməkdaşlığın tam şəkildə reallaşdıracaqlarına əminliklərini ifadə etdilər [153]. Artıq V.Putin və C.Buş arasında 2005-ci il 24 fevral tarixində keçirilən Bratislava sammitində müzakirə mövzuları sırasında Rusiya və Avropada demokratiya, Şimali Koreyanın və İranın nüvə silahı proqramı, Yaxın Şərqdə sülh prosesi, iqtisadi, enerji və ticari münasibətlər, elmi-texnoloji əməkdaşlıq, terrorizmlə mübarizə, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması xüsusilə əhəmiyyətli idi [91]. Sonda, Nüvə Təhlükəsizliyi üzrə Əməkdaşlığa dair Birgə Bəyanat, ABŞ-Rusiya Enerji Əməkdaşlığına dair Birgə Bəyanat, eləcə də Rusiyanın Ümumdünya Ticarət Təşkilatına daxil olması haqqında Birgə Bəyanat imzalandı. V.Putin danışıqları

yüksək qiymətləndirsə də, ümumilikdə əlaqələr gərgin olaraq qalırdı və ABŞ rəsmiləri bu gərginliyi azaltmağın V.Putindən asılı olduğu mövqeyindən çıxış edirdi. Rusiyanın əsas narazılığı isə, NATO-nun son genişlənməsi, ABŞ-ın Moldova, Ukrayna və Belarusun demokratiyanı qəbul edəcəyini proqnozlaşdırması və Rusiyanın Tehranla nüvə texnologiyası sahəsində əməkdaşlığını gücləndirməsinə ABŞ-ın sərt möqe nümayiş etdirməsi ilə bağlı idi [27].

2008-ci ilin martın 2-də Rusiyada keçirilən prezident seçkilərində, Dmitri Medvedev V.Putinin dəstəyilə "Vahid Rusiya" partiyasının namizədi kimi Rusiyanın üçüncü Prezidenti seçildi [111]. C.Buş D.Medvedevi prezident seçilməsi münasibətilə təbrik etdi [28]. Lakin, 2008-ci il 7-12 avqust tarixlərində Rusiya-Gürcüstan müharibəsi, 26 avqustda Rusiyanın Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanıması, Rusiya-ABŞ münasibətlərində gərginliyi Soyuq müharibədən sonrakı maksimum həddə çatdırdı. Münasibətlərin gərginləşdiyi bir dövrdə, 2008-ci ilin noyabrın 4-də, ABŞ-da keçirilən prezident seçkilərində demokratların namizədi Barak Obamanın qalib gəlməsi [7, 100] əlaqələrdə yeni ümidlər yaratdı. Çünki, 2009-cu ilə gəlindiyində, beynəlxalq aləmdə baş verən gərginlik səbəbindən ABŞ-Rusiya münasibətləri 1991-ci ildə Sovet İttifaqı dağılandan və Soyuq müharibənin bitməsindən bəri ən aşağı həddə düşmüşdü. Münasibətlərin bu aşağı səviyyəsinə C.Buşun hakimiyyəti dövründə ABŞ-ın İraqa qarşı apardığı hərbi əməliyyatlar, İranın və Şimali Koreyanın nüvə proqramı, Kosovonun müstəqilliyi, rəngli inqilablar da səbəb olmuşdu. Bundan başqa, bir sıra problemlər (nüvə materiallarına nəzarət, beynəlxalq terrorizmlə mübarizə, NATO-nun genişlənməsi və ABŞ-ın Şərqi Avropadakı fəaliyyətləri, Rusiyanın ÜTT-yə daxil olması və onun Cekson-Venik Düzəlişindən çıxarılması) hələ də öz həllini tapmamışdı.

Məhz belə bir zamanda, 2009-cu ilin fevralında Münhen təhlükəsizlik konfrasında, ABŞ vitse-Prezidenti Co Bayden, Soyuq Müharibədən bəri ən aşağı həddə qədər pisləşən Rusiya ilə münasibətlərini "sıfırlamaq" təklifini səsləndirdi. Bu, Kreml və Ağ Ev arasında qarşılıqlı maraqları müəyyən etmək və tərəqqiyə yol

aça biləcək dialoq və əməkdaşlığı genişləndirmək üçün Amerika və Rusiya xalqları arasında yeni bir başlanğıcdan xəbər verirdi. [15].

2009-cu il martın 6-da, B.Obama administrasiyası dönəmində, ABŞ-Rusiya münasibətlərini yenidən qurmaq istiqamətində ABŞ Dövlət katibi Hillari Klinton və Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov arasında Cenevrədəki Intercontinental otelində ilk rəsmi ikitərəfli görüş keçirildi. Həmin görüşdə ABŞ Dövlət katibi H.Klinton, Rusiya ilə münasibətlərin "yenidən qurulması" təklifinin bir hissəsi olaraq, Rusiyanın Xarici İşlər naziri S.Lavrova üzərində "sıfırlama" sözü yazılan, lakin, düymənin rusca tərcüməsi Dövlət Departamenti tərəfindən səhv yazıldığından, "həddən artıq yükləmə" mənasını verən böyük qırmızı düyməli sarı qutunu təqdim etdi. Tərəflər, simvolik düymələri basaraq, Rusiya ilə ABŞ arasında münasibətlərin sıfırlanmasına rəmzi olaraq start verdilər [121].

B.Obamanın 2009-cu il 6-8 iyul tarixində, Moskvaya ilk rəsmi səfəri çərçivəsində qarşılıqlı maraq doğuran sahələr üzrə zəngin dialoq keçirildi. Bundan əlavə, münasibətlərin institusional əsaslarının formalaşdırılması üçün ABŞ və Rusiya Federasiyasının müxtəlif qurumları arasında bütün prioritet istiqamətlər, o cümlədən iqtisadi inkişaf, biznes və ticarət, enerji və ətraf mühit, nüvə enerjisi və fövqəladə halların qarşısının alınması, silahlara nəzarət və beynəlxalq təhlükəsizlik, xarici siyasət və terrorla mübarizə, vətəndaş cəmiyyəti, səhiyyə, təhsil, mədəniyyət, elm və texnologiya sahələrində əlaqələri koordinasiya edəcək və işçi qruplardan ibarət İkitərəfli Prezident Komissiyası yaratmaq qərarına gəldilər. Səfərin ən yadda qalan hadisələrindən biri, B.Obamanın aşağıdakı fikirlərində öz əksini tapdı: "Son illərdə "sürüklənmə hissindən əziyyət çəkən" münasibətlərə yenidən diqqət yetirməyə kömək etmək üçün ABŞ və Rusiya arasında münasibətləri "yenidən qurmağa" çağırış edirəm." [95].

2009-2010-cu illərdə münasibətlərin normallaşması prosesi Baş nazir V.Putin, 24 sentyabr 2011-ci ildə, "Vahid Rusiya" partiyasının qurultayında yeni prezidentlik müddətinə namizədliyini irəli sürmək niyyətini elan etdikdən sonra

mürəkkəbləşdi. Ağ Ev və ABŞ Dövlət Departamenti bu qərara nümayişkəranə mənfi münasibət göstərdi. Rusiyada qanunvericilik seçkilərindən sonra başlayan kütləvi etirazların başlanğıcında isə, V.Putin ABŞ-ı müdaxilə etməkdə və iğtişaşları qızışdırmaqda günahlandırdı, xüsusən Dövlət katibi H.Klintonun "ölkəmizdəki bəzi aktyorlara" "siqnal" göndərdiyini söylədi [150].

4 mart 2012-ci ildə Rusiyada növbəti prezident seçkilərindən sonra münasibətlər daha da pisləşməyə başladı. Beynəlxalq müşahidəçilər və Rusiya müxalif dairələri seçkilərin nəticələrini tanımamasına baxmayaraq, martın 10-da prezident B.Obama Rusiyanın yeni seçilmiş Prezidenti V.Putinə zəng edərək onu Rusiya prezident seçkilərində qazandığı son qələbə münasibətilə təbrik etdi [62]. Rusiya, ABŞ-ın güclü dəstəyi ilə 2012-ci ilin avqustun 22-də rəsmi olaraq ÜTT-yə qatılsa da və həmin il ABŞ Konqresi Rusiya ilə daimi ticarət əlaqələri qurmaq üçün qanun qəbul etsə də, [107] nəticə olaraq, sıfırlama uzun sürmədi, əslində həqiqi bir sıfırlamanın heç vaxt olmadığı və əlaqələrin zəif olduğu aydın oldu. Münasibətlər o qədər kəskinləşdi ki, Rusiya və ABŞ liderləri arasında birbaşa görüşlərin keçirilməsi də dayandırıldı [5, 367].

Bu reallıqları nəzərə alaraq, 2012-ci il seçkilərindən sonra Rusiya rəhbərliyinin xarici siyasət yanaşmasında dəyişikliklər edildi. Bu özünü, 27 fevral 2012-ci ildə, Baş nazir V.Putinin dərc etdiyi "Rusiya və dəyişən dünya" adında məqalədə göstərmişdi. Məqalədə, Rusiya "böyük dünyanın bir hissəsi" kimi təqdim edilir və onun "başqalarının diktəsi ilə dünyadan təcridi" tənqid olunurdu. Burada həmçinin, ABŞ-ın siyasətinə də toxunulur və Rusiyanın əsas problemi kimi "NATO-nun müasir inkişafın məntiqi ilə ziddiyyət təşkil edən blok əsaslı zehniyyəti" göstərilirdi [154]. Noyabrın 6-da ABŞ-da keçirilmiş prezident seçkilərində B.Obama yenidən ikinci prezidentlik dövrünə seçildikdən sonra, Rusiya Prezidenti V.Putin B.Obamanı qazandığı qələbə münasibətilə təbrik etdi və B.Obamanın gələn il Rusiyaya səfər edəcəyinə ümid etdiyini bildirdi [64].

Lakin, 2013-cü ilin sentyabrında Prezident B.Obamanın Moskvaya səfəri iyun ayında Mərkəzi Kəşfiyyat İdarəsinin keçmiş əməkdaşı Edvard Snoudenə Rusiyada müvəqqəti sığınacaq verilməsi, Suriyadakı vəziyyət və Rusiyada insan haqları problemləri ilə bağlı fikir ayrılıqları səbəbindən ləğv edildi. Amerika Prezidenti, həmçinin iki-iki formatda danışıqlar aparmaq üçün Vaşinqtona gələn Rusiyanın Xarici İşlər və Müdafiə nazirləri Sergey Lavrov və Sergey Şoyqunu da qəbul etməkdən imtina etdi. Sentyabrda G-20-nin Moskva sammitində B.Obamanın V.Putinlə görüşü təxirə salması ilə nəticələnən qalmaqal "yenidən yüklənmə" dövrünün sona çatmasını rəsmiləşdirdi. ABŞ Prezidenti Ağ Evdə keçirdiyi mətbuat konfransında Rusiya Prezidenti ilə görüşdən imtinasının səbəblərini açıqlayarkən qeyd etdi ki, "özünün V.Putinə qarşı şəxsi ədavəti yoxdur, lakin D.Medvedevin prezidentliyi dövründə ABŞ və Rusiya arasında münasibətlər daha mehriban idi. Əvvəlki illərdə "yenidən yükləmə" siyasəti sayəsində Rusiya-Amerika münasibətlərində "əhəmiyyətli irəliləyiş" əldə edilmişdi, lakin V.Putin yenidən prezidentliyə qayıtdıqdan sonra Rusiya daha çox anti-Amerika ritorikasından istifadə etməyə başlayıb və bu, soyuq müharibədən qalan bəzi köhnə stereotiplərin qalmasına kömək edib." [170]. B.Obama 2013-cü il 5-6 sentyabrda, G-20 sammitində iştirak etmək üçün Rusiyanın Sankt-Peterburq şəhərinə səfər etsə də, Rusiya Prezidenti və digər rəsmilərlə görüş keçirmədi [188]. Beləliklə, 2013-cü ilin ilk aylarında B.Obama administrasiyasının Moskva ilə əlaqələri genişləndirmək və dərinləşdirmək üçün onsuz da zəifləyən təşəbbüsü "sıfırlama" iflasa uğradı. 2014-cü il martın əvvəlində Ukrayna hadisələri və Krım böhranı ilə bağlı iki ölkə arasında münasibətlərin kəskinləşməsi ilə əlaqədar Dövlət katibi C.Kerri televiziyaya müsahibəsində "sıfırlamanın" keçmişdə qaldığını söylədi: "Biz Rusiya ilə münasibətlərin fərqli mərhələsinə qədəm qoyduq" [168].

Nəticə olaraq, Moskva ilə Vaşinqton arasında növbəti dialoq praktiki olaraq puça çıxdı. Bu hadisədən sonra, Obama administrasiyası Rusiyanın bir sıra rəsmilərinə, Federal Məclisin deputatlarına və sahibkarlara, eləcə də şirkətlərə və banklara qarşı viza, maliyyə və əmlak sanksiyaları tətbiq edərək, Rusiyanı "sistemli

qapalı saxlamaq" və "beynəlxalq təcrid etmək" siyasətinə başladı. Rusiya tərəfi isə ABŞ-ın qeyri-dost hərəkətləri ilə bağlı Rusiyanın milli maraqlarını qorumaq üçün əks-addımlar atdı. 2009-cu ildə yaradılmış Rusiya-Amerika Prezident Komissiyası nəzdində əlaqələr dayandırıldı, ikitərəfli əməkdaşlıq çərçivəsində bir sıra tədbirlər ləğv edildi [176]. Bu hadisələr iqtisadi əlaqələrə də təsirsiz ötüşmədi. 2012-ci ilin sonunda Rusiyaya yatırılan 500 mlrd dollara yaxın birbaşa xarici investisiyanın 1%-dən az hissəsi ABŞ-ın payına düşmüşdü. Diqqətəlayiq nümunə, 2011-ci ildə Rusiyanın neft şirkəti Rosneft ilə digər fəaliyyətlər arasında Rusiya Artikasında qazma işləri aparmaq üçün strateji əməkdaşlıq müqaviləsi bağlayan ExxonMobildir. 2012-ci ildə iqtisadi fəaliyyətlərin genişlənməsinə həmçinin, ABŞ Konqresinin 16 noyabr 2012-ci ildə Cekson-Venik düzəlişini ləğv etməsi səbəb oldu. Lakin, 2013-cü ilin sonunda ABŞ Rusiyanın ümumi ticarətində və investisiya axınında nisbətən kiçik bir paya malik olmuşdur [49]. Belə ki, 2013-cü ildə Amerika Rusiyaya 11,1 mlrd dollar mal ixrac etmiş (ümumi ixracatın 0,71%-i) və 27,1 mlrd dollar idxal etmişdir (ümumi idxalatın 1,19%-i) ki, 2015-ci ildə ABŞ-ın tam sanksiyaları qüvvəyə minəndə ixracat 7.1 mlrd dollara, idxal isə 16.4 mlrd dollara düşmüşdü [132]. Rusiya Mərkəzi Bankının məlumatlarına görə, 2014-cü ildə isə ABŞ-dakı Rusiya birbaşa investisiyalarının ümumi həcmi 21,6 mlrd dollar idi, bu da ABŞ-ın Rusiya iqtisadiyyatındakı səhmlərindən 18,6 mlrd dollar çox idi [53].

2015-ci ildə gəlindiyində əməkdaşlıq mahiyyətcə dayanmış, əlaqələr kəskin şəkildə azalmışdı. ABŞ-Rusiya münasibətləri getdikcə Soyuq Müharibə dövrünün münasibətlərinə bənzəyirdi [125]. Artan ikitərəfli gərginlik ABŞ-dakı daxili siyasi vəziyyət, partiyalararası mübarizədə rusofobiyadan istifadə edilməsi və Rusiyanın 2016-cı il ABŞ prezident seçkilərinə müdaxiləsi və Demokratlar Partiyasının Milli Komitəsinin serverlərinə kiberhücum təşkil etməsi ittihamları ilə daha da kəskinləşmişdi [163].

Belə bir şəraitdə, ABŞ-da keçirilən növbəti seçkilərdə Respublikaçı Donald Trampın qələbəsi Rusiyada Rusiya-Amerika münasibətlərinin yaxşılaşmasına ümidləri artırdı. Noyabrın 14-də Rusiya Prezidenti V.Putinlə ABŞ-ın yeni seçilmiş

Prezidenti D.Tramp arasında ilk telefon danışığı zamanı tərəflər Rusiya-Amerika münasibətlərinin son dərəcə qeyri-qənaətbəxş vəziyyəti haqqında razılığa gəldilər və geniş spektrli məsələlər üzrə münasibətlərin normallaşdırılması üçün birgə, konstruktiv və qarşılıqlı fəaliyyət haqqında müzakirə apardılar. Buna baxmayaraq, seçkilərdən keçən bir il ərzində, heç bir tam hüquqlu Rusiya-Amerika sammiti baş tutmadı. Noyabrın ortalarında isə, D.Trampın ABŞ Prezidenti seçilməsindən qısa müddət sonra Kreml, öncəki demokratlar hökumətini ABŞ-ın Rusiya ilə münasibətlərini Tramp administrasiyası tərəfindən normallaşmanı qeyri-mümkün edəcək dərəcədə korlamaqda ittiham etdi [65]. Dekabrın 1-də Rusiya parlamentinin Federasiya Şurasına müraciətində V.Putin ABŞ-Rusiya münasibətləri haqqında belə söylədi: “Biz Amerikanın yeni administrasiyası ilə əməkdaşlığa hazırıq. İkitərəfli münasibətləri bərabər və qarşılıqlı faydalı əsasda normallaşdırmaq və inkişaf etdirməyə başlamaq vacibdir. Qlobal və regional problemlərin həllində Rusiya və ABŞ-ın qarşılıqlı səyləri bütün dünyanın marağındadır” [181]. İlin sonunda D.Tramp Vaşinqtonun 35 rusiyalı diplomatı ölkədən çıxarmasına, həmçinin Obama administrasiyası tərəfindən görülən digər cəza tədbirlərinə cavab olaraq, ABŞ diplomatlarını ölkədən çıxarmadığına görə V.Putinə təşəkkür etdi [114].

ABŞ-da andiçmə mərasimindən bir həftə sonra, yəni 2017-ci il yanvarın 28-də prezidentlər arasında 50 dəqiqəlik telefon danışığı zamanı beynəlxalq məsələlər və qarşılıqlı faydalı ticarətin yenidən qurulması müzakirə olundu və daha sonrakı tarix üçün üzbəüz görüş təşkil etmək barədə razılığa gəlindi [134]. Zəngdən sonra Ağ Ev bəyanat yayaraq, ilk təmasları ABŞ və Rusiya arasında "təmirə ehtiyacı olan" münasibətləri yaxşılaşdırmaq üçün "əhəmiyyətli başlanğıc" kimi qiymətləndirdi [44]. Bu cür müsbət bəyanatlara baxmayaraq, aprel-may aylarında ümumilikdə ölkələr arasında münasibətlər donmuş və heç bir irəliləyişin olmadığı kimi xarakterizə edilirdi. Xüsusən, iyunun 13-də Rusiya Xarici İşlər Nazirliyi təsdiqlədi ki, Rusiya tarixində 25 il əvvəl təsis edilən və 12 iyunda qeyd olunan Rusiyanın milli günü münasibətilə yeganə olaraq, ABŞ hökumətindən rəsmi təbrik almayıb [188].

İyulun 7-də, hər iki ölkənin liderləri, Dövlət katibi Reks Tillerson və Rusiyanın Xarici İşlər naziri S.Lavrovun müşayiəti ilə Almaniyanın Hamburq şəhərində iki saatdan çox görüşdülər və “cənab Putinlə birlikdə olmaqdan qürur duyduğunu” ifadə edən D.Tramp, ilk təkbətək danışıqları “böyük şərəf” adlandırdı, bundan başqa, əlavə etdi ki, “Biz çoxlu müsbət şeylərin baş verəcəyini gözləyirik - Rusiya, ABŞ və hər kəs üçün." Görüşdə, həmçinin Amerikada prezident kompaniyasına Rusiyanın müdaxilə etməsi iddiaları da müzakirə olundu və bildirildi ki, “bu məsələ Amerikada həddən artıq şişirdilib.” [31].

2015-2016-cı illər də Rusiya və ABŞ arasında ticarət üçün əlverişli hesab oluna bilməz. Belə ki, ümumi dövriyyə 21 mlrd dollar təşkil edib, bu da keçən illə müqayisədə 27,9 faiz azalma deməkdir. ABŞ-dan Rusiyaya ixracat 7.1 mlrd dollar kimi qiymətləndirilsə də, az dəyərli hesab olunurdu. Rusiya Federal Gömrük Xidmətinin məlumatına görə, 2016-cı ildə Rusiya ilə ABŞ arasında ikitərəfli mal dövriyyəsi 2015-ci illə müqayisədə 4,5% azalaraq 19,97 mlrd dollar təşkil edib. Rusiyanın ABŞ-a ixracı 9,3 mlrd təşkil edib [131]. Rusiya Mərkəzi Bankının məlumatına görə, 2016-cı ilin sonuna ABŞ-dan Rusiyaya birbaşa investisiya axını 403 mln dollar, Rusiyadan ABŞ-a isə 873 mln dollar təşkil edib. 2016-cı ildə Rusiyanın ABŞ-a birbaşa investisiyalarının ümumi həcmi 8,69 mlrd dollar, Amerikanın Rusiyaya investisiyaları isə 2,2 mlrd dollar səviyyəsində qiymətləndirilib [131]. 2017-ci ildə isə ABŞ Rusiyanın 10-cu ən böyük xarici investoru olmuşdur ki, buna Ukraynadakı münaqişə nəticəsində ikitərəfli ticarət və investisiya da daxil olmaqla, iqtisadi əməkdaşlığın bir sıra formalarının dayandırılması və ya məhdudlaşdırılması təsir göstərmişdir. Eyni dövrdə ABŞ iqtisadiyyatında isə Rusiya sərmayəsinin həcmi 1 mlrd dollardan artıq idi. ABŞ sərmayəsi Rusiya iqtisadiyyatında rolunu xüsusilə neft-qaz sektoru, yüngül-qida sənayesi, telekommunikasiya, tibbi texnika və dərman istehsalı sahəsində əsas hərəkətverici amil idi. Onu da qeyd etmək lazımdır ki, ABŞ Rusiyada öz sərmayələrini əsasən istehsalı tez və ucuz başa gələn, qoyulan kapitalın tez bir zamanda geri qaytarılmasını şərtləndirən sahələrə yönəldirdi [133].

2018-ci il yanvarın sonunda, Tramp administrasiyası Amerikanın Düşmənlərinə Qarşı Mübarizə Müqaviləsinin verdiyi son tarixdə, Rusiyaya dərhal yeni sanksiyalar tətbiq etməməyi seçməmişdən bir neçə gün əvvəl, ABŞ-ın sanksiyalar siyahısında olan Rusiyanın üç əsas kəşfiyyat və təhlükəsizlik qurumunun direktorlarından olan Sergey Narışkin və İqor Korobovun Vaşinqtona qeyri-adi elan edilməmiş səfəri və onların ABŞ-ın yüksək səviyyəli təhlükəsizlik rəsmiləri ilə görüşləri ABŞ-da geniş siyasi mübahisələrə yol açdı [34]. Növbəti qalmaqal isə, İngiltərənin Solsberi şəhərində keçmiş rusiyalı hərbçi və kəşfiyyatçı Sergey Skripalın və qızı Yuliya Skripalın zəhərlənməsindən sonra, 2018-ci ilin martın 12-də ABŞ Dövlət katibi R.Tillerson zəhərlənmə hücumu ilə bağlı "məsuliyyətin Rusiya"-ya aid olduğunu bəyan etdikdən sonra yaşandı. Ertəsi gün ABŞ Prezidenti D.Tramp Rusiyanın məsuliyyət daşıdığını dedi [157]. ABŞ Milli Təhlükəsizlik Şurasının tövsiyəsindən sonra Prezident D.Tramp martın 26-da "Rusiyanın bütün dünyada sabitliyi pozan fəaliyyətlərinin sonuncu nümunəsi kimi Birləşmiş Krallıqda hərbi təyinatlı kimyəvi silahdan istifadə etməsinə cavab olaraq" 48-i Vaşinqtondan, 12-si Nyu-Yorkdan olmaqla, 60 rus diplomatın (Ağ Ev tərəfindən "Rusiya kəşfiyyatçıları" adlandırılır) ölkədən çıxarılmasına və San Fransisko və Sietldə Rusiya konsulluğunun bağlanmasına göstəriş verdi. Martın 30-da, Rusiya eyni sayda ABŞ diplomatından ölkəni tərk etməyi tələb etdi və ABŞ-ın Sankt-Peterburqdakı konsulluğu bağlandı [191].

Mübahisəli məsələləri müzakirə etmək üçün, ABŞ Prezidenti D.Tramp və Rusiya Prezidenti V.Putinin üçüncü ikitərəfli və ilk rəsmi görüşü iyulun 16-da Finlandiyanın Helsinki şəhərində keçirildi. Görüşün müəyyən bir gündəmi razılaşdırılmasa da, ikitərəfli dialoqun mövzularına Suriya, Əfqanıstan, Şimali Koreya, İran, Venesuela, enerji, terrorla mübarizə və strateji təhlükəsizlik məsələləri, Rusiyanın yenidən Səkkizlik Qrupuna qayıtması daxil idi [14]. Həm görüşdən əvvəl, həm də sammitdən sonrakı birgə mətbuat konfransı zamanı ABŞ Prezidenti Donald Tramp əvvəlki açıqlamasından fərqli bir fikir səsləndirdi: o, Amerika xüsusi xidmət orqanlarının "2016-cı il seçkilərinə Rusiyanın müdaxilə

etdiyi" haqqında olan nəticələrini qəbul etdiyini söylədi, lakin, bu məsələ ilə bağlı V.Putini şəxsən günahlandırmadı: "Mən burada Rusiyanın müdaxiləsinə bir səbəb görmürəm", - Donald Trump suala cavabında belə deyib. Helsinkidə keçirilən görüş zamanı, D.Tramp ikitərəfli münasibətlərin qaydaya salınması üçün şansların olduğunu da vurğuladı: "Bu çox yaxşı başlanğıcdır. Vaxtilə münasibətlərin pisləşməsində hər iki tərəf təqsirkar olub və səhvlərə yol verib. Bu cür dialoqa çoxdan başlamaq lazım idi." - deyə ABŞ rəhbəri bildirib [136]. D.Trampın laqeyd fikirləri amerikalı siyasətçilər, jurnalistlər, o cümlədən təmsil etdiyi Respublikaçılar partiyasında kəskin tənqid olundu. Ertəsi gün, D.Tramp Ağ Evdə jurnalistlərə verdiyi açıqlamada, seçkilərə müdaxilə ilə bağlı səhv danışdığını, fikirlərinin dəqiq olmadığını və Rusiyanın seçkilərə müdaxilə etməməsi üçün bir səbəb görmədiyini bildirdi [66].

Beləliklə aydın olur ki, əvvəlcə D.Trampın seçkilərdə qələbəsi Rusiyada gərginliyin azalacağına dair ümidləri artırmışdı. Lakin Moskva və Vaşinqtonun bir-birlərini geniş miqyaslı qlobal və regional problemlərə görə günahlandırmaları, D.Trampın Rusiya ilə bağlı bütün siyasət təşəbbüsləri Amerika siyasi elitalarının və Konqresinin müqaviməti ilə qarşılaşdığından münasibətlərdə əhəmiyyətli bir irəliləyiş qeydə alınmadı.

2019-cu il avqustun 6-da ABŞ Dövlət Departamenti Skripal işi ilə əlaqədar zəhərlənmənin arxasında Rusiyanın dayandığı qənaətinə gəldi və ayın 8-də Rusiya banklarına və ixracatına qarşı sanksiyalar tətbiq etməyə razılaşdı. Sanksiyaların avqustun 27-də qüvvəyə minməsi planlaşdırılırsa da, bu sanksiyalar Tramp administrasiyası tərəfindən həyata keçirilmədi. Bundan başqa, Birləşmiş Ştatlar BMT Baş Assambleyanın yüksək səviyyəli sessiyasında iştirak etmək üçün, Nyu-Yorka səfər edən Rusiya Xarici İşlər naziri S.Lavrovu müşayiət etməli olan 13 rusiyalı diplomat və 8 parlamentariyə viza verməkdən imtina etdi [193]. Dekabrda isə D.Tramp administrasiyası Rusiyadan Almaniyaya uzanan "Şimal axını -2" təbii qaz boru kəmərinin tikintisində iştirak edən şirkətlərə və hökumətlərə qarşı sanksiya tətbiq etdi [135]. S.Lavrov sanksiyaları tənqid edərək bildirdi ki, ABŞ Konqresi

ABŞ-Rusiya münasibətlərini “məhv etmək üçün hər şeyi etmək istəyi ilə sözün əsl mənasında boğulur”. Bir sıra ekspertlərin və şərhçilərin fikirlərinə görə, bu dövrdə ABŞ və Rusiya arasında münasibətlər SSRİ-nin dağılmasından və müstəqil Rusiya Federasiyasının elan edilməsindən sonrakı bütün dövr ərzində ən aşağı səviyyədə xarakterizə olunurdu. 2019-cu ilin iyun ayının sonuna olan məlumata görə, ABŞ-ın 288 Rusiya vətəndaşı və 485 hüquqi şəxsə qarşı müxtəlif sanksiyaları qüvvədə idi [184].

2019-2020-ci illərdə ABŞ-Rusiya iqtisadi münasibətlərində də əhəmiyyətli irəliləyiş qeydə alınmadı. ABŞ-ın Rusiya ilə mal və xidmətlərin ticarəti 2019-cu ildə təqribən 34,9 mlrd dollar (ixrac 10,9 mlrd, idxal isə 24 mlrd dollar olub). Rusiya 2019-cu ildə ABŞ-ın 40-cı ən böyük mal ixracat bazarı olub, Rusiya isə ABŞ-ın mal idxalı üzrə 20-ci ən böyük tədarükçüsü olub. ABŞ-ın Rusiyaya birbaşa xarici sərmayəsi 2019-cu ildə 14,4 mlrd dollar təşkil edib ki, bu da 2018-ci illə müqayisədə 2,6% artım deməkdir. Rusiyanın ABŞ-dakı səhmləri isə 2019-cu ildə 2018-ci illə müqayisədə 1,9% azalaraq 4,4 mlrd dollar təşkil edib [151]. 2020-ci ildə isə ABŞ-ın Rusiyadan idxalı 17,71 mlrd ABŞ dolları təşkil edib. Halbuki, bu göstəricilər 2012-də 30 mlrd, 2015-də 15 mlrd, 2019-da 23 mlrd dollar kimi qiymətləndirilmişdi. Rusiyada fəaliyyət göstərən Amerika şirkətləri 2020-ci ildə Rusiya iqtisadiyyatına cəmi 2,2 mlrd dollar həcmində birbaşa investisiya yatırıblar, 2021-ci ildə isə bu rəqəm 1,8 mlrd olmuşdur. Bu sərmayələrin yarıdan çoxu əsasən enerji və təbii ehtiyatlar sənayesinə yönəldilib. Amerika şirkətləri Rusiyada fəaliyyət göstərdikləri müddətdə ümumilikdə 96,05 mlrd dollar birbaşa investisiya ayırıblar. 2020-ci ildə aktivliyin azalmasına baxmayaraq, şirkətlərin əksəriyyəti üçün Rusiya strateji bazar kimi qiymətləndirilirdi [144].

2020-2021-ci illər ikitərəfli münasibətlərin ən soyuq və gərgin xarakteri ilə yadda qaldı. Xüsusən, davam edən siyasi və diplomatik gərginlik Ukrayna və Qara dənizdə hərbi fəallığın artırılması ilə daha da kəskinləşdi. Rusiyalı müxalif Aleksey Navalnının zəhərlənmə iddiası ilə müalicə aldığı Almaniyadan qayıdan kimi Moskva hava limanında saxlanılıb həbs cəzasına məhkum edilməsi ilə, ABŞ

Rusiyaya qarşı yeni sanksiyalar tətbiq etmək qərarına gəldi. İl ərzində hər iki tərəf müxtəlif səbəblərdən vaxtaşırı öz diplomatlarını geri çağırdılar [179].

2020-ci il dekabrın 15-də Rusiya Prezidenti V.Putin Co Baydenə noyabrın 3-də keçirilən ABŞ prezident seçkilərində qalib gəlməsi münasibətilə təbrik məktubu ünvanladı. "V.Putin seçilmiş prezidentə uğurlar arzulayıb və əmin olduğunu bildirib ki, qlobal təhlükəsizlik və sabitlik üçün xüsusi məsuliyyət daşıyan Rusiya və ABŞ, fikir ayrılıqlarına baxmayaraq, həqiqətən də dünyanın üzləşdiyi çoxsaylı problem və çağırışların həllinə kömək edə biləcəklər" - Kreml V.Putindən sitat gətirib [88]. 2021-ci il yanvarın 26-da tərəflər arasında telefon danışığı aparıldı və liderlər hər iki ölkənin Yeni START-ı beş il müddətinə uzatmaq istəyi, bir sıra silahlara nəzarət və yaranan strateji təhlükəsizlik məsələləri üzrə müzakirələri aparmaq, gələcəkdə ardıcıl ünsiyyət saxlamaq barədə razılığa gəldilər. Prezident C.Bayden Birləşmiş Ştatların Ukraynanın suverenliyinə qəti dəstəyini bir daha təsdiqlədi, həmçinin digər narahatlıq doğuran məsələləri, o cümlədən SolarWinds-in sındırılması, Rusiyanın Əfqanıstandakı ABŞ əsgərlərinə mükafat iddiaları, 2020-ci il ABŞ seçkilərinə müdaxilə və Aleksey Navalnının zəhərlənməsi mövzularına da toxunaraq, öz milli maraqlarını müdafiə etmək üçün qətiyyətlə hərəkət edəcəyini açıqladı. Bütün bunlardan əlavə, prezidentlər COVİD-19 pandemiyası, Açıq Səma Müqaviləsi və İranın nüvə sazişi, Birgə Hərtərəfli Fəaliyyət Planını da müzakirə etdilər [103]. İlk söhbət üçün mövzuların uzun siyahısı Vaşinqton və Moskva arasında əvvəlki administrasiyadan miras qalmış problemli vəziyyətini nümayiş etdirirdi. Çox keçmədi ki, mart ayında yayımlanan ABC News televiziya müsahibəsində C.Baydendən V.Putinin qatil olduğuna inanıb-inanmadığını soruşduqda "inanıram" cavabını verdi və ABŞ seçkilərinə müdaxilənin "əvəzini ödəyəcəyini" söylədi. V.Putin C.Baydenin müsahibəsinə münasibət bildirərkən qeyd edib ki, "bu kəskin bəyanatlara gəlincə, nə deyə bilərəm ki, biz hamımız onlarla tanışıq ... ona (Co Baydenə) can sağlığı arzulayıram. Başqa ölkəni, dövləti, cəmiyyəti və ya insanları qiymətləndirmək güzgüyə baxmaq kimidir". Rusiya lideri daha sonra ABŞ-ın özünü çoxsaylı insan haqları pozuntularına, Əfqanıstan və İraqda mülki əhalinin qətlinə

görə məsuliyyət daşımaqda ittiham etdi. "Bunun məsuliyyətini kim üzərinə götürür?", - V.Putin bildirib. "Qatil kimdir? [100].

2021-ci ilin aprelində Bayden Administrasiyası 2020-ci il ABŞ seçkilərinə müdaxilə, SolarWinds kiberhücumları və digər zərərli xarici fəaliyyətlərə görə 6 rus texnologiya şirkətinə və eləcə də 32 digər fiziki və hüquqi şəxsə qarşı yeni sanksiyalar tətbiq etdi, 10 rus diplomatını ölkədən çıxardığını açıqladı. Ertəsi gün Rusiya buna cavab olaraq, 10 ABŞ diplomatını ölkədən çıxardı və ABŞ səfirinə məsləhətləşmələr üçün evə qayıtmağı təklif etdi [17, 48]. Aprelin 23-də V.Putin xarici ölkələrin "dost olmayan" hərəkətlərinə qarşı tədbirlərin görülməsi haqqında qərar imzalasa da, 2021-ci ilin may ayında Bayden administrasiyası Rusiya ilə Almaniya arasında inşa edilən "Şimal axını - 2" qaz kəmərinin aparıcı şirkətlərinə və və onun icraçı direktorlarına qarşı sanksiyalardan imtina etdi, layihənin pis olduğuna inansa da, ABŞ Dövlət Departamenti sanksiyalardan imtina etməyin "ABŞ-ın milli maraqlarına" uyğun gəldiyi qənaətinə gəldiyini izah etdi. Rusiya Xarici İşlər nazirinin müavini Sergey Ryabkov bu addımı "ikitərəfli əlaqələrin normallaşmasına tədricən keçid üçün şans" kimi qiymətləndirdi [26].

Münasibətlərin bu qədər gərginləşməsinə baxmayaraq, 2021-ci il iyunun 16-da prezidentlər İsveçrənin Cenevrə şəhərində Rusiya-ABŞ sammitində görüşdülər. Bu zirvə ilk üz-üzə görüş idi [25]. Sammitdən öncə, müzakirələrdən böyük irəliləyişlər gözlənilməsə də, lakin kiçik razılaşmalar üçün ümidlərin olduğu vurğulanırdı. Sammitin ertəsi günü V.Putin görüşün nəticələrini müsbət qiymətləndirdi və tərəfdaşını "ağıllı və fərasətli danışıqlar aparan şəxs" kimi təriflədi [99]. Ancaq, 28 noyabr 2021-ci ildə ABŞ-ın 2022-ci ilin yanvar ayının sonuna qədər 27 Rusiya diplomatik əməkdaşını ölkədən çıxaracağı xəbərinə cavab olaraq, 1 dekabr 2021-ci ildə Rusiya Xarici İşlər Nazirliyi üç ildən artıq Moskvada işləyən ABŞ diplomatlarından 2022-ci il yanvarın 31-dək ölkəni tərk etmələrini tələb etdi [46].

V.Putin və C.Bayden 2021-ci il dekabrın 7-də videokonfrans vasitəsilə növbəti dəfə görüşdülər. C.Bayden Ukraynanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini təkrarladı və gərginliyi azaltmağa və diplomatiyaya qayıtmağa çağırdı və açıq şəkildə bildirdi ki, "ABŞ və müttəfiqlərimiz hərbi eskalasiya halında güclü iqtisadi və digər tədbirlərlə cavab verəcəkdir." [96]. 24 fevral 2022-ci ildə isə, C.Bayden Rusiyanın Ukraynaya təcavüzünü pisləyərək "Putinin bu müharibəni seçdiyini" dedi və onu "təcavüzkar" adlandırdı, bir gündən sonra isə, Ağ Ev ABŞ-ın V.Putin və S.Lavrova şəxsən sanksiya tətbiq edəcəyini açıqladı [33]. Martın 29-da C.Bayden, V.Putinlə bağlı qınaqlarını artırdı və bildirdi ki, daha əvvəl "Putin hakimiyyətdə qala bilməz" dediyi üçün "üzr istəməyəcək" [58].

Göründüyü kimi, ABŞ-ın uzunmüddətli məqsədi Rusiya ilə sabit və proqnozlaşdırıla bilən əlaqələr qurmaqdır. Lakin həm maraqlardakı ziddiyyətlər, həm də tərəflərin balanssız potensialı səbəbindən ikitərəfli münasibətlər əməkdaşlıq və qarşıdurma dövrləri arasında dövr edir.

## 1.2. Hərbi-strateji təhlükəsizlik məsələləri və geosiyasi maraqlar qarşılıqlı münasibətlərin mühüm elementi kimi

İki nüvə dövləti kimi ABŞ və Rusiya Orta Mənzilli Nüvə Qüvvələri (INF) Müqaviləsi, ardınca Strateji Silahların Azaldılması Müqaviləsində (START I) öz ərazilərinə və müttəfiq dövlətlərin ərazilərinə nüvə dövlətləri ilə birgə qeyri-nüvə dövlətlərinin hücumu olmayana qədər nüvə silahı tətbiq etməyəcəyini elan etsələr də, yeni minillikdə nüvə silahlarının məhdudlaşdırılması və azaldılması istiqamətində birinci addımlar elə ilk illərdə atıldı. 2000-ci ilin aprelin 14-də, Rusiyanın Dövlət Duması və Federasiya Şurası Strateji Hücum Silahlarının (ballistik, sualtı ballistik və ağır qitələrarası raketlərin) Azaldılmasına dair 1993-cü il 3 yanvar müqaviləsini (SHS-2) təsdiq etdi. Qanunda deyilirdi ki, "ABŞ raketdən müdafiə sistemlərinin məhdudlaşdırılması haqqında 1972-ci il müqaviləsindən çıxsa, Rusiya SHS-2 razılaşmasından çıxmaq hüququnu özündə saxlayır". Bundan əlavə, təsdiq olunma qanununda qeyd olunurdu ki, müqavilə yalnız 1972-ci il Raket

Əleyhinə Müdafiə sistemləri Müqaviləsi ilə birlikdə etibarlı sayılacaq. Birləşmiş Ştatlar RƏM Müqaviləsini pozduqda və ya ondan birətəfli olaraq çıxdıqda, Rusiya da özünün müqavilədən çıxmaq hüququnu özündə saxlayırdı [122]. 2000-ci il aprelində Dövlət Dumasındakı çıxışında Rusiya Prezidenti V.Putin bəyan etdi ki, ballistik raketləri həm də köhnəldiyinə görə ləğv etmək lazımdır. ABŞ isə ona görə güzəştə gedirdi ki, raketdən müdafiə sistemi yaratmaqda Rusiya ona mane olmasın [2, 253].

2000-2001-ci illərdə B.Klinton və V.Putin arasında əsas təhlükəsizlik mövzularına Yaxın Şərq sülh təşəbbüsü, İranın nüvə proqramı, Çeçenistan, Slobodan Miloşeviç rejimi, strateji nüvə qüvvələri müqaviləsi məsələləri daxil idi. 11 sentyabr hadisələrindən sonra isə ABŞ RƏM müqaviləsinə yenidən baxılmasında maraqlı olduğunu bildirdi. 6 dekabr 2001-ci ildə Rusiya və ABŞ, 1994-cü il dekabrın 5-də qüvvəyə minmiş START-1 Müqaviləsi üzrə öhdəliklərini yerinə yetirdiklərini elan etsələr də, qısa müddət ərzində ABŞ-ın 10-a yaxın ciddi pozuntusu qeydə alındı; xüsusilə ABŞ-ın nüvə başlıqlarını və raketlərin ikinci mərhələləri məhv etməməsi sayəsində "bərpa potensialı"-nın qorunub saxlanılması narazılığa səbəb oldu. Həmçinin, ABŞ-ın Avropa ölkələrində raket əleyhinə müdafiə sisteminin qurğularının yerləşdirmə planları gərginliyi artırdı [128].

Bu müddət ərzində Rusiya ilə ABŞ arasında gələcək əməkdaşlığın və yaxınlaşmanın qarşısı elə məhz ABŞ-ın özü tərəfindən alındı, belə ki, 2001-ci il dekabrın 13-də ABŞ 1972-ci il tarixli RƏMS müqaviləsindən birtərəfli qaydada çıxdığını bəyan etdi, 2002-ci il iyununda isə müqavilədə rəsmən fəaliyyətini dayandırdı. Rusiya hökuməti Vaşinqtonun qərarından narahatlığını ifadə etsə də, qərarın legitimliyini tanıdı, cavab olaraq 14 iyun 2002-ci ildə SHS-2 müqaviləsinin qüvvədən düşdüyünü elan etdi [5, 121]. ABŞ, milli raket əleyhinə müdafiə sistemini qurmaq fəaliyyətinə, Alyaskada güclü radiolokasiya stansiyası qurmaqla başladı, 2004-cü ildə isə Alyaskada RƏMS yaradılacağını elan etdi [3, 132].

Bununla belə, tərəflərin silahlar üzərində nəzarət haqqında yeni müqavilənin hazırlanması ilə bağlı danışıqları davam edirdi və nəticə olaraq, Strateji Hücum Potensialının Məhdudlaşdırılması Müqaviləsi (SHPM) adlanan razılaşma, 24 may 2002-ci ildə, ABŞ Prezidenti C.Buşun Moskva və Sankt-Peterburqa rəsmi səfəri zamanı imzalandı [3, 131]. Müqavilədə, 31 dekabr 2012-ci ilə qədər, strateji nüvə başlıqlarının ümumi sayının 1700-2200 ədədə qədər azaldılması, hər bir tərəfin bu həddə əsaslanaraq strateji hücum silahlarının strukturunu və tərkibini müstəqil şəkildə qurmaq hüququna malik olması nəzərdə tutulurdu. Yalnız, razılaşmada çatdırılma vasitələrinin məhdudlaşdırılmasına hədd qoyulmur, sıradan çıxmış raketlərin məhv edilməsinə isə toxunulmurdu [5, 120]. Bundan başqa, prezidentlər Strateji Münasibətlər haqqında Birgə Bəyannamə də imzaladılar. Mayın 24-də imzalanma mərasimindən sonra keçirilən mətbuat konfransında C.Buş bildirdi ki, saziş ABŞ və Rusiya arasında “soyuq müharibənin nüvə düşmənçiliyi irsini ləğv edir” [89]. SHPM müqaviləsi, Duma tərəfindən 2003-cü ilin may ayında təsdiq olundu [2, 262].

2004-cü ilin martın 29-da NATO-nun genişlənməsi zamanı Rusiyanın diplomatik səylərinə baxmayaraq, ABŞ keçmiş sovet respublikaları olan Baltikyanı ölkələrin (Estoniya, Latviya və Litva) NATO-ya inteqrasiyasını və Avropa İttifaqına üzvlüyünü müdafiə etmək xəttini həyata keçirmiş, [119] rəsmi Kreml isə NATO-nun genişlənməsinin beşinci mərhələsini (xüsusən də keçmiş sovet respublikaları hesabına) öz milli təhlükəsizliyi üçün başlıca təhlükələrdən biri kimi qiymətləndirmiş, [1, 334] bu hadisə V.Putin tərəfindən ABŞ Prezidenti C.Buş və Böyük Britaniyanın baş naziri Toni Bleyerin “Rusiyaya xəyanəti” kimi qəbul edilmişdi. 2004-cü ildə, Litvanın, öz təşəbbüsü ilə Amerika raketlərini öz ərazisində yerləşdirməyə hazır olduğunu bəyan etməsi ilə, vəziyyət daha da gərginləşdi [5, 124]. 2003-cü ildə Rusiyanın ənənəvi maraq zonasına daxil olan Gürcüstanda “Qızılgül inqilabı”, 2005-ci ildə Qırğızıstanda “Lalə inqilabı” Rusiya rəhbərliyi tərəfindən ABŞ kəşfiyyatının Rusiyanın regionda təsirinin azaldılması əməliyyatı kimi qiymətləndirildi. Lakin, 2008-ci ildə Gürcüstan və Rusiya arasında baş vermiş

müharibə Qərb institutlarının Cənubi Qafqaza genişlənməsini faktiki olaraq dayandırdı [52].

2006-cı il iyulun 16-da, C.Buş və V.Putin Sankt-Peterburqda keçirilən G8 sammitində, Qlobal Nüvə Terrorizmi ilə Mübarizə Təşəbbüsünü elan etdilər [123]. 2009-cu ilin aprelində isə, B.Obama bu təşəbbüsü daimi beynəlxalq instituta çevirməyin mümkün olduğunu bildirdi. Artıq, 2012-ci ildə 85 dövlət bu təşəbbüsün iştirakçısı idi [3, 125].

2007-ci ilin ilk ayında ABŞ Prezidenti C.Buşun İran və Şimali Koreya kimi "yaramaz dövlətlərə" qarşı, Polşa və Çexiyada ballistik Raketdən Müdafiə Kompleksləri quraşdırmaq planlarını elan etməsi dövlətlərarası münasibətlərdə yeni gərginlik ortaya çıxardı. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mixail Kamynin Rusiyanın etirazını vurğulayaraq qeyd etdi ki, "ABŞ-Avropa raket əleyhinə bazasının yaradılması, yalnız Amerikanın Avropadakı hərbi mövcudluğunun əsaslı şəkildə yenidən qurulması kimi qiymətləndirilə bilər." [150]. Fevralın 10-da, NATO-nun Münhendə keçirilən Beynəlxalq Təhlükəsizlik Konfransında, Rusiya Prezidenti V.Putin, Amerikanın Şərqi Avropada hərbçilərini və ABŞ-ın qlobal raket raket əleyhinə müdafiə sisteminin elementlərini yerləşdirmək planları ilə əlaqədar olaraq, yenidən silahlanma yarışının təhlükəsini diqqətə çəkdi. Rusiya lideri ABŞ-ı dünyada sabitliyi pozmaqda günahlandıraraq, "özünün birqütblü dünya" problemlərini "qeyri-müəyyən hərbi güc tətbiqi" yolu həll etməyə çalışdığını bəyan edərək, qlobal münasibətlərdə inhisarçı dominantlığını açıq şəkildə tənqid etdi. "Münhen nitqi" kimi tanınan bu çıxışında eyni zamanda V.Putin "təkcə seçilmişlər üçün deyil, hamı üçün təhlükəsizlik və rifahı təmin edəcək ədalətli və demokratik dünya nizamı" çağırışı etdi [178].

Rusiya yeni sistemə potensial təhlükə kimi baxdığından, cavab olaraq istənilən müdafiə sistemini məğlub edə biləcəyini iddia etdiyi RS-24 uzun mənzilli qitələrarası ballistik raketi sınaqdan keçirdi. İyunun 3-də V.Putin təkrarən ABŞ-a xəbərdarlıq etdi ki, ABŞ raketdən müdafiə sistemi qurarsa, Rusiya Polşa və

Çexiyadakı raketləri daim hədəfində saxlaya, nüvədən çəkindirmənin bütün hüquqi sisteminə yenidən baxmağa başlaya və birtərəfli qaydada INF Müqaviləsindən çıxa və bu yeni ziddiyyətlər Avropanı barıt çəlləyinə çevirə bilər [186]. Bu cür narahatlıqları ortadan qaldırmaq istəyən Rusiya hökuməti, NATO ölkələrinə və ABŞ Prezidenti Corc Buşa 2007-ci il iyunun 7-də, Çexiyada yeni sistem qurmaqdansa, "İrandan raket təhlükəsinin" qarşısını almaq üçün, Azərbaycan ərazisində yerləşən və sovet dövründən qalma Qəbələ radiolokasiya radar stansiyasından istifadə etməyi təklif etdi [148]. Əgər, buna razılıq verilsəydi, o zaman Polşada raketlər yerləşdirməyə ehtiyac qalmayacaqdı. Rusiyanın təklifini qəti formada rədd etməyən NATO bu məsələnin müzakirə edilməsinə razılıq verdi, lakin Çexiya və Polşada raket əleyhinə müdafiə sisteminin yerləşdirilməsindən imtina edilmədi [5, 125].

11 dekabr 2007-ci ildə Rusiya 1990-cı ildə ABŞ və Sovet İttifaqı arasında qoşunların, tankların, artilleriyaların, döyüş təyyarələrinin və Avropa daxilində cəmləşmiş hərbi yerləşdirmənin məhdudlaşdırılmasına dair imzalanmış Avropada Adi Qüvvələr haqqında 1991-ci il tarixli müqavilədə iştirakını dayandırdı [115]. Ertəsi gün, ABŞ rəsmi olaraq "Rusiya Federasiyasının müqavilə üzrə öhdəliklərinin icrasını "dayandırmaq" qərarından dərin təəssüf hissi keçirdiyini" bildirdi [145]. Beləliklə, 2007-ci ildə RƏMS məsələsi həll edilmədi.

2008-ci il mayın 6-da ABŞ və Rusiya Dinc nüvə əməkdaşlığı haqqında razılıq əldə etsə də, [3, 117] avqustda Çexiya və Polşa ərazilərində, raketlərin aşkarlanması üçün Amerika radiolokasiya stansiyalarının, Polşada isə raket əleyhinə müdafiə qurğularının planlaşdırıldı. ABŞ Patriot raketlərinin ilk batareyası 14 avqust 2008-ci ildə Polşaya köçürüldü. Bundan əlavə, Çexiya da öz ölkəsində radar stansiyasının yerləşdirilməsi ilə razılaşdı. Razılaşma elan edildikdən sonra Rusiya rəsmiləri ABŞ-ın hərəkətlərini öz təhlükəsizliyi üçün qorxu yaradan amil kimi qiymətləndirdi, Rusiya sərhədlərində müdafiənin artırılacağını və ABŞ-la ikitərəfli münasibətlərdə geriləməni və zərəri əvvəlcədən gördüklərini bildirdilər [2, 268].

2007-2008-ci illərdə əsas geosiyasi rəqabət meydanlarından biri də, Arktika regionu olmuşdur. Prezident V.Putinin 2014-cü ildə dediyi kimi, "Arktika ənənəvi olaraq Rusiyanın xüsusi maraq dairəsidir. Bu, milli təhlükəsizliyin praktiki olaraq bütün aspektlərinin - hərbi, siyasi, iqtisadi, texnoloji, ekoloji və resursların cəmləşməsidir." [17, 29]. 2007-ci il tərəflərin Arktika bölgəsində fəallığı dövrü kimi xarakterizə oluna bilər. Belə ki, 2 avqust 2007-ci ildə, Artur Çilinqarovun rəhbərlik etdiyi "Arktik-2007" ekspedisiyasının Şimal Buzlu okeanının dibinə Rusiya bayrağını yerləşdirməsi ABŞ-ın mənfi münasibətinə səbəb oldu. Avqustun 17-də, Rusiya hökuməti müntəzəm strateji uçuşların və Şimal Donanması gəmilərinin hərbi növbə çəkmə vəzifəsinin bərpa olunduğunu elan etdi [5, 228]. Bundan başqa, 2008-ci ildə Balkan regionunda da, geosiyasi maraqlar toqquşmuşdur. Belə ki, NATO-nun 1999-cu ildə BMT TŞ-nın müvafiq qətnaməsi olmadan Yuqoslaviyanı bombalaması və S.Miloşeviç rejimini devirməsi nəticəsində, əslində Rusiya bu regiondan da çıxarılmışdı və Rusiya regionda baş verən hadisələri passiv müşahidəçi qismində izləməyə məcbur olmuşdu. Onun maraq zonasına yalnız, Bosniya və Serbiya daxil idi. Buna görə də, 17 fevral 2008-ci ildə müstəqilliyini elan etmiş Kosovo, dünyanın bir çox ölkələri tərəfindən tanınmasına baxmayaraq, Rusiya tərəfindən tanınmadı [102]. Rusiya həmçinin, daha sonra 2014-cü ildə Gürcüstan və Ukraynadakı separatçı hərəkatlara haqq qazandırmaq üçün "Kosovo presedentinə" istinad etmişdir.

1 aprel 2009-cu ildə, Prezidentlər D.Medvedev və B.Obama, Londonda keçirilən G20 sammitində, Rusiya-ABŞ münasibətlərində "yeni bir başlanğıc" vəd edən və özündə strateji nüvə silahlarının azaldılması və nüvə təhlükəsizliyinin artırılması da daxil olmaqla, müxtəlif mövzularda birlikdə çalışmağı və terrorizmlə, narkotiklərlə mübarizə, İran, Şimali Koreya, qlobal iqtisadi böhran kimi mövzularda ikitərəfli əməkdaşlığı ehtiva edən ortaq bəyanat yaydılar, yeni SHS müqaviləsinin imzalanması üçün danışıqlara yenidən başlamağa razılaşdılar, dünyanın bir çox təhlükəsi və imkanları haqqında ümumi fikirlərə sahib olduqlarını bir daha təsdiq etdilər [90]. Lakin, Prezident B.Obamanın 5 aprel 2009-cu ildə Praqada radikal nüvə

tərksilahı keçirilməsi haqqında nitqi (strateji nüvə qüvvələrində 75%-ə qədər ixtisarlar və taktiki nüvə silahlarının ləğvi) yeni mübahisə mövzusuna çevrildi [5, 392]. Bunun reallaşması nüvə qüdrətinin azalması demək idi. D.Medvedev isə, 20 aprel 2009-cu ildə Helsinkidə və 20 iyun 2009-cu ildə Amsterdamda çıxış edərkən, strateji hücum silahları ilə bağlı məsələ barədə aşağıdakı təkliflərini səsləndirdi: [72]

- strateji raket əleyhinə müdafiə sistemlərinə məhdudiyyətlər tətbiq etmək;
- kosmosun hərbiləşdirilməsindən imtina etmək;
- yüksək dəqiqliyə malik sistemləri nəzərə almaq;
- geri qaytarılan silahların potensial prinsipindən imtina etmək.

17 sentyabr 2009-cu ildə, Prezident B.Obama, Polşa və Çexiyada mübahisəli raket əleyhinə müdafiə sisteminin yerləşdirilməsi layihəsinin dondurulduğunu elan etdi və onun əvəzinə 24 oktyabr 2009-cu ildə, Avropada raket əleyhinə çevik müdafiə sistemini (AvroRƏM) yaratmaq təklifini irəli sürdü. Polşa və Çexiya Vaşinqtonun bu addımını Rusiyaya güzəşt kimi qəbul etdilər [128].

2010-cu ilin martında ABŞ və Rusiya nüvə silahı ehtiyatlarını azaltmaq barədə razılığa gəldilər və aprelin 8-də Praqa sammitində liderlərin görüşündə, tərəflər 2009-cu ilin dekabrında müddəti başa çatan, SHS-2 müqaviləsinin yerinə yeni strateji hücum silahlarının ixtisarı haqqında START-3 sazişi imzaladılar; 2020-ci ilə qədər strateji nüvə raketlərindəki döyüş başlıqlarının sayını 1550-yə endirmək, qitələrarası ballistik raketlərin sayına 700, sualtı ballistik raketlərin ümumi sayına isə 800-ə qədər məhdudiyyət tətbiq etmək öhdəliyi götürdülər. Müqavilə 2010-cu il dekabrın 22-də təsdiq edildi, 5 fevral 2011-ci ildə isə qüvvəyə mindi [3, 363].

Lakin, bu razılaşma 2011-ci il sentyabrında, ABŞ-ın RƏM sisteminin tərkib hissələrini Rumıniyada yerləşdirməsinə mane olmadı və buna cavab olaraq, noyabrda Prezident D.Medvedev "İsgəndər" taktiki əməliyyat raketlərinin Belarusiyada yerləşdirilməsi, Kozelskdə strateji təyinatlı raket qoşunlarının ləğv edilməsinin dayandırılması və Rusiyanın Aerokosmik müdafiəsinin yaradılmasının sürətləndirilməsini əmr etdi [5, 365]. Əslində bu, danışıqlara davam etməkdən

imtina etmək demək idi. Bunun nəticəsi idi ki, artıq 2013-cü ilin ilk aylarında, tərəflər arasında hərbi vəziyyət gərgin olaraq qalmışdı. Fevralın 12-də ABŞ Prezidenti B.Obamanın 2013-cü il Birlik Vəziyyəti müraciətindən bir neçə saat əvvəl, nüvə başlıqlı qanadlı raketlərlə təchiz edilən iki Rusiya Tu-95 Bear strateji bombardmançı təyyarəsi, ABŞ-ın Guam ərazisinin hava məkanında patrul dövrəsi vurmağa başladı. Andersen Hava Qüvvələri bazasına aid hava qüvvələrinə məxsus F-15 təyyarələri havadakı hədəfləri nəzarətə almaq üçün havaya qaldırıldı. Nəticədə Rusiya təyyarələri şimal istiqamətində ABŞ hava sahəsini tərk etdilər [10].

2014-cü ildə Rusiya Federasiyası Krım ərazisinin ilhaqını həyata keçirərək, Ukraynanın şərq torpaqlarında Donetsk və Luqansk marionet-separatçı respublikaları dəstəklədi. Buna cavab olaraq, ABŞ administrasiyası Avropada hərbi mövcudluğunu gücləndirmək, Rusiyanın hərəkətlərinə qarşı çıxmaq və regionda, xüsusilə də Şərqi Avropada Rusiya təcavüzünü özündə ehtiva edən NATO tərəfdaşları ilə fəal qarşılıqlı əlaqə yolu ilə "Avropa Mühafizəsi" adlanan təşəbbüsə başlanğıc verdi [167]. Növbəti ilin iyunun əvvəlində ABŞ Dövlət Departamentinin hesabatına əsasən, məlum oldu ki,  Rusiya INF Müqaviləsini pozmaqda davam edib və ikitərəfli münasibətlərdə mövcud problemləri həll etmək üçün əhəmiyyətli bir irəliləmə qeydə alınmayıb. Ayın sonunda isə, ABŞ-ın müdafiə naziri Eşton Karter Estoniyaya səfəri zamanı bəyan etdi ki, ABŞ Bolqarıstan, Estoniya, Latviya, Litva, Polşa və Rumıniyada ağır silahlar, o cümlədən tanklar, zirehli texnika və raket artilleriyaları yerləşdirəcək. Bu, Rusiya Prezidenti və Müdafiə Nazirliyi rəsmiləri tərəfindən "Soyuq Müharibədən bəri Vaşinqtonun ən aqressiv hərəkəti" adlandırıldı və Rusiya Xarici İşlər Nazirliyi tərəfindən "hərbi baxımdan qeyri-adekvat addım" və "ABŞ-ın Soyuq müharibəyə açıq-aşkar qayıdışı" kimi tənqid edildi [143].

2016-cı il fevralın 2-də ABŞ Dövlət Departamenti Rusiyanın müqaviləni uzun müddət pozmasına cavab olaraq, Orta Mənzilli Nüvə Qüvvələr Müqaviləsi üzrə öhdəliklərini dayandırdığını, əgər Rusiya tələblərə əməl etməsə, altı ay ərzində rəsmi olaraq müqavilədən geri çəkilməyi planlaşdırdığını elan etdi. V.Putin isə martın 4-də eyni addımı atdı [183]. 2017-ci ilin mart ayının əvvəlində ABŞ hərbi rəhbərliyi

Rusiyanın 1987-ci il Ortamənzilli Nüvə Qüvvələrinin "ruhunu və niyyətini" pozduğunu bildirərək quruda əsaslı qanadlı "İskəndər-K" raketi yerləşdirməkdə və sınaqdan keçirməkdə ittiham etdi. Rəsmi Moskva buna cavab olaraq, ABŞ-ın da raketdən müdafiə sınaqlarında qadağan olunmuş orta mənzilli ballistik raketlərdən istifadə etməsi, silahlı pilotsuz uçuş aparatlarını qadağan olunmuş orta mənzilli yerüstü qanadlı raketlərə inteqrasiya etdiyi və Rumıniyada mövcud olan (və Polşada tikilməkdə olan) Aegis Ashore raket əleyhinə müdafiə sahəsində orta mənzilli qanadlı raketləri yerləşdirmə və sınaqdan keçirmə planlarına sahib olması ilə əlaqədar ittiham etdi. İyunun əvvəllində isə, V.Putin, münasibətlərin Soyuq müharibənin sona çatmasından bu yana bütün zamanların ən aşağı səviyyəsində olduğunu söylədi [182]. Belə bir dövrdə, 2017-ci ilin sentyabrında Rusiyanın Belarusla birgə yüz min nəfər hərbçinin qatıldığı illik Zapad təlimləri Baltikyanı ölkələrdə və Polşada narahatlığa, NATO üzvləri arasında çaşqınlığa səbəb oldu. NATO iki həftə sonra Skandinaviya yarımadasında kiçik hərbi təlimlərə start verdi [190].

2018-ci ilin oktyabrında ABŞ-ın milli təhlükəsizlik üzrə müşaviri Con Bolton Moskvada yüksək vəzifəli rəsmilərlə görüşündə, Rusiya hakimiyyətinə Prezident D.Trampın INF Müqaviləsindən çıxmaq qərarını açıqladı. Bəyanat növbəti ilin iyulun 31-də bir daha təsdiqləndi. Avqustun 2-də, Rusiya Xarici İşlər Nazirliyi müqaviləyə xitam verildiyini rəsmən elan etdi, ayın 18-də ABŞ-da orta mənzilli "Tomahawk" qanadlı raketi yerüstü buraxılış qurğusundan buraxılaraq 500 km məsafədəki hədəfi uğurla vurdu. Raket sınaq atışlarından sonra, Rusiya Prezidenti V.Putin qeyd etdi ki, həyata keçirilən sınaqlar onu göstərir ki, "amerikalılar lap əvvəldən müqaviləni pozmağa meyilli idilər" [165]. Silahlanma yarışı və ya hətta münaqişə təhlükəsinin qarşısını almaq məqsədi ilə Rusiya ABŞ-a 2021-ci ilin fevralında başa çatmalı olan Yeni START müqaviləsinin müddətinin beş il uzadılması ilə bağlı təklif göndərsə də, razılıq əldə olunmadı, çünki ABŞ Çini yeni silahlara nəzarət sazişinə daxil etməkdə israrlı mövqe nümayiş etdirirdi [128].

Ümumilikdə, 2020-2021-ci illər də ikitərəfli münasibətlərin ən soyuq və gərgin xarakteri ilə yadda qaldı. 25 sentyabr 2020-ci ildə ABŞ Hərbi Hava Qüvvələrinin B-52 bombardmançıları NATO ölkələri arasında Rusiya eksklavı Kalininqrada süni hücum təşkil etdilər. Bu, bölgədə yerləşən Rusiya hava hücumundan müdafiə sistemlərinin məhv edilməsi üçün bir sınaq işi idi [38].

2021-ci il yanvarın 26-da, Baydenin andiçmə mərasimi günü Rusiya Prezidenti V.Putin və ABŞ Prezidenti C.Bayden arasında həyata keçirilən ilk telefon danışığının yekunlarına əsasən, Rusiya yeni administrasiyanı 2010-cu il Yeni START müqaviləsinin uzadılması ilə bağlı danışıqlarda "daha konstruktiv" yanaşmağa çağırdı, D.Tramp administrasiyasını "qəsdən" beynəlxalq silahlara nəzarət sazişlərini ləğv etməkdə, danışıqlarda "əks-məhsuldar və açıq aqressiv" yanaşmada və onun əleyhinə hücumda ittiham etdi. Beləliklə, liderlər 4 fevral 2021-ci ildə başa çatan Nüvə Silahlarının Yayılmaması üzrə Yeni START müqaviləsinin (2010-cu ildə imzalanıb, 2011-ci il fevralın 5-də qüvvəyə minib) müddətini əlavə şərtlər olmadan beş il müddətinə uzatmaq barədə razılığa gəldilər [179].

2021-ci ildə Mərkəzi Asiya və Şərqi Avropa ikitərəfli münasibətlərdə ən aktual regionlar olaraq qaldı. Aprel ayında, iki qonşu dövlət – Qırğızıstan və Tacikistan hərbçiləri arasında silahlı toqquşmalar Rusiya-Amerika münasibətlərinə də təsir göstərdi. Belə ki, iki ölkə arasıda qarşıdurma regionda vəziyyəti gərginləşdirə, qonşu Əfqanıstana da təsirsiz ötüşməyə bilərdi. Çünki, bu dövrdə ABŞ hərbi birləşmələrinin Əfqanıstandan çıxardılması haqqında qərar vermişdi. Bu münaqişə, ABŞ-ın Əfqanıstanda hərbi mövcudluq prosesini uzada bilərdi [5, 319-320]. Şərqi Avropada vəziyyət isə, Ukraynanın şərqində Ukrayna qüvvələri ilə Rusiyanın dəstəklədiyi separatçılar arasında toqquşmaların davam etdiyi və Rusiyanın Ukrayna ilə ümumi sərhədi boyunca yüz min nəfərə yaxın hərbçi topladığı bir zamanda gərginləşdi.

2022-ci il yanvarın 3-də, ABŞ və Rusiya 2026-cı ilin fevralında başa çatacaq Strateji Silahların Azaldılması üzrə Yeni Müqaviləni (Yeni START) əvəz etmək

üçün yeni saziş və ya razılaşmalarda maraqlı olduğunu bildirdi [16]. Lakin, fevralın 26-da Rusiya-Ukrayna müharibəsi ilə bağlı, V.Putinin sədrliyi ilə Rusiya Təhlükəsizlik Şurası rəhbərinin müavini xəbərdarlıq etdi ki, Moskva ABŞ-la nüvə silahlarına dair ən son müqavilədən çıxmaq və Qərb dövlətləri ilə diplomatik əlaqələri kəsməklə Qərbin sanksiyalarına cavab verə bilər [118].

Beləliklə, məlum olur ki, Birləşmiş Ştatlar və Rusiya arasındakı münasibətlər dünyanın ən kritik ikitərəfli əlaqələri sırasındadır və təsirləri iki dövlətin özündən xeyli kənardadır. Buna görə də, qlobal sabitliyin və təhlükəsizliyin təminində özlərinin xüsusi rolunu anlayan ABŞ və Rusiya mümkün olan yerdə münasibətlərini sabitləşdirmək və əməkdaşlıq etməyə çalışırlar.

### 1.3. Çoxtərəfli əməkdaşlıq çərçivəsində münasibətlər

XXI əsrdə Çinin yüksəlişi, ABŞ-ın İraq və Əfqanıstandakı uğursuzluqları, Ukraynada və Gürcüstanda Rusiyanın fəallığı, BRİKS-in meydana çıxması, Əl-Qaidə və İŞİD təhlükəsi və 2008-ci il maliyyə böhranının gündəmə gətirdiyi suallar Birləşmiş Ştatların üstünlük təşkil etdiyi birqütblü dünya nizamı baxışına yeniliklər gətirdi [86, 1]. Artıq yeni dünya nizamında Rusiya Federasiyası ABŞ-ın rəhbərlik etdiyi qlobal nizamdan narazılıq nümayiş etdirir, ABŞ ilə birlikdə ayrıca bir qütb formalaşdırmağa çalışır və bu istiqamətdə bütün böyük güclərin maraqlarının nəzərə alındığı çoxqütblü dünyaya çağırış edir və beynəlxalq və regional təşkilatları mühüm əməkdaşlıq platforması olaraq görürdü. Son iki onillikdə, xüsusən də Rusiyanın 2014-cü ildə Ukraynaya təcavüzündən sonra Kreml beynəlxalq qurumlarla əlaqələrini gücləndirib. Rusiyanın çoxtərəfli institutlarla əlaqəsi onun beynəlxalq sistemi ABŞ-ın dominantlıq etdiyi birqütblü nizamdan çoxqütblü nizama keçirməyə yönəlmiş Rusiya xarici siyasətinə dair uzunmüddətli baxışını rəhbər tutur. Rusiyanın Ukraynanı işğal etməsinə ABŞ və Qərbin cəzalandırıcı reaksiyası və ABŞ Prezidenti Donald Trampın daha çox təktərəfli siyasəti və daha az qlobal iştirak lehinə çoxtərəfliliyi rədd etməsi Rusiyanın beynəlxalq fəallığını gücləndirib. Bununla belə, Avrasiya İqtisadi İttifaqı, Şanxay Əməkdaşlıq Təşkilatı və BRİKS kimi

platformalara qlobal dəyişikliklər fonunda öz nüfuzunu gücləndirmək imkanı verir. Rusiya üçün onların əhəmiyyəti regional problemlər və çağırışların həllində göstərir. Rusiyanın çoxtərəfli institutlara münasibəti, onların Rusiyanın milli maraqlarına necə cavab verməsindən asılıdır. ABŞ üçün çoxtərəflilik beynəlxalq hüququn yaradılması və tətbiqi üçün əsas vasitə olduğu təqdirdə, Rusiyanın çoxtərəfli fəaliyyətə yanaşması ilk növbədə Rusiyanın suverenliyini və Rusiyanın böyük güc kimi dünyada imtiyazlı rolunu dəstəkləməyə yönəlib.

Lakin, Rusiya Federasiyasının ən əsas marağı çoxtərəfli dünya nizamında Rusiyaya xüsusi statusun verilməsi idi. Çünki, ABŞ və Rusiya BMT-nin və Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri kimi beynəlxalq hüququn səlahiyyətinə malik olan Şuranın qətnamələrinə veto qoymaq və ya onların qəbulunu əngəlləmək səlahiyyətinə malik olsa da, Rusiya rəsmiləri dəfələrlə ABŞ-ın BMT-dən sui-istifadə etdiyini vurğulayıblar. Belə ki, Kosovoya qarşı müharibənin yalnız NATO icazəsi ilə aparılması, 2003-cü ildə İraqa qarşı müharibənin BMT və ya NATO-nun dəstəyini almaması Rusiya tərəfinin narahatlığını ifadə etmək üçün tez-tez işlətdiyi iddialardır [86, 2-5]. ABŞ isə iddia edir ki, BMT TŞ-da Rusiyanın səlahiyyətləri Rusiyaya insan hüquqları və demokratik idarəçiliklə bağlı prinsipial öhdəliklərdən imtina etməyə imkan verir. Bundan başqa, soyuq müharibənin bitməsindən sonra, dünyanın dominant hərbi, iqtisadi, sosial və siyasi gücü kimi Birləşmiş Ştatlar BMT Baş Qərargahının ev sahibidir; 2020-ci ildə BMT-nin bütün büdcəsinin 22 faizini (BMT-nin təxminən 200 üzvünün) təmin etməklə BMT-yə ən böyük maliyyə töhfəsi verən ölkədir. Rusiya Federasiyasının payına isə cəmi 1% düşür. Bütün bu göstəricilər ABŞ-a böyük geostrateji üstünlük verir [22]. 2016-cı ilin iyulundan 2017-ci ilin iyun ayına qədər sülhməramlı əməliyyatlar üçün istifadə olunan büdcənin 28,6 faizi ABŞ tərəfindən təmin edilib [130]. Bununla belə, Rusiyanın fikrincə BMT ilə məqsədyönlü, davamlı və tam fədakarlıqla əməkdaşlıq etmək lazımdır. Birləşmiş Ştatlar və Rusiya arasında münasibətlər son illərdə pisləşsə də, ziddiyyətlər hər iki ölkə üçün müxtəlif ümumi narahatlıqların idarə olunmasında əməkdaşlığı hədsiz dərəcədə çətinləşdirsə də, kütləvi qırğın silahlarının

yayılmaması, Çinin yüksəlişini idarə etmək, Yaxın Şərqdəki vəziyyətlə məşğul olmaq və "dondurulmuş münaqişələrin" həlli də daxil olmaqla, qlobal nizama qarşı ortaya çıxan problemlər bu cür əməkdaşlığı getdikcə daha vacib edir. Bundan əlavə, ABŞ-ın terrorizmlə mübarizədə Rusiyanın əməkdaşlığına ehtiyac var. İki ölkə arasında müsbət münasibətlər daha sabit dünyaya gətirib çıxara və hər iki ölkənin təhlükəsizliyini gücləndirə bilər.

BMT çərçivəsində ABŞ-Rusiya arasında ilk ziddiyyətlər 2002 və 2003-cü illərdə İraq məsələsi ilə bağlı meydana gəlmişdir. Xüsusən 2002-ci ildə yaranmış "İraq böhranı" ətrafında beynəlxalq müzakirələr zamanı BMT TŞ-nın Fransa və Çin kimi daimi üzvləri ilə yanaşı, Rusiya da ABŞ-ın "İraq problemin"ni güc yolu ilə həll etmək siyasətinə qarşı çıxmış və veto hüququ ilə hədələmişdi. Bu mövzuda rəsmi Moskvanın müdafiə etdiyi mövqeyə görə, birinci mərhələdə BMT təftişçiləri İraqa getməli və birbaşa funksiyalarını həyata keçirməli, onların işinə əngəllər yaradıldığı halda, təftişçilər BMT TŞ qarşısında bu barədə müvafiq məruzə ilə çıxış etməli idilər və bu mərhələdə güc tətbiqi qətiyyən yolverilməz hesab olunurdu. Bundan sonra, BMT TŞ ikinci dəfə fövqəladə iclasına toplanmalı və 15 üzvündən 9-nun, o cümlədən 5 daimi üzvünün yekdilliklə müharibənin başlanması lehinə səs verəcəyi halda, yeni Körfəz müharibəsi reallaşa bilərdi. Məsələnin belə qoyuluşu rəsmi Vaşinqtonun strateji planlarına uyğun gəlmirdi. Beləliklə, "veto təhlükəsi" ilə üzləşəcəyindən çəkinən ABŞ 2002-ci il 22 oktyabr tarixində İraqla bağlı yeni qətnamə layihəsini BMT TŞ-a təqdim etdi. 8 həftəlik gərgin müzakirələrdən sonra, BMT TŞ 8 noyabr 2002-ci il tarixində İraqla bağlı 1441 saylı qətnamə qəbul etdi. Həmin vaxtdan etibarən ABŞ-Rusiya münasibətlərində kəskin soyuqlaşma özünü göstərməyə başladı [8, 129]. 2013-2014-cü illərdə Ukrayna böhranı zamanı da, Krımın Rusiyaya ilhaqına cavab olaraq BMT-yə üzv dövlətlər Krımın Ukraynanın bir hissəsi kimi tanınmasına səs veriblər. Lakin, son illərdə Rusiya veto hüququndan istifadə edərək Suriyada Bəşər Əsəd rejiminə və Rusiyanın Ukraynaya müdaxiləsinə yönəlmiş hərəkətlərinə qarşı ABŞ-ın addımlarını əngəlləyir. Bununla belə, tərəflər hələ də Soyuq müharibə dövründə olduğu kimi, ABŞ-Rusiya arasında yeganə

əməkdaşlıq platforması kimi BMT-nin qalmasını istəyirlər. BMT Rusiyanın böyük güc statusunu nümayiş etdirə biləcəyi və veto hüququ nəzərə alınmaqla onun razılığı olmadan heç bir başqa dövlətin üzərinə öhdəliklər qoya bilməyəcəyi bir yerdir.

Rusiya hakimiyyəti 1990-cı illərdə NATO ilə tərəfdaşlıq istiqamətində addımlar atsa da, ümumiyyətlə alyansın qorunub saxlanılması qərarına və xüsusən də keçmiş Şərq Bloku ölkələrinin üzvlərə daxil edilməsinə qarşı çıxırdı [77]. Əsrin əvvəllərində NATO ilə yaxınlaşmanın zirvə nöqtəsi kimi Rusiyanın Əfqanıstanda Taliban rejiminə qarşı müharibə aparmaq üçün ABŞ tərəfindən yaradılmış antiterror koalisiyasında iştirakı ilə yanaşı, 28 may 2002-ci ildə Romada keçirilən NATO-Rusiya Sammitində "NATO-Rusiya münasibətləri: yeni keyfiyyət" adlı Roma Bəyannaməsinin imzalanması oldu [180]. Buna uyğun olaraq, regional münaqişələrin həlli və qarşısının alınması, nüvə silahlarının yayılmaması, birgə sülhməramlı missiyalar, terrorizmlə mübarizə, böhranın idarə edilməsi, silahlara nəzarət və etimadın möhkəmləndirilməsi, raketdən müdafiə, maddi-texniki təchizat, hərbi əməkdaşlıq və mülki sahələr daxil olmaqla, ümumi maraqlar sahələrində əməkdaşlıq məqsədilə Rusiya-NATO Şurası (İyirmilik Şurası) yaradıldı [76].

Lakin, alyansın Varşava Müqaviləsi Təşkilatının keçmiş üzvlərini, eləcə də üç keçmiş Sovet respublikası olan Latviya, Estoniya və Litvanı əhatə edəcək şəkildə genişlənməsi, Rusiya tərəfindən Soyuq Müharibə başa çatdıqda Qərbin təklif etdiyi təminatlara xəyanət kimi qiymətləndirilirdi. Rusiya Federasiyası NATO-nun genişlənməsini həm təhlükəsizliyə təhdid, həm də Rusiyanı marginallaşdırmaq cəhdi kimi qəbul edir və NATO-nun əks iddialarına şübhə ilə yanaşırdı. Rusiyanın 2008-ci ildə Gürcüstana, 2014-cü ildə və 2022-ci ildə Ukraynaya müdaxiləsi qismən NATO-nun artan təsirindən və Rusiyanın sərhədləri boyunca daha da genişlənmə qorxusundan irəli gəlirdi. Bunu 2014-cü ilin sonunda V.Putin tərəfindən yenidən işlənmiş milli hərbi doktrina da təsdiq edirdi. Belə ki, bu doktrinada NATO-nun Rusiya sərhədləri yaxınlığında güclənməsi əsas hərbi təhlükə kimi göstərilmişdi. [101].

Gərginliyə baxmayaraq, NATO və Rusiya 2014-cü ilə qədər əməkdaşlıq üçün bir sıra istiqamətlər müəyyən etmişdi. Məsələn, 2009-cu ilin dekabrında NATO Əfqanıstanda yardım üçün Rusiyaya müraciət edərək, alyansın Rusiya ərazisi üzərindən Əfqanıstandakı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə yüklərin (hərbi yüklər də daxil olmaqla) uçması və Əfqanıstan silahlı qüvvələrinə daha çox helikopterlərin verilməsi üçün icazə istədi. Rusiya öz ərazisindən yalnız qeyri-hərbi yüklərin tranzitinə icazə verdi [37]. 2010-cu ilin noyabrında Lissabon Sammiti zamanı NATO liderləri və Prezident D.Medvedev NATO-Rusiya Təsis Aktının və NATO-Rusiya Şurasının məqsəd və prinsiplərinə əsaslanaraq "əsl strateji tərəfdaşlığa doğru əməkdaşlığın yeni mərhələsinə" başlamaq barədə razılığa gəldilər. Alyans Rusiyanı raketdən müdafiə sahəsində genişləndirilmiş əməkdaşlıq potensialını araşdırmağa dəvət etdi və hər iki tərəf terrorizmlə mübarizə və dəniz quldurluğu ilə mübarizə sahəsində əməkdaşlığı daha da gücləndirmək barədə ortaq mövqelərini paylaşdılar. Sonrakı illərdə NATO və Rusiya Əfqanıstan ordusuna dəstək vermək üçün birlikdə çalışdılar, birgə dəniz quldurluğu və sualtı xilasetmə təlimləri keçirdilər və Suriyanın kimyəvi silahlarının məhv edilməsinə kömək etmək üçün birgə missiyanı müzakirə etdilər. Lakin, fikir ayrılıqları səbəbindən Rusiya NATO-nun raketdən müdafiə planlarına getdikcə daha çox etiraz etməyə başladı. 6 iyun 2011-ci ildə NATO və Rusiya "Oyanıq Səma 2011" adlı ilk birgə döyüş təyyarəsi təlimində iştirak etdilər ki, Soyuq Müharibədən bəri bu, alyans və Rusiya arasında ikinci (birincisi 30 may 2011-ci ildə başlayan sualtı təlimləri idi) birgə hərbi təlim idi [105].

2014-cü ilin mart ayının əvvəlində Rusiyanın Krımı ilhaq etməsi nəticəsində NATO ilə Rusiya arasında gərginlik artmışdır. Belə ki, Rusiyanın Ukraynanın Krım bölgəsini ilhaq etməsindən üç gün sonra NATO-nun baş katibi Rusiyanı hərəkətlərini dayandırmağa çağırdı və Ukraynanın ərazi bütövlüyü və suverenliyini dəstəklədiyini bildirdi. Aprelin 1-də, NATO yekdilliklə Rusiya Federasiyası ilə bütün praktiki mülki və hərbi əməkdaşlığı dayandırmaq qərarına gəldi, lakin NATO-Rusiya Şurasının fəaliyyəti dondurulmadı, yalnız rəsmi iclasları müvəqqəti olaraq

dayandırıldı. Qeyd edək ki, Rusiyanın 2008-ci ildə Gürcüstanı işğal etməsindən sonra da, NATO-Rusiya Şurasının rəsmi iclasları bir neçə ay müddətinə dayandırılmışdı [139]. NATO-Rusiya gərginliyi 24 noyabr 2015-ci ildə Türkiyənin Suriyanın şimal-qərbində missiya yerinə yetirərkən Türkiyə hava məkanını pozduğu iddia edilən Rusiya döyüş təyyarəsini vurmasından sonra daha da artdı. Rusiya rəsmiləri təyyarənin Türkiyə hava məkanına daxil olduğunu təkzib etdilər. Hadisədən az sonra NATO məsələni müzakirə etmək üçün təcili iclas çağırdı [79].

18 fevral 2017-ci ildə Rusiyanın xarici işlər naziri S.Lavrov NATO alyansı ilə hərbi əməkdaşlığın bərpasını dəstəklədiyini bildirdi, iyulda Brüsseldə NATO-Rusiya Şurasının iclasında isə, hər iki tərəf bir-birinə qarşıdan gələn Rusiya/Belarus "Zapad 2017" və NATO-nun "Trident Javelin 2017" təlimləri barədə məlumat verdi [68]. Bu mərhələdən sonra, Bakıda ABŞ və Rusiya, NATO və Rusiya hərbi rəhbərliyinin görüşlərinin keçirilməsi ənənəvi xarakter almağa başlayıb. Belə ki, 2017-ci ilin fevralında ABŞ Baş Qərargah rəisi ilə Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, [5, 461] 2017-ci ilin sentyabrında isə NATO-nun Hərbi Komitəsinin sədri ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi arasında görüşlər keçirilmişdir [5, 462]. Göründüyü kimi, gərginliyə baxmayaraq NATO-Rusiya əlaqə kanalları açıq saxlanılır və NATO-Rusiya Şurasının iclaslarına fasilə verilmirdi.

2018-ci ilin əvvəllərindən etibarən, NATO-nun baş katibi Yens Stoltenberq heç bir NATO müttəfiqinə qarşı Rusiyadan heç bir təhlükə görmədiyini bəyan etsə də, [17, 10] 2019-cu ilin sentyabrında Rusiyanın Xarici İşlər naziri S.Lavrov "NATO-nun bizim sərhədlərimizə yaxınlaşması Rusiya üçün təhlükədir" deyə bəyanat verdi və NATO-ya üzv olan ölkələrlə münasibətlərin korlanacağını bildirdi [67]. 2020-ci ilin fevral ayının 6-da Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Valeri Gerasimov Bakıda NATO-nun Avropadakı qüvvələrinin baş komandanı general Tod Volterslə görüşərək strateji sabitlik, böhranlı bölgələrdə vəziyyət və hərbi əməliyyatlar prosesində insidentlərin qarşısının alınması üçün praktiki addımları müzakirə etdi [128].

2021-ci il aprelin 13-də Y.Stoltenberq Rusiyanın müdafiə naziri Sergey Şoyqunun NATO-nun “Rusiyanı təhdid edən hərbi fəaliyyətlərinə” cavab olaraq “döyüş təlimləri” fikirlərinə istinadən Rusiyanı Ukrayna ilə sərhədə yaxın ərazilərdə qüvvələr toplamasını dayandırmağa çağırdı [78]. Oktyabrda isə NATO-nun “elan edilməmiş kəşfiyyat zabitləri” kimi xarakterizə edilən səkkiz rusiyalı məmuru şübhəli bədxassəli fəaliyyətlərə cavab olaraq Brüsseldəki mənzil-qərargahından qovması hadisəsindən sonra Rusiya NATO-dakı missiyasını dayandırdı və NATO-nun Moskvadakı ofisinin bağlanmasına göstəriş verdi [21]. 2021-ci ilin noyabrında Rusiya Prezidenti V.Putin bəyan etdi ki, NATO-nun Ukraynadakı mövcudluğunun genişləndirilməsi, xüsusən də Rusiya şəhərlərini vura bilən hər hansı uzaqmənzilli raketlərin Rumıniya və Polşada yerləşdirilməsi Rusiya üçün “qırmızı xətt” olacaq. Eyni zamanda, Rusiya lideri Co Baydendən NATO-nun şərqə doğru genişlənməyəcəyinə və ya “bizi təhdid edən silah sistemlərini Rusiya ərazisinə yaxın yerə qoymayacağına” dair hüquqi təminat istədi. NATO-nun baş katibi Y.Stoltenberq isə bu müraciətə belə cavab verib: “Ukraynanın NATO-ya üzv olmağa nə vaxt hazır olacağına yalnız Ukrayna və 30 NATO müttəfiqi qərar verir. Rusiyanın veto hüququ yoxdur, Rusiyanın söz hüququ yoxdur və Rusiyanın öz qonşularına nəzarət etmək üçün təsir dairəsi yaratmağa haqqı yoxdur” [75].

2022-ci il yanvarın 12-də NATO-Rusiya Şurası Brüsseldəki qərargahda Rusiyanın Ukrayna ilə sərhədi yaxınlığında hərbi birləşməsini və Rusiyanın Avropada təhlükəsizlik zəmanəti tələblərini müzakirə etmək üçün toplaşdı. Lakin, danışıqlar nəticə vermədi. Yanvarın 13-də Rusiya-ABŞ-NATO danışıqlarının çıxılmaz vəziyyətə düşməsi aşkar oldu [74]. Fevral ayında Rusiyanın Ukraynaya qarşı başlatdığı müharibə qısa müddətdə NATO ilə Rusiya arasında ən gərgin məqamlardan birinə çevrildi. NATO-ya üzv dövlətlər silah tədarükünə razılaşsalar da, lakin NATO təşkilat olaraq bunu etmədi. NATO və onun üzv ölkələri də Ukraynaya qoşun göndərməkdən imtina etdilər, çünki bu, daha genişmiqyaslı müharibə riski ilə nəticələnə bilərdi.

ABŞ və Rusiya 1997-ci ildə Rusiyanın əlavə edilməsi ilə formalaşan Səkkizlər Qrupu (G8) və İyirmilik Qrupu (G20) hökumətlərarası forumlarında iştirak edirlər. Xüsusən, 2001-ci ilin sentyabrında baş vermiş terror hücumlarından sonra Birləşmiş Ştatlar keçmiş sovet kütləvi qırğın silahlarının məhv edilməsi üçün maliyyələşməni artırmaq üçün G8-in digər üzvlərindən dəstək qazanmışdı. Prezident C.Buş və V.Putin 2002-ci ilin iyununda Kanadada keçirilən G-8 sammitinin son günündə ikitərəfli görüşdə terrorizmə qarşı vahid cəbhə kimi fəaliyyət göstərəcəklərini vəd etdilər [142]. 2002-ci ildə G8 Rusiya və keçmiş Sovet ölkələrində nüvə, kimyəvi və bioloji silahların təhlükəsizliyini təmin etmək və məhv etmək üçün on il ərzində 20 mlrd dollara qədər vəsait ayırmağı vəd etdi. Proqram maliyyəsinin 10 mlrd dolları ABŞ tərəfindən qarşılanmalı, ABŞ-ın maliyyələşdirməsi əsasən Müdafiə, Dövlət və Enerji departamentləri tərəfindən idarə olunan ABŞ-ın əvvəlki proqramlarını davam etdirməli və sonrakı iki ildə 13 əlavə donor ölkə tərəfdaşlığa qoşulmalı idi. 2014-cü ilin martında Krımın ilhaqından sonra Rusiya G8 qrupundan qeyri-müəyyən müddətə çıxarıldıqdan sonra siyasi forumun adı G7-yə qayıtdı. “Böyük Səkkizliyin” digər yeddi üzvü “Rusiya Federasiyasının Ukraynanın suverenliyini və ərazi bütövlüyünü açıq şəkildə pozmasını” pisləyən birgə bəyanat yaydı, martın 24-də Rusiyanın Soçi şəhərində həmin ilin iyununda keçirilməsi planlaşdırılan G8 sammitini ləğv etdi. Rusiyanın Xarici İşlər naziri S.Lavrov isə “G8-dən qovulmaq böyük bir iş olmayacaq.” deməklə, ABŞ və müttəfiqlərinin qərarının əhəmiyyətini azaltdı və əsas beynəlxalq qərarların G20 ölkələri tərəfindən qəbul edildiyinə diqqət çəkdi [113].

Bununla belə, bir neçə G7 ölkəsinin nümayəndəsi Rusiyanın qrupa qayıtmasında maraqlı olacaqlarını bəyan etmişdilər ki, onlardan biri də ABŞ Prezidenti D.Tramp olmuşdur. O, 2016-cı ildə qeyd edib ki, “böyük beynəlxalq münaqişələrin heç biri Rusiyasız həll edilə bilməz” və G7 ölkələri Rusiyanın qrupa qayıtması məsələsini 2017-ci ildə nəzərdən keçirəcək. 13 yanvar 2017-ci ildə Rusiya G8 qrupundan həmişəlik çıxacağını elan etdi [129]. ABŞ Prezidentinin təklifini İtaliya lideri müdafiə etsə də, digər dövlət rəhbərlərinin dəstəyini qazanmadı. Buna

görə, Rusiyanın Xarici İşlər naziri S.Lavrov Rusiya Federasiyasının siyasi foruma yenidən qoşulmaqda maraqlı olmadığını söylədi və bildirdi ki, G20 Rusiya Federasiyası üçün kifayətdir. 2022-ci ildə Rusiyanın Ukraynaya təcavüzündən sonra ABŞ Prezidenti C.Bayden Rusiyanı G20 qrupundan çıxarmağa çağırıb. Alternativ olaraq o, Ukraynanın üzv olmamasına baxmayaraq, 2022-ci ildə keçiriləcək sammitdə iştirakına icazə verilməsini təklif edib. Rusiya isə bunun əhəmiyyətli bir məsələ olmayacağını iddia edir, çünki G20 üzvlərinin əksəriyyəti müharibə səbəbindən artıq Rusiya ilə iqtisadi mübarizə aparır [120].

ATƏT-lə bağlı isə davamlı əməkdaşlıq mühiti formalaşmayıb. Çünki, Rusiya hökuməti öz növbəsində hesab edir ki, ATƏT Rusiyaya qarşı qərəzli mövqe tutur və onun maraqlarını pozur. Bununla da Moskva çoxtərəflilik ideyasına əvvəlki sadiqliyini şübhə altına alır. İqtisadi gücü ABŞ-a beynəlxalq maliyyə institutlarının siyasətinə böyük təsir göstərməyə imkan versə də, Rusiya Federasiyası onların maliyyə dəstəyindən çox asılıdır. Məsələn, Beynəlxalq Valyuta Fondunda ABŞ ümumi səslərin 17,49%-ni, Rusiya isə cəmi 2,76%-ni toplayıb. Heç bir dövlət BVF-ə ABŞ-dan daha çox resurs bağışlamır və heç bir dövlət BVF-dən Rusiyadan daha çox ehtiyat aktivləri almır. Vəziyyət Dünya Bankında da təkrarlanır: səslərin sayı töhfələrin sayına görə bölünür. Beləliklə, ABŞ ümumi səslərin 16,95%-nə, Rusiya isə cəmi 2,8%-nə nəzarət edir [149].

Bütün bunları ümumiləşdirib qeyd etmək olar ki, ABŞ-Rusiya münasibətlərində nisbətən sabit sahələrdən biri özünü çoxtərəfli əməkdaşlıq platformalarında göstərir.

# II FƏSİL. ABŞ-RUSİYA MÜNASİBƏTLƏRİNDƏ MÖVCUD PROBLEMLƏR

## 2.1. Demokratiya və insan hüquqları problemi

Rusiya demokratiyası və Amerikanın milli təhlükəsizliyi bir-biri ilə sıx bağlıdır. Bu kontekstdə, yeni minillikdə ABŞ demokratiyanı silahlanmanın

azaldılması, strateji təhlükəsizlik və sabitliyin təmin olunması, iqtisadi inkişaf prosesində əsas faktor hesab edərkən, Rusiya isə ABŞ-a münasibətdə təhlükəsizliyi terrorizm və separatizmlə mübarizədə əhəmiyyətli amil sayırdı. 1990-cı illərin əvvəllərində ABŞ Rusiyanın qərb modelli demokratik, bazar iqtisadiyyatı əsasında inkişaf edən dövlətə çevrilməsi ümidi ilə onunla əməkdaşlıq edirdi. Lakin onilliyin sonunda məlum oldu ki, Rusiyanın ABŞ və Avropanın görmək istədiyi kimi demokratik dövlət olma proqnozları özünü doğrultmayacaq. Belə ki, 2003-2004-cü illərdəki seçkilərin son dövrünə qədər Buş Administrasiyası Rusiyanı demokratikləşmədə müəyyən irəliləyiş əldə etmiş hesab edirdi. Lakin, Rusiyada 2003-cü il Duma seçkiləri və 2004-cü il prezident seçkilərindən sonra, ABŞ-ın bir sıra QHT-ləri (məsələn, Jurnalistləri Müdafiə Komitəsi), Rusiya hökumətini əsas televiziya şəbəkələri üzərində nəzarəti daha da gücləndirməsi, jurnalistləri təqib etməsi və qorxutması, eyni zamanda başqa yollarla jurnalistlərin xəbərlərini məhdudlaşdırması, alternativ baxışların sıxışdırılması, həmçinin Çeçenistan münaqişəsinin qərəzli işıqlandırılması iddiaları ilə tənqid atəşinə tuturdu. Məlum proseslər media üzərində dövlət nəzarətinin gücləndirilməsi, 2004-cü ilin iyulunda Forbes jurnalının müxbiri Pol Klebnikovun qətli, 2004-cü ilin sentyabrında Azad Avropa/Azadlıq Radiosunun müxbiri Andrey Babitskinin hökumət hava limanının əməkdaşları tərəfindən hücuma məruz qaldıqdan sonra həbs edilməsi, 2004-cü ilin sentyabrında "Novaya qazeta"nın müxbiri Anna Politovskayanın zəhərlənməsi iddiası, 2005-ci ilin iyununda Novoe Delo müxbiri Maqomedzagid Varisov və 2006-cı ilin oktyabrında Politovskayanın qətlindən sonra daha da aktivləşdi. O zamandan etibarən, Rusiyada seçkilərə və kampaniyalara müdaxilənin artması, media azadlığının məhdudlaşdırılması, separatçı Çeçenistan regionunda geniş miqyaslı insan haqlarının pozulması, Rusiyanın ən böyük özəl neft şirkəti olan müxalifət partiyalarını dəstəkləməmək və ya hökumətin siyasətinə etiraz etməkdən çəkinmə ilə bağlı sahibkarlara açıq-aşkar xəbərdarlıq olaraq Yukos-un dağılması, 2004-cü ilin sentyabrında Beslan şəhərində terror hücumlarından sonra federal səlahiyyətlərin gücləndirilməsi, qeyri-hökumət təşkilatlarının hökumət tərəfindən təsdiq edilməsi kimi məsələlər ABŞ Dövlət Departamentinin Rusiya ilə bağlı

hesabatlarında əsas yer almışdır. Administrasiya Rusiyanın Çeçenistanda insan haqları pozuntularını tənqid etsə də, həmçinin Rusiyada seçkilər və konstitusiya referendumunun keçirilməsi səylərini şərti olaraq dəstəkləsə də, eyni zamanda kampaniyaları və nəticələri azad və ədalətli olmadığına görə tənqid edib. V.Putinin 2004-cü il sentyabrın 13-də Rusiyada hökumətin yenidən təşkilinə başlayacağını elan etməsi, ilin sonunda isə Ukraynadakı prezident seçkilərinə müdaxilə cəhdləri ABŞ administrasiyasının V.Putinin həm Rusiyada, həm də keçmiş Sovet ölkələrində demokratikləşməyə sadiqliyi ilə bağlı əlavə narahatlığını artırdı [40].

Yeni dövrdə, Kreml keçmiş sovet ölkələrində Rusiyaya qarşı bir sıra “rəngli inqilablar”-la qarşı-qarşıya qalmaq təhlükəsini görürdü. Çünki, bu cür hərəkatlar Rusiyanın ənənəvi maraq zonalarında Qərb institutlarının əhatə dairəsini daha da genişləndirmək üçün ümidləri yenidən alovlandırırdı. Xüsusən Rusiya rəhbərliyi ABŞ tərəfindən Rusiyanın regionda təsirinin azaldılması məqsədilə dəstəklənən 2003-cü ildə Gürcüstanda “Qızılgül inqilabı”, 2005-ci ildə Qırğızıstanda “Lalə inqilabı” zamanı ABŞ-ı günahlandırmışdır. Bu, əslində dövlətlər arasında münasibətlərdə sıfırlamanın heç bir zaman olmadığını və əlaqələrin aşağı səviyyədə qaldığını göstərirdi. 2005-ci ilin fevral ayının sonlarında Prezident V.Putinlə planlaşdırılan Bratislava sammitində əvvəl, Prezident C.Buş vurğulamışdı ki, “Rusiyanın Avropa dövləti kimi irəliləyiş əldə etməsi üçün Rusiya hökuməti demokratiya və qanunun aliliyinə sadiqliyini yeniləməli və möhkəmləndirilməlidir ... Biz həmişə Rusiyaya xatırlatmalıyıq ki, azad mətbuat, alternativ partiyalar, hakimiyyətin bölüşdürülməsi və qanunun aliliyi prinsipinin tərəfdarıyıq.” ABŞ-ın 2006-cı il Milli Təhlükəsizlik Strategiyası Rusiya Federasiyası ilə bağlı mövqeyini kökündən dəyişdi. Əgər 2002-ci ilin sənədində Amerika administrasiyası Rusiyada baş verən bəzi müsbət dəyişiklikləri qeyd etmiş və onu terrorizmə qarşı mübarizədə müttəfiq adlandırmışdısa, 2006-cı il sənədi Rusiya Federasiyasında demokratiyanın inkişafına çox pessimist münasibət bəsləyirdi. Sənəddə, qeyd olunan "Birləşmiş Ştatlar bu mövzuda, zərurət yaranarsa, müstəqil hərəkət etməyə hazır olmalıdır" fikrinə, cavab olaraq Rusiya Xarici İşlər Nazirliyinin İnformasiya və Mətbuat

Departamenti məlumat yaydı ki, "Ağ Evin fikrincə, ABŞ-ın xarici dövlətlərlə əlaqələrinin inkişafı üçün əsas meyar bir ölkənin davranışının Amerikanın demokratiya anlayışına və Vaşinqtondan göründüyü kimi arzuolunmaz rejimlərlə mübarizə ehtiyaclarına uyğunluğu və ya uyğunsuzluğu olacaq. " [57].

Bir çox amerikalı təhlilçilər Rusiyada geridə qalan demokratikləşməni tənqid edərkən ehtiyatlı davranmağa çalışırdılar ki, bu cür tənqidlər ABŞ-ın həyati əhəmiyyətli milli təhlükəsizlik problemləri ilə bağlı ABŞ-Rusiya əməkdaşlığına zərər verməsin. Digərləri isə, ikitərəfli münasibətlərə mümkün təsirlərdən asılı olmayaraq, ABŞ-ın narahatlıqlarını ifadə edirdilər. Rusiya mediası isə, ABŞ administrasiyasının bu cür bəyanatlarını Rusiyanın daxili işlərinə qarışmaq, Rusiyada ciddi terror təhlükəsini gözdən qaçırmaq kimi tənqid edir və terrorizmə qarşı həssas tədbirləri demokratikləşməyə təhdid kimi yanlış təqdim etdiyi üçün qəbul etmirdi. ABŞ-Rusiya münasibətlərində gərginlik yaradan bir çox məqamlarla yanaşı, həmçinin ABŞ-ın Rusiyanı insan hüquqlarına biganə münasibətə görə ittiham etməsi də ikitərəfli münasibətləri gərginləşdirirdi. Rusiya qarşıdan gələn 2007-2008-ci illərdə Duma və Prezident seçkilərinə hazırlaşarkən, ABŞ Administrasiyası Rusiya hökumətini demokratikləşməyə sadiqliyini təsdiqləməyə dəvət edirdi [57].

ABŞ Dövlət Departamenti 2009-cu ildə dekabrın 21-də hüquq müdafiəçisi və ABŞ Dövlət Departamenti tərəfindən Şimali Qafqazdakı insan haqları pozuntularına diqqət çəkən işinə görə İnsan Haqları Müdafiəçiləri Mükafatı ilə təltif olunan Makşarip Auşevin dörd ailə üzvü ilə birlikdə İnquşetiyada avtomobil partlaması nəticəsində həlak olmasından sonra verdiyi bəyanatlarda, [57] Rusiyada, xüsusən Şimali Qafqazda zorakılıq hallarının artmasından narahatlığını bildirmişdir. Rusiya Xarici İşlər Nazirliyi də, öz növbəsində, 2005-2015-cü illərdə bu hesabatlarda yer alan Rusiyada insan hüquqlarına riayət olunması ilə bağlı qiymətləndirmələrə öz şərhləri ilə reaksiya vermişdir.

Baş nazir V.Putin, 24 sentyabr 2011-ci ildə, “Vahid Rusiya” partiyasının qurultayında yeni prezidentlik müddətinə namizədliyini irəli sürmək niyyətini elan etdikdən sonra isə vəziyyət bir qədər də mürəkkəbləşdi [150]. Ağ Ev bu qərara nümayişkəranə mənfi münasibət göstərdi. ABŞ Dövlət Departamenti 2011-ci il dekabrın 4-də, Dövlət Dumasına seçkiləri sərt şəkildə tənqid etdi. Rusiyada qanunvericilik seçkilərində səslərin saxtalaşdırılması iddialarından sonra Moskva və Sankt-Peterburqda başlayan kütləvi etirazların başlanğıcında, Baş nazir V.Putin ABŞ-ı müdaxilə etməkdə və iğtişaşları qızışdırmaqda günahlandırdı, xüsusən ABŞ Dövlət katibi H.Klintonu günahlandıraraq, “müxalifət liderləri siqnalı eşitdi və ABŞ Dövlət Departamentinin dəstəyi ilə aktiv işə başladı” dedi [48]; onun şərhləri Obama administrasiyasının münasibətləri “yenidən qurmaq” səylərindəki pozğunluğun göstəricisi kimi qəbul edildi [128]. ABŞ-Rusiya münasibətləri H.Klintonun Moskvadakı etirazlara dəstək ifadə etməsindən və Rusiya Xarici İşlər Nazirliyi ABŞ-a aid insan haqları ilə bağlı hesabat yayımladıqdan sonra nəzərəçarpacaq dərəcədə pisləşdi [158]. 2011 və 2013-cü illərdə ABŞ Senatı Rusiya Federasiyasında insan hüquqları və qanunun aliliyi ilə bağlı dinləmələr keçirdi [127].

21 noyabr 2012-ci il tarixində, Rusiyaya qarşı tətbiq olunan 13 dekabr 1974-cü il tarixli Cekson-Venik düzəlişi rəsmi olaraq ləğv edilsə də, [4, 369] 2012-ci ilin dekabrında ABŞ Konqresi "Maqnitski Aktı"-nı qəbul etdi. Sənəd Hermitage Capital Fondunun hüquqşünası və rusiyalı vəkil Sergey Maqnitskinin 2009-cu ildə Moskva təcridxanasında istintaqı zamanı ölümündən sonra, bu işdə məsuliyyət daşıyan və Sergey Maqnitski tərəfindən rus məmurlarına qarşı ifşa edilmiş vergi qalmaqalında iştirak edən Rusiya rəsmilərinə maliyyə və viza qadağaları tətbiq etdi. 2016-cı ildən etibarən qlobal miqyasda tətbiq olunan akt ilə Konqres ABŞ hökumətinə dünyanın istənilən yerində insan haqlarını pozan şəxslərə sanksiya tətbiq etmək, onların aktivlərini dondurmaq və onların ABŞ-a girişini qadağan etmək səlahiyyəti verdi. ABŞ Maliyyə Nazirliyi tərəfindən tərtib olunmuş siyahıya hazırda Rusiya və MDB dövlətlərindən olan 18 nəfər daxildir [45]. Maqnitski aktına cavab olaraq, 28 dekabr 2012-ci ildə Rusiya Prezidenti V.Putin tərəfindən “Rusiya Federasiyası

vətəndaşlarının və insanların əsas hüquqları və azadlıqlarının pozulmasında iştrak edən şəxslərə qarşı təsir tədbirləri haqqında" Dima Yakovlev Qanunu imzalandı və 2013-cü il yanvarın 1-dən qüvvəyə mindi. Virciniya ştatının Purcellville şəhərindən olan bir ailənin övladlığa götürdüyü, 2008-ci ildə doqquz saat park edilmiş avtomobildə unudulub qaldıqdan sonra istilik vurmasından ölən rus uşağın adını daşıyan qanun qeyri-rəsmi olaraq insan hüquq və azadlıqlarının pozulmasında və ya Rusiya vətəndaşlarına qarşı cinayətlərdə iştirak edən ABŞ vətəndaşlarına qarşı sanksiyaları özündə ehtiva edirdi. Belə ki, o, Rusiyaya girişi qadağan olunmuş vətəndaşların siyahısını formalaşdırır, hökumətə onların aktivlərini və investisiyalarını dondurmağa imkan verir, Amerika vətəndaşlarından və ya təşkilatlarından pul alan fəal qeyri-kommersiya təşkilatlarının da fəaliyyətini dayandırır, qanunun 4-cü maddəsində isə rusiyalı yetim uşaqların, ABŞ vətəndaşları tərəfindən övladlığa götürülməsi qadağan edilirdi. Beləliklə, bu qanun uşaq övladlığa götürmə sahəsində əməkdaşlıq haqqında 13 iyul 2011-ci il tarixli Rusiya-Amerika razılaşmasının ləğv olunduğunu elan etdi [112]. Bu sanskiya paketi Maqnitski Aktına cavab kimi təsvir edildiyindən bəzən "Anti-Maqnitski qanunu" da adlanır.

Növbəti ilin yanvar ayında ABŞ vətəndaşlarının Rusiyada siyasi QHT-lərlə işləməsinin qarşısını almaq və hər hansı bir əcnəbi vətəndaşın dövləti nüfuzdan saldığı təqdirdə dövlət televiziyasında danışmasına mane olmaq məqsədilə əlavə iki qanun təklif edildi. Bu qanunlar 2012-ci ilə qədər Rusiya QHT-lərinə maliyyə dəstəyi verən, ABŞ insan hüquqları və seçki monitorinqi təşkilatlarınln (Golos Fondu, Demokratiya Milli Vəqfi, Beynəlxalq Respublikaçılar İnstitutu) fəaliyyətini ya məhdudlaşdırırdı, ya da qadağan edirdi [63].

Rusiyanın ABŞ demokratiyasına geniş və koordinasiyalı hücumu 2014-cü ildə başladı. Belə ki, bu hücumlar 2014-cü ildə Rusiyanın Ukraynaya müdaxiləsindən sonra ABŞ-ın rəhbərlik etdiyi beynəlxalq koalisiyanın təcridinə əks reaksiya olaraq, Amerika elektoratına və siyasi institutlarına təsir etmək məqsədi daşıyan fəallıqla müşayiət olunurdu [126]. 2016-cı ilin iyununda mübahisəli

prezident seçkilərində D.Trampın seçki kampaniyasına Rusiyanın dəstək verdiyi və seçki sisteminə müdaxilə etdiyi iddia olundu. Buna görə iki ölkə arasında münasibətlər xeyli gərginləşdi. H.Klinton isə 2016-cı il dekabrın ortalarında seçkilərdəki məğlubiyyətini məhz, V.Putin tərəfindən təşkil edilən Rusiya müdaxiləsi ilə əlaqələndirir, 2011-ci il Rusiya parlament seçkilərini tənqid etdiyinə və 2011-ci ilin dekabrında Rusiyada başlayan anti-Putin etirazlarının qızışdırılmasına görə V.Putinin ona qarşı şəxsi kin saxladığını iddia edirdi [35]. Rusiya Prezidenti V.Putin isə, Rusiyanın D.Trampı dəstəklədiyi fikrinin H.Klinton kompaniyasının yaratdığı bir əfsanə olduğunu söyləyərək, bütün ittihamları rədd etmişdi.

Dekabrın 29-da ABŞ Prezidenti B.Obama "Rusiyanın ABŞ prezident seçkilərinə müdaxiləsi" və Rusiyada işləyən "Amerika diplomatlarına təzyiq" iddiası ilə anti-Rusiya sanksiyalar paketini ehtiva edən fərman imzaladı, 35 rusiyalı diplomatı "persona non-qrata" (arzuolunmayan şəxs) elan etdi və onlara 72 saat ərzində ölkəni tərk etmək əmri verildi. Rusiyanın Nyu-Yorkdakı daimi nümayəndəliyi və Rusiyanın Vaşinqtondakı səfirliyinin şəhərdən kənarda yerləşən iki yaşayış kompleksi, "ruslar tərəfindən elektron kəşfiyyat və casusluq üçün istifadə edildiyi" bəhanəsi ilə bağlandı [54].

2017-ci il yanvarın 6-da Milli Kəşfiyyat Direktorunun Ofisi 2016-cı il ABŞ prezident seçkiləri ilə bağlı "Rusiyanın ABŞ-dakı son seçkilərdəki fəaliyyətləri və niyyətləri" adlı kəşfiyyat icmasının məxfilikdən azad edilmiş hesabatını açıqladı. Hesabatda qeyd edilir ki, "Mərkəzi Kəşfiyyat İdarəsi, Federal Təhqiqat Bürosu və Milli Təhlükəsizlik Agentliyi prezident V.Putinin "ABŞ-ın demokratik imicinə ictimai inamı sarsıtmaq, Demokratlar Partiyasının namizədi H.Klintonu ləkələmək və onun seçilməsinə və potensial prezidentlik şansına zərər vermək üçün 2016-cı ildə ABŞ prezident seçkilərinə yönəlmiş təsir kampaniyasına göstəriş verdiyinə" əmindir". Hesabatda həmçinin iddia edilir ki, Rusiya hökuməti "Dövlət katibi H.Klintonu gözdən salmaqla və onu açıq şəkildə xoşagəlməz şəkildə müqayisə etməklə, yeni seçilmiş prezident D.Trampın seçki şanslarına kömək etməyə can

atıb”. 2017-ci ilin iyul-avqust aylarında ABŞ Prezidenti D.Tramp 2016-cı il seçkilərinə müdaxilə etdiyinə görə Rusiyaya qarşı yeni sanksiya qanun layihəsini könülsüz şəkildə imzaladı. Avqustun 31-də Dövlət Departamenti Rusiyadan San-Fransiskodakı baş konsulluğun binasında, həmçinin Vaşinqtondakı ticarət nümayəndəliyinin binalarında və Nyu-Yorkdakı ticarət nümayəndəliyinin filialında diplomatik fəaliyyəti dayandırmağı tələb etdi [164]. ABŞ Konqresi və Senatı yeni anti-Rusiya sanksiyaları haqqında qanunu qəbul etdikdən qısa müddət sonra Rusiyanın Xarici İşlər Nazirliyi ABŞ-dakı diplomatik obyektlərinin bağlanmasına və diplomatların ölkədən çıxarılmasına istinad edərək, sentyabrın 1-dək ABŞ-ın Moskvadakı səfirliyi və Sankt-Peterburq, Yekaterinburq və Vladivostokdakı konsulluqlarının diplomatik və texniki işçilərinin sayını 755 nəfərdən 455 nəfərədək azaldılması, beləliklə də, Rusiya Federasiyasının ABŞ-dakı diplomatik nümayəndəliyində çalışanların sayı ilə bərabərləşdirilməsini tələb etdi. Bundan əlavə, Amerikanın Moskvadakı səfirliyi Dorojnaya küçəsindəki anbar binalarından və Serebryany Bordakı səfirlik binasından məhrum edildi [97].

13 fevral 2018-ci il tarixində ABŞ Kəşfiyyat Birliyi (altı kəşfiyyat orqanının rəhbərliyi) yekdilliklə belə nəticəyə gəldi ki, Rusiya hökuməti Amerika cəmiyyətini parçalamaq və antiamerikanizmi gücləndirmək üçün saxta sosial media hesabları vasitəsilə dezinformasiya yayır, 2016-cı il seçkiləri zamanı başladığı müdaxiləni davam etdirir və sosial media vasitəsilə ixtilaf yaradaraq 2018-ci ildə ABŞ-da keçiriləcək aralıq seçkilərə təsir göstərməyə çalışır. Eyni gün, Milli Kəşfiyyatın direktoru Den Koats da Konqresdə verdiyi ifadə zamanı iddia etdi ki, “ABŞ Rusiya hakimiyyətinin hücumu altındadır” [59].

2019-cu  il martın 22-də Rusiyanın seçkiyə müdaxiləsi ilə bağlı xüsusi prokurorun araşdırması yekunlaşdı və ABŞ-ın xüsusi prokuroru Robert Mueller hesabatı baş prokuror Uilyam Barra təqdim etdi. 2019-cu ilin aprelində açıqlanan hesabatında R.Mueller, D.Trampın kampaniyası ilə Rusiya rəsmiləri arasında çoxsaylı əlaqələrin araşdırıldığını Rusiyanın müdaxiləsinin "sistematik" olduğunu və "ABŞ cinayət qanunlarını pozduğu"-nu bildirsə də, D.Tramp və ya onun

tərəfdaşlarına qarşı hər hansı sui-qəsd, təzyiq və ya şantaj, Rusiya ilə sövdələşmə ittihamı irəli sürmək üçün kifayət qədər sübut olmadığı qənaətinə gəlindi [73]. Mövzu ilə bağlı, mətbuat konfransında prezident D.Tramp seçkilərə müdaxilə iddiaları ilə bağlı, seçkilərə qarışması üçün heç bir səbəbin olmadığını irəli sürərək Rusiyanın mövqeyini müdafiə etdi. İclasdan sonra isə, ABŞ lideri mövqeyinə görə siyasi elitanın tənqid atəşi ilə üzləşdi.

2020-ci il avqustun 20-də müxalifət fəalı, Rusiyada fəaliyyət göstərən Korrupsiya ilə Mübarizə Fondunun qurucusu, hökumət əleyhinə nümayişlər təşkil etməklə və prezident V.Putin və onun hökumətinə qarşı islahatları müdafiə etmək üçün namizədliyini irəli sürməklə beynəlxalq şöhrət qazanmış hüquqşünas Aleksey Navalnı zəhərləndi. A.Navalnıdan götürülmüş nümunələrdə Böyük Britaniyada keçmiş rus kəşfiyyatçı S.Skripala qarşı hücumda da istifadə edilən əsəb pozucusu Noviçok izləri aşkarladı. Sentyabrda A.Navalnı V.Putini onun zəhərlənməsinə görə məsuliyyət daşımaqda və Federal Təhlükəsizlik Xidmətinin agentlərini bu işə cəlb etməkdə ittiham etdi [13]. ABŞ-ın Kəşfiyyat Birliyi də məsələyə münasibətində açıq şəkildə bu qərara gəldi ki, Rusiya FTX zabitləri A.Navalnını sovet istehsalı olan “Noviçok” adlı əsəb əleyhinə sistemdən istifadə edərək zəhərlədiyini qiymətləndirir. Buna cavab olaraq, ABŞ hökuməti, yüksək rütbəli Rusiya məmurlarına qarşı yeni sanksiyalar tətbiq etdi, onların ABŞ-dakı aktivləri donduruldu və ABŞ şirkətlərinin və rəsmilərinin onlarla hər hansı əlaqəsi qadağan edildi. Müalicədən sonra A.Navalnı 2021-ci il yanvarın 17-də Brandenburq hava limanından Moskvaya yola düşdü və Rusiyaya çatan kimi şərti azad etmə şərtlərini pozmaq ittihamı ilə 3,5 il müddətinə həbs edildi. Məhkəmə qərarı ABŞ-ın da sərt reaksiyasına tuş gəldi. ABŞ-ın Dövlət katibi bəyan etdi ki, onun ölkəsi həm A.Navalnını, həm də aksiyalar vaxtı həbs edilənləri dərhal azad etməyə çağırır [137].

2020-ci ildə ABŞ-da keçiriləcək prezident seçkiləri ərəfəsində, hesabatlarda Rusiyanın seçkiyə müdaxiləsini, ilk növbədə təsir əməliyyatları vasitəsilə davam etdirdiyi göstərilirdi. Noyabrda Xüsusi Prokuror R.Muellerin hesabatından yeni dərc edilmiş hissələrdə qeyd olunurdu ki, “WikiLeaks 2016-cı ilin iyul və oktyabr

aylarında oğurlanmış e-poçtları dərc etsə də, müstəntiqlər haker əməliyyatlarında Rusiyanın aktiv iştirakını və ya elektron oğurluqlarını isbatlamaq üçün "kifayət qədər sübuta malik deyil". Bununla belə, 15 aprel 2021-ci ildə Bayden administrasiyası Rusiyanın seçkilərə iddia edilən müdaxiləsi ilə bağlı 10 rus diplomatını ölkədən çıxardı və Rusiyanın kiber fəaliyyətlərini dəstəkləyən altı rus şirkətinə, əlavə olaraq 32 fiziki və hüquqi şəxsə müdaxilədə və 2020-ci ildə ABŞ federal hökumətinin məlumatlarının pozulmasında roluna görə sanksiya tətbiq etdi [9][50].

17 avqust 2020-ci ildə Senatın Kəşfiyyat Komitəsi 2017-ci ilin yanvarında Rusiyanın müdaxiləsi ilə yekdil, ciddi şəkildə redaktə edilmiş 996 səhifəlik hesabatı açıqladı və bununla da Birləşmiş Ştatların "ən yüksək profilli təhqiqatlarından" birini bitirdi. Üç illik araşdırmalara əsaslanan Komitə hesabatı, Rusiya hökumətinin D.Trampın lehinə seçkiləri sabotaj etmək üçün “geniş kampaniya” apardığını və bu kampaniyaya D.Trampın öz müşavirlərinin bəzi üzvlərinin də yardım etdiyini müəyyənləşdirdi [42].

Dünyanın demək olar ki, hər bir regionunda ölkələrin demokratik geri çəkilmə ilə üzləşdiyi və repressiv hökumətlərin gücləndiyi bir vaxtda, ABŞ Prezidenti C.Baydenin 2021-ci il 9-10 dekabr tarixlərində 100-dən çox ölkənin iştirakı ilə virtual Demokratiya Sammitinə Rusiyanın dəvət olunmaması, qonaq siyahısı iştirakçılarının demokratiya reytinqinə görə deyil, ABŞ-ın siyasi maraqlarına əsaslandığı üçün tənqidinə səbəb oldu [162].

Həqiqətən də, demokratiya ABŞ xarici siyasətində ən həssas məsələlərdən biri olsa da, Rusiya ilə münasibətlərdə bu istiqamətdə əhəmiyyətli bir irəliləyiş qeydə alınmamışdır.

### 2.2. Kibermüharibə və terrorizmə qarşı birgə mübarizə

XXI əsrdə terrorla mübarizə istiqamətində tərəflərin əməkdaşlığa doğru addımları elə ilk illərdən atılsa da, hər iki ölkənin dövlət-siyasi sistemləri, mədəni

dəyərləri, tarixi təcrübələri, milli maraqları, məqsədləri, hədəfləri, strategiyaları və qlobal rolu arasında köklü fərqlərin mövcudluğu terrorizmlə mübarizə sahəsində münasibətlərə də təsir göstərir və ziddiyyətli mövqeləri ortaya qoyurdu. Bu iddianı dəstəkləmək üçün, təkcə 2000-ci il prezidentlik kampaniyası zamanı C.Buş qeyd etdiyi bir fikrə diqqət yetirmək kifayətdir: "Biz terrorizmlə bağlı Rusiya hökuməti ilə əməkdaşlıq etmək istəyirik, lakin Moskva sivil təmkinlə fəaliyyət göstərməyincə bu, mümkün deyil". Beləliklə məlum olur ki, tərəflərin istər potensial və imkan qeyri-bərabərliyi, istərsə də fərqli maraq və mənafeləri terrorizmlə mübarizəyə mənfi təsir göstərirdi [128]. Bu məqamda 11 sentyabr hadisələri yalnız ABŞ xarici siyasətində köklü dəyişikliyə yol açmaqla qalmadı, dövlətlərarası münasibətlərin xarakterinə ciddi siyasi və psixoloji təsir göstərdi, beynəlxalq münasibətlərdə isə təsnifatca yeni bir təhlükənin – transmilli terror təhlükəsinin meydana gəldiyini sübut etdi [88]. Artıq, Moskvada hesab etməyə başladılar ki, beynəlxalq terrorizmə qarşı qlobal mübarizə prosesində Rusiyanın birmənalı olaraq ABŞ-ı müdafiə etməsi, nəticə etibarilə Rusiyanın "qərb klubu"na daxil olmasını şərtləndirəcəkdir. Sentyabrın 24-də V.Putin Amerikanın terrorizmə qarşı müharibəsini dəstəkləmək üçün beş bəndlik planını açıqladı və aşağıdakı vədləri verdi: [109]

- kəşfiyyat məlumatlarının toplanması və mübadiləsində Rusiyanın Amerika və beynəlxalq xüsusi xidmət orqanları ilə aktiv əməkdaşlığı;
- Rusiya hava məkanının humanitar yardım missiyalarına açıq olması;
- Qazaxıstan, Özbəkistan və Tacikistan da daxil olmaqla, Mərkəzi Asiya respublikalarının hava məkanı və hava bazalarından ABŞ ordusu tərəfindən istifadə oluna biləcəyinə qərar verməkdə sərbəstliyi;
- Rusiyanın antiterror əməliyyatlarının aparıldığı ərazidə beynəlxalq axtarış-xilasetmə əməliyyatlarında iştirakı;
- Rusiyanın Şimal Alyansına və Əfqanıstandakı Rabbani hökumətinə birbaşa humanitar və hərbi yardımı.

Sentyabrın 26-da Ağ Evin mətbuat katibi Ari Fleyşer prezident C.Buşun V.Putinin bəyanatını təqdir etdiyini bildirdi: "Prezident C.Buş prezident V.Putinin

beynəlxalq terrorizmə qarşı birgə mübarizədə konkret əməkdaşlıq təklifini çox yüksək qiymətləndirir. Prezident Putinin açıqlamaları onu göstərir ki, Rusiya beynəlxalq terrorizmə qarşı birgə mübarizəyə böyük töhfə verə bilər ... eyni zamanda Rusiya qonşularının suverenliyinə və müstəqilliyinə hörmət edir." [93].

Bununla belə, Dövlət Dumasının 2001-ci ilin payız sessiyasındakı müzakirələri zamanı Əfqanıstanda ABŞ-a yardım siyasətinə müxtəlif səviyyələrdə dəstək və narazılıqlar özünü göstərirdi. Belə ki, terror aktlarından dərhal sonra prezidentyönlü mərkəzçi qruplar və rəsmi Kremlin əməkdaşlığa ehtiyatlı yanaşma mövqeyini dəstəkləyən Yabloko Partiyasının beynəlxalq terrorçulara qarşı ABŞ-la əməkdaşlıq etmək üçün mümkün olan hər şeyi etməyə tərəfdar olmasına baxmayaraq, Rusiyanın bir neçə yüksək vəzifəli məmuru, o cümlədən Müdafiə naziri Sergey İvanov terrorizmlə mübarizədə ABŞ-la hərbi əməkdaşlığa qarşı açıq şəkildə çıxış edirdilər. Kommunist Partiyasının tərəfdarları əməkdaşlıqla bağlı istənilən təklifə etiraz edirdilər. Millətçi Rusiya Liberal Demokrat Partiyasının liderləri isə, hətta ABŞ-a rəğbət bəsləməyin əleyhinə çıxır və əslində İslam dünyası ilə əməkdaşlıq edilməli olduğunu müdafiə edirdilər. Lakin, Rusiya Prezidenti V.Putin artıq öz qərarını vermişdi və buna görə, müzakirələrin sonunda Rusiya parlamenti konsensusa gəldi və prezidentə mənəvi və siyasi dəstək verən qətnamə qəbul etdi [155].

Beləliklə, ABŞ-ın taliblərin hakimiyyətini devirmək və terror hücumlarının günahkarlarını cəzalandırmaq üçün müharibəyə başlamaq qərarı Rusiya Federasiyası tərəfindən dəstəkləndi, ABŞ-da baş verən terror aktları sözsüz qınandı və Kremlin taliblərə qarşı əməliyyatlara kömək etməyə hazır olduğu bildirildi [5, 171]. Nəticə olaraq ABŞ-ın "Əl-Qaidə" beynəlxalq terror təşkilatına və Taliban rejiminə qarşı 2001-ci ilin oktyabrın 7-də Əfqanıstanda başlatdığı "Sarsılmaz azadlıq" adlı müharibədə Rusiya fəal iştirakçıya çevrildi və birbaşa hərbi dəstək verməsə də, [5, 172]

- ilk növbədə 2001-ci ilin payızında Kabil ətrafında yol tapmağa kömək edən Əfqanıstanın topoqrafiyası və mağaraları haqqında logistik informasiya daxil olmaqla, özünün kəşfiyyat məlumatlarını ABŞ-la paylaşdı (ABŞ rəsmiləri bu məlumatın "Sarsılmaz azadlıq" əməliyyatının ilkin uğuruna töhfə verəcəyini bəyan etdilər);
- Əfqanıstanın şimalında taliblərə qarşı döyüşən Şimal alyansına (özbək-tacik mücahid qüvvələri) hərbi yardımlar və təlim missiyaları göndərdi;
- ABŞ-a Amerika döyüş sursatlarını və digər təchizatlarını Şimal şəbəkəsi dəmir yolu vasitəsilə Şimali Avropadakı limanlardan vasitəsilə Mərkəzi Asiyaya göndərməyə icazə verdi və ABŞ-ın Mərkəzi Asiyada hərbi bazalar yaratmaq planlarına mane olmadı;
- humanitar yardım göstərən uçuşlar üçün Rusiya hava məkanını açıq elan etdi, humanitar yardımlarla, yenidənqurma işlərinə rəhbərlik etməklə və tibbi təminatla beynəlxalq səylərə töhfə verdi;
- OPEK neft tədarükünü azaltmaq üçün hərəkətə keçəndə beynəlxalq bazara neft və qazın sabit və sərfəli tədarükünü saxlamaqla dolayı yolla koalisiya hazırlığına dəstək oldu.

Bu amillər son nəticədə ABŞ-Rusiya münasibətlərinin keyfiyyətcə yeni bir mərhələyə keçidini şərtləndirdi ki, məhz bu zamandan etibarən ABŞ-Rusiya münasibətlərində 1998-2000/2001-ci illərdə müşayiət olunan soyuqlaşma və bir çox hallarda qarşıdurma mühiti konstruktiv münasibətlərlə əvəz olundu və nəzərəçarpan mülayimləşməyə başladı. Rusiyanın ABŞ-a bu qədər güzəştə getməsinin səbəbi isə, üç əsas məntiqlə izah oluna bilərdi: ABŞ-ın birtərəfliliyini tarazlaşdırmaq; Çeçenistanda "antiterror" fəaliyyətinə dəstək qazanmaq; ölkənin iqtisadi maraqlarını təmin etmək. Moskvanın ikinci Əfqanıstan müharibəsi zamanı, Vaşinqtona verdiyi dəstək, ABŞ-a göstərdi ki, Rusiya bir çox NATO dövlətləri ilə müqayisədə, ABŞ üçün daha yaxşı tərəfdaş ola bilər. Öz növbəsində Moskva Vaşinqtonla yaxınlaşmaqda maraqlı idi. Belə ki, Taliban Çeçenistanda terrorçulara dəstək mənbəyi idi. Əfqanıstanda aparılan əməliyyatlar zamanı, Şimal Alyansı tərəfindən

Rusiyaya çeçen üsyançılarının Əfqanıstanda təlim və tədarük üçün bazalarının yerləşməsinə dair sübutlar təqdim edilmiş, daha sonra isə həmin təlim düşərgələri və terrorçuların Əl-Qaidə şəbəkəsi ilə əlaqələri koalisiya qüvvələri tərəfindən məhv edilmişdi. İkincisi, ABŞ-la yaxınlaşma, Rusiyaya Çeçenistan hadisələrinin şərhi məsələsində (demokratiya və insan hüquqları ilə bağlı) Vaşinqtonun dəstəyini əldə etmək imkanı qazandıra bilərdi [5, 113].

Xüsusilə, bu baxımdan Rusiyanın "11 sentyabrı" hesab edilən 23-26 oktyabr hadisələrindən (Moskvanın Dubrovka küçəsindəki teatr mərkəzinin binası Mövsar Barayevin rəhbərliyi altında silahlı terrorçular tərəfindən ələ keçirilməsi, 750 nəfərdən çox insanın girov götürülməsi, həyata keçirilən əməliyyat nəticəsində isə 117 insanın ölümü) sonra rəsmi Moskva Vaşinqtondan 11 sentyabrda aldığı dəstəyin əvəzini gözləyirdi. Bu proqnozlar məlum hadisələrdən sonra qismən də olsa özünü doğrultdu. Belə ki, "Nezavisimaya qazeta"-nın təşkil etdiyi dəyirmi masada çıxış edən ABŞ-ın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Aleksandr Verşbounun Çeçenistan rəhbərliyini Moskvada törədilmiş terror aksiyasında dolayı yolla da olsa, iştirakda ittiham etməsi, təbii ki, Rusiya rəhbərliyini xeyli dərəcədə razı salmışdı. Bunun davamı olaraq, 28 fevral 2003-cü ildə ABŞ Dövlət Departamenti Üsamə bin Laden və Əl-Qaidə ilə əlaqəsi olduğu iddia edilən Rusiyada çoxsaylı terror aktlarına cavabdeh olan üç çeçen qrupunu (İslam Beynəlxalq Briqadası, Xüsusi Məqsədli İslam Alayı və Çeçen Şəhidlərinin Riyadus-Salixin Kəşfiyyat Batalyonu) terrorçu təşkilatlar kimi tanımış və Çeçenistandakı digər qruplaşmaları isə Əl-Qaidə kimi beynəlxalq terror qrupları ilə bütün əlaqələri qeyd-şərtsiz kəsməyə çağırmışdı. Beləcə, həm Rusiyanın Çeçenistanda sərt anti-terror üsullarına qarşı və insan haqlarının pozulması ilə bağlı tənqidlərin sayı azalmış, həm də çeçen üsyançılarına kənardan maliyyənin kəsilməsinə kömək etmişdi [150].

Bu dövrdə, dövlətlər kiber təhlükəsizlik sahəsində də əməkdaşlığı genişləndirmiş, 2000-ci illərin ortalarında ABŞ hüquq mühafizə orqanlarının səlahiyyətli nümayəndələri 6 kiber cinayətkarlıqla əlaqəli olan əməliyyatların birində rus həmkarlarından yardım aldıqlarını bildirmişdilər. Bundan başqa,

münasibətlərin getdikcə yaxşılaşdığı ilk dövrlərdə Rusiyanın kiber təhlükəsizlik agentlikləri də ABŞ-da təlim proqramlarında iştirak etmişdir [150]. 2002-ci ilə doğru irəlilədikcə və ABŞ İraqda hərbi əməliyyatları ciddi şəkildə nəzərdən keçirməyə başladıqca, münasibətlər yenidən gərginləşsə də, bu ziddiyyətlər hələ ki, terrorizm və kibermüharibə ilə mübarizəyə mənfi təsir göstərmirdi. Terrorla mübarizə kimi bəzi məsələlərdə V.Putin hətta ABŞ-ı Rusiyanın "müttəfiqi" adlandırırdı. Putinin 27 sentyabr 2003-cü ildə Kemp Deviddə keçirilən sammitdən sonra çıxışında dediyi kimi, "terrorizmlə mübarizə əməkdaşlığımızın prioritetləri sırasında olmaqda davam edir ... bu sahədə biz təkcə strateji tərəfdaş kimi deyil, həm də müttəfiq kimi çıxış edirik" [109].

2004-cü il sentyabrın 21-də Beslan məktəbində baş verən girov böhranı (32 silahlı şəxs tərəfindən Rusiyanın Şimali Osetiya bölgəsindəki Beslan şəhərində məktəblərdən birinin zorla ələ keçirilməsi, 1100 nəfərin girov saxlanılması və 334 nəfərin həlak olması) ilə əlaqədar C.Buş V.Putinə başsağlığı verdi [24]. Bu hadisə göstərdi ki, terrorla mübarizə sahəsində tərəflər əməkdaşlıq etsə də, maraqlardakı fərqlilik və ziddiyyətlərdən dolayı, əlaqələr müttəfiqlik səviyyəsinə yüksəlmir, qarşılıqlı dəstək yalnız rəsmi bəyanatlar və logistik təminatla yekunlaşırdı. Məsələn, 2009-cu ilin fevralında işə düşən, Baltik limanlarından Əfqanıstana müharibə yüklərini daşıyan dəmir yolu şəbəkəsi olan Şimal Paylama Şəbəkəsi Əfqanıstanda döyüşən ABŞ və digər qüvvələrə alternativ marşrut təmin etmişdi. Bundan başqa, yenidənyükləmə dövründə, Ulyanovskda NATO-nun nəqliyyat-logistik mərkəzi yaradılmışdı ki, bu mərkəz Əfqanıstanda narkotiklərlə mübarizə və döyüş helikopterlərinə texniki xidmət sahəsində mühüm obyekt hesab olunurdu [150].

2 may 2011-ci ildə ABŞ Prezidenti Barak Obama Əl-Qaidə lideri Üsamə bin Ladenin Pakistanın şimal-şərqindəki iqamətgahında öldürüldüyünü təsdiqlədikdən sonra, Rusiya bu münasibətlə ABŞ-ı təbrik etdi. Təbrikdə deyilirdi: "Rusiya qlobal terrorizmə xas olan təhlükələrlə üzləşən ilk ölkələr sırasında olub və təəssüf ki, Əl-Qaidənin nə olduğunu bilir ... cəza mütləq bütün terrorçulara çatacaq." [60]. Bu hadisədən qısa müddət sonra, ABŞ Dövlət Departamenti 2007-ci ildə

indiki Dağıstan, Çeçenistan, İnquşetiya, Şimali Osetiya, Kabardin-Balkar, Qaraçay-Çərkəz respublikalarında və Stavropol vilayətində mövcudluğu bəyan olunmuş və Əl-Qaidə təşkilatı ilə yaxın münasibətləri olan Qafqaz Əmirliyini terrorçu təşkilatlar siyahısına saldı və bu addım Kreml tərəfindən gələcək əməkdaşlıq ümidi ilə müsbət qarşılandı [41]. Lakin, məhdud bir məqsədə - Talibanı məğlub etməyə əsaslanan ittifaq onlar darmadağın edildikdən qısa müddət sonra dağılmağa başladı. V.Putinin nöqteyi-nəzərindən, ABŞ 11 sentyabrdan sonrakı sövdələşmənin bir hissəsini yerinə yetirə bilmədi. Rusiya artıq hiss edirdi ki, ABŞ-ın Mərkəzi Asiyada mövcudluğu, NATO-nun genişlənməsi də daxil olmaqla, həddən artıq çox məsələdə güzəştə gedir və bunun müqabilində kifayət qədər qazanc əldə etmir. Münasibətlərin pisləşməsinin əsas səbəbləri isə Vaşinqtonun Anti-Ballistik Raket Müqaviləsindən birtərəfli şəkildə çıxması, 2003-cü ildə İraqın işğalı, ABŞ-ın Avrasiyada "rəngli inqilablar"a dəstəyi oldu [20]. 2012-ci ilin avqust ayından etibarən ABŞ və Rusiya terrorizm və piratçılığa qarşı ortaq əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə Northern Eagle (Norveçlə birlikdə) və Vigilant/Watchful Eagle (Kanada ilə birlikdə) kimi ortaq hərbi təlimlərə başladılar [150].

2011-ci il iyunun 11-də Rusiyanın Milli Təhlükəsizlik Nazirliyi heyətinin ABŞ-a səfəri çərçivəsində hər iki ölkənin yüksək səlahiyyətli nümayəndələri arasında iki ölkənin də qarşılaşdığı kiber təhlükəsizlik məsələləri ətrafında müzakirələr aparıldı. Lakin, həmin il ABŞ kəşfiyyatı bildirdi ki, Rusiya Amerika şirkətlərindən texnoloji məlumatların oğurlanması üçün kompüterlərdən istifadə edir. Rusiya hakerləri ilkin olaraq, 2011-ci ilin noyabrında ABŞ-ın Sprinqfild yaxınlığındakı su təchizatı stansiyasını sıradan çıxaran hücumda əsassız olaraq ittiham olunurdular [171].

2013-cü il 17-19 iyun tarixlərində, Şotlandiyanın Loh-Erne şəhərində G8 ölkələrinin 39-cu zirvə görüşündə, Rusiya və ABŞ prezidentləri kibermakanda qarşıdurma riskini azaltmaq üçün kibertəhlükəsizlik paktı imzalamaq, informasiya-kommunikasiya texnologiyalarının istifadəsi sahəsində təhdidlərlə bağlı əməkdaşlıq etmək üçün birgə təşəbbüs irəli sürdülər və ikitərəfli işçi qrupunun yaradılması

haqqında qərara gəldilər [3, 177][5, 369]. İyul ayından etibarən isə, ABŞ və Rusiya Vaşinqtonda təşkil olunan görüşdə kiberməkanda daimi dialoqun aparılması ilə bağlı razılaşdılar. Ancaq, həmin il ABŞ kəşfiyyatının keçmiş əməkdaşı Edvard Snoudenin ABŞ-ın Milli Təhlükəsizlik Agentliyi tərəfindən ölkəsində və dünyanın digər yerlərində milyonlarla insanın (hətta dövlət və hökumət başçılarının) telefon danışıqlarının və internet məkanındakı fəaliyyətinin izləndiyini ifşa etməsi Qərbdə, xüsusən də ABŞ-da ictimai rəyə çox ciddi təsir göstərdi. Pentaqonun qapalı hesabatında qeyd edilirdi ki, E.Snouden 1,7 mln məxfi faylı oğurlayıb ki, onların da çoxu "ABŞ ordusunun, donanmasının, dəniz piyadalarının və hərbi-hava qüvvələrinin həyati vacib əməliyyatlarına" aiddir. Hadisədən sonra ABŞ hökuməti xəstəliklə bağlı icazə alıb Honkonqa yerləşən E.Snoudeni dövlət əmlakını oğurlamaqda və casusluqda günahlandırdı. 1 avqust 2013-cü ildə "Vikiliks" media qurumunun köməyi ilə Rusiya hökuməti E.Snoudenə sığınacaq verdikdən sonra B.Obama ilə V.Putin arasında 2013-cü ilin sentyabr ayının əvvəlində Moskvada keçirilməsi planlaşdırılan növbəti sammit ləğv edildi və münasibətlər yenidən pisləşdi [116].

Bununla belə, keçən illər ərzində terrorla mübarizə hər iki tərəfin əməkdaşlıq etdiyi bir sahə olaraq qaldı. 2013-cü ildə iki çeçen qardaş Tsarnayev tərəfindən həyata keçirilən Boston Marafonu partlayışları və 2014-cü ildə Rusiyanın Soçi şəhərində keçirilən və xeyli sayda ABŞ vətəndaşının iştirak etdiyi Qış Olimpiya Oyunlarının radikal qruplar tərəfindən təhdid edilməsi nəticəsində ikinci fürsət pəncərəsi açılmış kimi görünürdü [56, 2]. Lakin 2014-cü ildə Ukrayna münaqişəsi fonunda ABŞ-Rusiya münasibətlərində ümumi və getdikcə böyüyən böhran bu fürsəti yenidən darmadağın etdi. Rusiya və ABŞ arasında informasiya təhlükəsizliyi və terrorizmə qarşı mübarizəüzrə qarşılıqlı fəaliyyət faktiki olaraq donduruldu, əsas institusional mexanizmlər məhdudlaşdırıldı, ikitərəfli Prezident Komissiyasının himayəsi altında iki işçi qrupunun fəaliyyətinə xitam verildi və qarşılıqlı kibermüharibə ittihamlarının sayı artdı. İlk dəfə, ABŞ-ın kibermüdafiə şirkəti CrowdStrike Rusiyanı Amerika, Avropa və Asiya şirkətlərində genişmiqyaslı

casusluqda günahlandırdı. 2014-cü ilin yayında Kaliforniyada yerləşən FireEye kibertəhlükəsizlik şirkətinin tədqiqatçıları gizli hərbi məlumatları saxlayan Amerika şirkətinin korporativ şəbəkəsinə müdaxiləni araşdırarkən, rus dilindən istifadə edilməklə yaradılan Sofacy adlanan proqramın Rusiya Federasiyası ərazisindən idarə olunduğu və proqramın dövlət (söhbət Rusiyadan gedir) himayəsində olduğu qənaətinə gəldi. Xüsusilə, əsas ittihamlar 2008-ci ilin avqustunda Rusiya ilə Gürcüstan arasında münaqişədə Rusiya mənşəli BlackEnergy zərərli proqramından istifadə edilməsi haqqında səslənirdi. FireEye ilə yanaşı, digər kibercinayətlərdən müdafiə şirkətləri də Rusiyanı 2007-ci ildə mürəkkəb haker hücumu ilə əlaqələndirən hesabatlar dərc ediblər. [171].

Həmin il, Moskva həm də Əfqanıstandakı müharibəyə, ilk növbədə, ABŞ-ın terrorizmə qarşı qlobal müharibəsi çərçivəsindən yanaşmaqdan uzaqlaşdı. 2012-ci il 21 martda Rusiya, ABŞ və NATO-nun 2014-cü ildə Əfqanıstandan çəkilməsinə kömək etmək üçün Ulyanovsk hava limanında ABŞ və NATO tranzit mərkəzinə ev sahibliyi etməyi qəbul etsə də, 2014-cü ilin martında artan gərginlikdən sonra Rusiya Qırğızıstana Manasdakı ABŞ Hərbi Tranzit mərkəzinin bağlanması üçün təzyiqlərə başladı və 2015-ci ilin may ayında NATO-ya Əfqanıstana Rusiya ərazisindən hərbi təchizat çatdırmağa imkan verən əsas hərbi nəqliyyat dəhlizini (Şimal Dəhlizi) bağladı [39].

2013-cü ildə Yaxın Şərqdə yeni bir təhlükənin İraq və Şam İslam Dövləti terror qruplaşmasının yüksəlişi, 2014-2015-ci illərdə Suriya və İraqda bir sıra əraziləri ələ keçirməsi ilə tərəflər yenidən öz diqqətlərini beynəlxalq terrorizmlə mübarizəyə yönəltdilər [18]. 2015-ci ildə Avropada İŞİD tərəfindən koordinasiya edilən bir sıra terror hücumlarından sonra ABŞ rəhbərliyində on dörd ölkədən ibarət koalisiya Suriyadakı İŞİD mövqelərinə on mindən çox hava zərbəsi endirdi, beləliklə İraqdakı hava kampaniyasını Suriyanı da əhatə edəcək şəkildə genişləndirdi. Eyni zamanda, 2015-ci ilin sentyabrın sonunda Suriya hökumətinin tələbi və icazəsi ilə Rusiya da, terror qruplaşmasının hədəflərinə hava zərbələri endirməyə başladı, həmçinin, İraq, İran və Suriya ilə əməliyyatlarla bağlı kəşfiyyat

məlumatlarını toplamaq, emal və təhlil etmək üçün Bağdadda “birgə məlumat mərkəzi” yaratmaq barədə razılığa gəldi. Aparılan əməliyyatlar nəticəsində, İŞİD-in genişlənməsinin qarşısı alındı, Suriya hökumət qüvvələri bir sıra qələbələr əldə etdi, İraq və Suriyada İŞİD nəzarətində olan ərazilərin 98 faizi, o cümlədən Rakka və Deyr əz-Zor İraq təhlükəsizlik qüvvələri və Suriya Demokratik Qüvvələri tərəfindən azad edildi [124].

İŞİD terror birləşməsinə qarşı hər iki dövlət həm öz ərazilərində, həm də Suriyada əməliyyatlar keçirsələr də, bu kompaniyalar bir-birindən ayrı təşkil olunmuşdu. Bu da tərəflərin maraqlarındakı ziddiyyətli mövqelərdən xəbər verirdi. Birincisi ona görə ki, Rusiya ABŞ-ın rəhbərlik etdiyi Qərb koalisiyasına daxil olmağa şübhə ilə yanaşır, birqütblü nizama alternativ formalaşdırmağa, özünün böyük güc statusunu isbat etməyə çalışırdı. İkincisi, Rusiya İŞİD-lə yanaşı Azad Suriya Ordusuna qarşı da bombardman həyata keçirirdi ki, bu da Rusiyanın əməliyyatlarının ancaq anti-terror yox, həm də Suriya Prezidenti Bəşər Əsəd hökumətinin dəstəklənməsi xarakterini ortaya qoyurdu. Üçüncüsü isə, Rusiyadan İŞİD-ə qoşulan minlərlə radikal daha sonra Şimali Qafqazda da ekstremizm və terrorizmə rəvac verə bilərdilər. Bu qruplarla Yaxın Şərqdə mübarizə aparmaq, Şimali Qafqazda mübarizə aparmaqdan daha səmərəli görülürdü.

2015-ci il iyulun 22-də ABŞ və Rusiya beynəlxalq təhlükəsizlik kontekstində informasiya və telekommunikasiya sahəsində beynəlxalq normalar haqqında hesabat dərc etdilər [70, 7]. Bununla belə, həmin ildən bəri ABŞ-ın bir neçə qurumu, xüsusən ABŞ ordusunun Birləşmiş Qərargah Rəislərinin e-poçt serverləri və Demokratlar Partiyası Milli Komitəsi öz şəbəkələrinə bir sıra müdaxilələrin qurbanı olub. Belə ki, 2016-cı ilin martında Rusiyanın haker qrupları olduğu güman edilən cinayətkarlar Remote Administration Tools zərərli proqram təminatı ilə haker qruplarına qurbanlarının kompüter şəbəkələrinə uzaqdan daxil olmaq və həssas məlumatlara giriş əldə etmək imkanı verən fişinq e-poçtlarından (bir təşkilat daxilində müəyyən bir şəxsə və ya şöbəyə yönəlmiş e-poçt) istifadə ediblər. CrowdStrike kibertəhlükəsizlik firması iyunda hücum edən qrupların APT297

(Cozy Bear, Dukes və ya CozyDuke kimi də tanınır) və APT288 (Fancy Bear, Sofacy, Sednit, Strontium və ya Pawn Storm kimi də tanınır) olduğu ilə bağlı faktları və dəlilləri irəli sürməklə serverləri sındırmaqda rus hakerlərinin əli olduğundan şübhələnsə də, Kreml kiberhücumlarla hər hansı əlaqəsini inkar edib [70, 10]. İyulun sonunda isə minlərlə oğurlanmış e-poçt Wikileaks və DCleaks vebsaytlarında dərc olundu. Bir neçə gün sonra FTB D.Trampın kampaniyasının əməkdaşları ilə Rusiya arasında mümkün sövdələşmə ilə bağlı araşdırmaya başladı [70, 7].

2015-ci ildə ABŞ kəşfiyyat agentlikləri Rusiyanı dünyanın ən böyük kiber təhdid mənbəyi kimi tanıdılar ki, bu hesabatda daha çox Suriyada yerləşdirilən Amerika qoşunlarının rabitə sistemlərinin pozulmasına istinad edilmişdi. Həmçinin açıqlanıb ki, FTB, Gizli Xidmət və digər ABŞ kəşfiyyat qurumları hücumları ABŞ hökumət sistemlərinə qarşı indiyə qədər edilən ən inkişaf etmiş hücumlar kateqoriyasına ayırıb. İstintaqla bağlı məlumatlandırılmış federal hüquq-mühafizə orqanları, kəşfiyyat və Konqres rəsmiləri Dövlət Departamentinin elektron poçt sisteminə müdaxilənin “ən pis” kiberhücum olduğu mövqeyini paylaşıblar [51]. 2015-ci ilin noyabrında isə, ABŞ və Rusiya xüsusi xidmət orqanları ilə antiterror əməkdaşlığı dayandırdığını elan etdi. Bu fasilə antiterror dialoqu 2019-cu ildə bərpa olunana qədər davam etdi.

2016-cı ilin aprelində ABŞ Kiber Komandanlığının rəhbəri, Milli Təhlükəsizlik Agentliyinin direktoru Maykl Rocers Rusiyanı kiberməkanda əsas təhlükələr siyahısına daxil etdi və hesabatı Rusiyaya qarşı sərt siyasət yürüdən Con Makkeynin sədrlik etdiyi Silahlı Qüvvələr Komitəsinə təqdim etdi. Hesabatda deyilirdİ ki, Rusiya, Çin, İran və Şimali Koreya ilə birlikdə M.Rocers komandasının kiberməkanda fəaliyyətlərini "ən yaxından izlədiyi" ölkələr sırasındadır [171]. İyun ayında ABŞ hökuməti ABŞ Demokratlar Partiyasının Milli Komitəsinin kompüter şəbəkəsinin Cozy Bear və Fancy Bear haker qrupları tərəfindən iki dəfə haker hücumuna məruz qaldığını açıqladı: 2015-ci ilin yayında və 2016-cı ilin aprelində. İyul ayında isə, Federal Təhqiqatlar Bürosu Rusiyanın müdaxiləsi ilə bağlı Crossfire Hurricane təhqiqatını başlatdı, o cümlədən D.Trampın tərəfdaşları ilə Rusiya

rəsmiləri arasında əlaqələrə və Tramp kampaniyası ilə Rusiya hökuməti arasında şübhəli koordinasiyaya xüsusi diqqət yetirildi. Çox maraqlıdır ki, 2016-cı ilin sentyabrında Çində davam edən G20 sammitindən sonra, B.Obama açıqladı ki, V.Putinə xəbərdarlıqdan sonra Rusiya tərəfindən kiberhücumlar dayanıb [69].

2016-cı ilin oktyabrında B.Obama rəsmi olaraq Rusiya hökumətini demokratik prosesin legitimliyinə və bütövlüyünə inamın itirilməsi, eləcə də Demokratlar Partiyasının namizədi H.Klintona olan etibarın itirilməsi məqsədilə Demokratların Milli Komitəsinin şəbəkəsinə kiberhücumun arxasında durmaqda günahlandırdı və noyabrda keçiriləcək prezident seçkilərinə müdaxilə edəcəyi təqdirdə Rusiyaya mümkün cavab tədbirləri barədə xəbərdarlıq etdi [70, 12]. Milli Komitənin oğurlanmış məlumatları və sənədləri daha sonra ABŞ-da prezident seçkiləri zamanı WikiLeaks, The New York Times, DC Leaks, The Washington Post, The Wall Street Journal kimi məşhur internet və media qurumları tərəfindən dərc edilərək ictimaiyyətə açıqlandı. Nəticədə, demokratik prosesə müdaxilə edildi və potensial olaraq Respublikaçı namizəd D.Trampın seçkilərdə qalib gəlməsinə yardım edildi. Noyabrın 25-də, Rusiya hökuməti Rusiyanın bank sistemlərini kiberhücumlarla hədəfə alan planın aşkarlandığını, lakin hücumun heç bir zərər verə bilmədən dayandırıldığını bildirdi və hücumların təşkilində ABŞ hökumətinin ola biləcəyini ehtimal etdi [70, 8].

2016-cı ilin dekabrında iki yüksək rütbəli kəşfiyyat rəsmisi ABŞ-ın bir neçə xəbər agentliyinə 2016-cı il prezident seçkilərinə müdaxilə əməliyyatının şəxsən V.Putin tərəfindən idarə olunduğuna çox əmin olduqlarını bildirdilər. Çünki, belə bir əməliyyat yüksək səviyyəli hökumətin icazəsini tələb edirdi. Dekabrın 11-də senator Makkeyn Rusiyanın seçkiyə müdaxiləsini araşdırmaq üçün ABŞ Senatının xüsusi seçmə komitəsinin yaradılmasını tələb etdi və seçkiyə müdaxiləni "müharibə aktı" adlandırdı [71]. Nəhayət, 2017-ci il yanvarın 6-da, ABŞ Milli Kəşfiyyat Şurası Rusiyanın "ABŞ-da demokratik prosesə ictimai inamı sarsıtmaq" və Demokratlar Partiyasından prezidentliyə namizəd H.Klintonu nüfuzdan salmaq məqsədilə ABŞ-da prezident seçkilərinə müdaxilə etdiyi ilə bağlı hesabatının məxfi olmayan

versiyasını açıqladı [70, 8]. ABŞ kəşfiyyatının məlumatına görə, kiberhücumların arxasında Rusiya Silahlı Qüvvələri Baş Qərargahının Baş Kəşfiyyat İdarəsi dayanırdı. Lakin, hesabatda V.Putinin kiberhücumlarda iştirakına dair inandırıcı sübutlar verilmədi [171]. Yanvarın 26-da isə, Rusiya hakimiyyəti ikisi Federal Təhlükəsizlik Xidmətinin əməkdaşı olmaqla, dörd kibertəhlükəsizlik mütəxəssisini dövlətə xəyanətdə və MKİ ilə əməkdaşlıqda günahlandıraraq həbs etdi. Bu hadisədən üç gün sonra, 17 Amerika kəşfiyyat orqanının Rusiyaya aid olduğu iddia edilən haker hücumlarına dair hesabatının ictimai versiyası dərc olundu [177].

İlin sonunda Rusiya Prezidenti Amerikalı həmkarına zəng edərək, Mərkəzi Kəşfiyyat İdarəsinin Rusiyanın ikinci ən böyük şəhəri olan Sankt-Peterburqda Kazan kilsəsinə terror aktının qarşısını almağa kömək edən kəşfiyyat məlumatlarına görə təşəkkür etdi və Rusiyanın xüsusi xidmət orqanlarının da terror təhdidləri ilə bağlı məlumatları amerikalı həmkarlarına təhvil verəcəyini bildirdi [138]. Bu mübadilə Prezident D.Trampın Vaşinqtonun beynəlxalq terrorizmlə, xüsusən də islami təmayüllü radikal ekstremizmə qarşı mübarizədə Rusiya ilə daha sıx əlaqələr qurması ilə bağlı sələflərinin mövqeyinə uyğun gəlirdi [36]. ABŞ kəşfiyyatı 2019-cu ildə də, Rusiyaya yerli terror hücumlarının qarşısını almağa kömək edən kəşfiyyat məlumatları ötürdü və bu təhlükələri aradan qaldırmağa kömək etdi. Lakin, tərəflər daha çox məlumat paylaşmaqdan çəkindikləri üçün, terrorla mübarizə sahəsi müttəfiqlik səviyyəsində qalmadı [20]. İnformasiya sahəsində əməkdaşlıq və müharibə isə paralel davam edirdi.

2018-ci ilin iyulunda Birləşmiş Ştatların Fövqəladə Hallara Qarşı Kompüter Müdaxilə Qrupu Rusiya hökumətinin kiçik kommersiya obyektlərinin (su obyektləri, elektrik stansiyaları, enerji xətləri) şəbəkələrini hədəfə alan, zərərli proqramlar hazırlayan, fişinq hücumu həyata keçirən və şəbəkələrə uzaqdan giriş əldə edən çoxmərhələli müdaxilə kampaniyası" həyata keçirməsi barədə xəbərdarlıq yayımladı [43]. Növbəti ay isə, Microsoft korporasiyası Rusiya Federasiyasını qarşıdan gələn ABŞ Konqres seçkilərinə müdaxilə etməkdə, ABŞ hökuməti isə rəsmi olaraq elektrik stansiyasına və ABŞ strateji araşdırma və beyin mərkəzlərinə

kiberhücumlarda ittiham etdi. Bundan başqa, ABŞ Milli Təhlükəsizlik Agentliyi nəzdində Rusiya ilə mübarizə aparmaq üçün xüsusi kiber bölmə yaradıldı [171].

2019-2020-ci illərdə Rusiya elektrik şəbəkəsinin ABŞ Kiber Komandanlığı tərəfindən bir sıra ABŞ şəbəkələrinin isə Rusiya Xarici Kəşfiyyat Xidməti tərəfindən hücumlara məruz qaldığı istiqamətində ittihamlar səsləndirildi. 2020-ci il dekabrın 13-də, məlumat verildi ki, 2020-ci ilin martından gec olmayaraq ən azı üç ABŞ firmasının (Microsoft, SolarWinds və Vmware) proqram təminatından istifadə yolu ilə başlayan hücum əvvəlcə yalnız ABŞ Maliyyə Departamentinə və ABŞ Ticarət Departamentinin Milli Telekommunikasiya və İnformasiya Administrasiyasına təsir edib. Sonrakı günlərdə daha çox departament və təşkilat pozuntular barədə informasiya paylaşdı. Dekabrın 18-də ABŞ Dövlət katibi Mayk Pompeo kiberhücuma görə "açıq şəkildə" Rusiyanın məsuliyyətinin olduğunu elan etdi [30]. Rusiya hökuməti ittihamları rədd etdi. 2021-ci ilin fevralında yayılan başqa bir hesabatda Rusiya mənşəli Sandwormun 2017-ci ildən bəri ABŞ-ın elektrik xidmətləri, neft və qaz və digər sənaye firmalarını hədəf aldığını və bu firmaların şəbəkələrini bir neçə dəfə pozmaqda müvəffəqiyyətli olduğunu bildirdi [82]. Xüsusən 2018-ci ildə, ABŞ-ın Texas ştatının Hyuston şəhərindən ABŞ-ın Cənub-Şərq ştatlarına benzin və təyyarə yanacağı nəqli həyata keçirən ən böyük neft boru kəməri xətti olan USA Colonial Pipeline şəbəkəsinə DarkSide kod adlı rus kiber qrupu tərəfindən ransomware hücumu bu istiqamətdə qazanılmış ən böyük uğurlardan biridir [85].

26 iyun 2020-ci ildə, ABŞ kəşfiyyat qurumları Rusiya hərbi kəşfiyyatının 2019-cu ildə Əfqanıstanda ABŞ və koalisiya qüvvələrinə mənsub əsgərləri öldürməsi üçün Talibana bağlı yaraqlılara mükafat təklif etməsi iddialarını və bunun bir neçə ABŞ əsgərinin öldürülməsi ilə nəticələndiyini səsləndirdi. V.Putinin sözçüsü Dmitri Peskov, Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev və Rusiyanın Əfqanıstandakı nümayəndəsi Zamir Kabulov vasitəsilə təkzib verərək mükafat proqramının mövcudluğunu inkar etdi [81]. Bundan başqa, Pentaqon və ABŞ Prezidenti D.Tramp da bu məlumatı yalanladı.

2021-ci ilin martında Bayden administrasiyası haker hücumu ilə bağlı artan narahatlığını ifadə etdi və Ağ Evin mətbuat katibi Cen Psaki bunu “aktiv təhlükə” adlandırdı. Aprelin 15-də Prezident C.Bayden SolarWinds proqram təminatı ilə 2020-ci ildə ABŞ seçkilərinə müdaxiləsində rol oynadıqlarına görə bir sıra özəl sektor kibertəhlükəsizlik firmalarına, kiber əməliyyatları dəstəkləyən 6 rus şirkətinə, 32 fiziki və hüquqi şəxsə qarşı sanksiyaları açıqladı və on rus diplomatının ölkədən çıxarılmasına göstəriş verdi [9]. Lakin, bu tədbirlər kiberhücumların qarşısını ala bilmədi. Belə ki, mayın 7-də, USA Colonial Pipeline xətti ikinci dəfə və ən böyük ət istehsalçısı şirkətlərini idarə edən proqram təminatına ziyan vuran böyük ransomware kiberhücumuna məruz qaldı. Neft boru şəbəkəsinə hücumun dayandırılması üçün FTB tərəfindən 4.4 mln. dollar dəyərində fidyə Rusiyada yerləşdiyi iddia edilən DarkSide haker qrupuna ödənildi. Bu hadisə, ictimaiyyətin geniş müzakirəsinə və narazılığına yol açdı. Kreml DarkSide və ya REvil kimi kibercinayətkar dəstələrlə hər hansı əlaqəni inkar etməyə davam etsə də, onlara təhlükəsizlik təminatı verməkdə ittiham olunur [55].

Burada terrorçu hərəkatların kim olması da mühüm əhəmiyyət kəsb edir. ABŞ və Rusiya Əl Qaidə, Misir İslam Cihadı, əl-Cəmaə əl-İslamiyyə, Ləşkəri-Taibə, Özbəkistan/Türkistan İslam Hərəkatı, Qafqaz Əmirliyi, İraq və Şam İslam Dövləti, Aum Şinrikyo kimi qruplaşmaları terror təşkilatı kimi tanısa da, bəzi terror təşkilatları ilə bağlı isə ciddi fikir ayrılıqları və bir-birinə zidd mövqelər vardır. Məsələn, ABŞ Əbu Nidal, Ənsarül-İslam, Həmas, Hizbullah, Kürdüstan Fəhlə Partiyası, Tamil Eelamın Azadlıq Pələngləri, Fələstin Azadlıq Cəbhəsi, Rusiya isə İçkeriya və Dağıstan Xalqlarının Konqresi, Müsəlman Qardaşlar, Hizb-ut-Təhrir əl-İslami, Taliban, Əl-Nusra Cəbhəsi, Heyət Təhrir əş-Şam kimi hərəkatları terror siyahısına daxil etsə də, qarşı tərəf adekvat addım atmamışdır. Rusiyanın ifrat sağçı qrupu “Rusiya İmperator Hərəkatı” ABŞ tərəfindən ilk dəfə 2020-ci ilin aprelində xarici terror təşkilatı olaraq adlandırılmışdır [128].

Ümumilikdə, XXI əsr həm ABŞ, həm də Rusiya üçün çoxsaylı faciəli terror hücumlarına şahidlik edib. ABŞ və Rusiya daxilində baş verən terror aktları hər iki

ölkənin xalqlarını sarsıtmış və müasir dövrdə terrorizmi ən böyük təhlükələrdən biri kimi təsdiq etmişdir. Həm terrorizm, həm də çağdaş qlobal problemlərdən biri olan kibermüharibə hər iki ölkənin təhlükəsizliyini təhdid edən amil olaraq qalsa da, bununla belə aydın olur ki, Rusiya ilə ABŞ arasında həm terrorizmlə mübarizə, həm də informasiya təhlükəsizliyi sahəsində fikir ayrılıqları uzunmüddətli və obyektiv xarakter daşıyır.

### 2.3. Gürcüstan, Suriya və Ukrayna böhranı: ABŞ-Rusiya münasibətləri

XXI əsrdə Ukrayna, Gürcüstan və Suriyada gedən proseslər ABŞ-Rusiya münasibətlərinə ən çox təsir göstərən aktual problem olaraq qalmaqdadır. Xüsusən, əsrin ilk illərində ABŞ keçmiş Sovet respublikalarında mövqeyini möhkəmləndirməyə çalışırdı və C.Buş hökuməti xüsusən Ukrayna və Gürcüstana ayrıca diqqət yetirirdi. ABŞ-ın marağı bu dövlətlərin Avro-Atlantik intqerasiyaya qoşulması idi. 2003-cü ilin sonunda Gürcüstanda "Qızılgül inqilabı", 2004-cü ilin noyabr-dekabr aylarında isə Ukraynada "Narıncı inqilab"-dan sonra Rusiya ABŞ-ın anti-Rusiya nümayişlərini təşviq etməkdə günahlandırmış və bu hadisələri Rusiyanın tarixi maraq zonasına müdaxilə kimi qiymətləndirmişdi. 2005-ci ilin 22 fevralında Ukrayna Prezidenti V.Yuşenko NATO-nun Brüssel sammitində ölkəsinin Alyansa daxil olmaq arzusunda olduğunu elan etdikdən sonra, 2006-cı il iyunun 6-da, Rusiyanın Xarici İşlər naziri S.Lavrov parlamentin aşağı palatası olan Dövlət Dumasında çıxışı zamanı Gürcüstana və Ukraynaya NATO-ya üzvlüklə bağlı təhdidedici xəbərdarlıq etmişdi [150].

2008-2010-cu illərdə NATO Gürcüstan və Ukrayna da daxil olmaqla postsovet ərazisində formalaşmış suveren dövlətləri sıralarına daxil etməklə genişlənmənin növbəti mərhələsini həyata keçirmək niyyətində idi. V.Putin başda olmaqla, Rusiyanın xarici siyasi elitası isə bunu Rusiya üçün təhdid olaraq görürdü. Lakin, bunu diqqətə almayan ABŞ və Avropa İttifaqı 2008-ci ildə "Şərq tərəfdaşlığı" proqramını həyata keçirməyə başlamış, 2008-ci ilin dekabrın 19-da Vaşinqtonda "Ukrayna ilə ABŞ arasında strateji tərəfdaşlıq haqqında xartiya" imzalanmışdı.

Bununla belə, ABŞ administrasiyası Ukrayna və Gürcüstanın NATO-ya daxil olmasına tələsmirdi [150].

2008-ci il avqustun 7-də Gürcüstanın Cənubi Osetiyanı nəzarət altına almaq üçün hərbi güc tətbiqi qərarı və separatçı bölgələrdə aparılan əməliyyatlarda Gürcüstan ordusunun böyük müvəfəqiyyətlər qazanması ilə Rusiya rəhbərliyi avqustun 8-də Gürcüstanı "Cənubi Osetiyaya qarşı təcavüzdə" ittiham etdi və qondarma qurumların vətəndaşlarının böyük əksəriyyətinin Rusiya vətəndaşlığında olduğunu bəhanə gətirərək, Gürcüstanı sülhə məcbur etmək üçün "sülhün mühafizəsi" əməliyyatı adı altında qurudan, havadan və dənizdən genişmiqyaslı hərbi müdaxiləyə başladı. Rusiya Qara Dəniz Donanmasının gəmiləri isə Gürcüstanın Qara dəniz sahil zolağının bir hissəsini mühasirəyə alaraq, Poti limanına giriş yollarını bağladı. Növbəti beş gün ərzində, Cənubi Osetiyanın bütün ərazisindən gürcü qoşunları çıxarıldı, tezliklə hərbi əməliyyatlar Cənubi Osetiyanın sərhədlərini aşaraq Gürcüstan ərazisinin böyük bir hissəsini əhatə etdi [5, 151]. Rusiyanın "Cənubi Osetin xalqının soyqırımı" iddiasını müdafiə etməyən ABŞ isə Moskva qarşısında Gürcüstan üzərinə hava və raket hücumunu dayandırmaq, bu ölkənin ərazi bütövlüyünə hörmət etmək və qoşunlarını oradan çıxarmaq tələblərini qoymuşdu. Avqustun 11-də ABŞ Prezidenti qeyd etdi ki, "Rusiya suveren qonşu dövlətə təcavüz edir və onun xalqı tərəfindən seçilmiş demokratik hökuməti təhdid edir. Zorbalıq və hədə-qorxu XXI əsrdə xarici siyasət aparmaq üçün məqbul üsul deyil. XXI əsrdə belə bir hərəkət yolverilməzdir." [51].

Beləliklə, 8-12 avqust müharibəsi ABŞ-la Rusiya arasında münasibətlərin pisləşməsinə səbəb oldu. Gürcüstanla bağlı yaranmış gərginliyə cavab olaraq, ABŞ NATO-Rusiya birgə hərbi təlimlərini ləğv etdi, Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü müdafiə etdi, hərbi gəmilərini Qara dənizə göndərdi və beləliklə, Qara dənizdə birbaşa toqquşma ehtimalı yarandı. Rusiya Prezidenti D.Medvedevin 2008-ci il avqustun 26-da bu regionların rəsmən müstəqil dövlət kimi tanınması haqqında fərmanı ABŞ hökuməti tərəfindən pisləndi. ABŞ həm də, "Qafqaz böhranı"-ndan

müəyyən nəticələr də çıxardı ki, bu özünü B.Obamanın prezidentliyi dövründə "sıfırlama" siyasətində göstərdi [1, 95].

Bu dövrdə Rusiyanın postsovet regionundan kənarda ən mühüm maraq zonası Yaxın Şərq idi. Suriya və onun yerləşdiyi Yaxın Şərq regionu strateji və coğrafi mövqeyi, təbii ehtiyatları ilə həm ABŞ, həm də Rusiya üçün hər zaman vacibliyini qoruyub saxlamaqda idi. 2011-ci ilin martın 15-də Suriyada dinc etiraz aksiyalarının və nümayişlərin, daha sonra vətəndaş qarşıdurmasının, martın 18-də isə Deraa şəhərində başlayan üsyanın aprel ayında vətəndaş müharibəsinə çevrildiyi andan etibarən, Rusiya Federasiyası Bəşər Əsəd hökumətinə hərbi, maliyyə və diplomatik dəstək vermişdir. ABŞ isə bu dövrdə Suriya hökumətinin istefasını tələb edərək, Suriya müxalifət qruplarının mövqeyini paylaşanda, İngiltərə və Fransa ilə birlikdə Suriyaya hərbi müdaxilə üçün hazırlıq işlərinə başlayanda tərəflərin maraqlarındakı ziddiyyətlər aşkar oldu. 2012-ci il 18-19 iyun tarixlərində B.Obama və V.Putin, Meksikanın Los Cabos şəhərində keçirilən G-20 toplantısında Suriyadakı vətəndaş müharibəsinə son qoyulmasını tələb etdilər [150].

Yaxın Şərqdə davam edən belə bir şəraitdə, ABŞ-Rusiya rəqabəti Ukraynada yenidən canlandı. Kiyevin Rusiya ilə qismən yaxınlaşmağa başlaması və Aİ ilə "Tərəfdaşlıq Sazişi"-ni imzalamaqdan imtina etdiyini açıqlaması ilə ölkənin qərbində tələbə və ziyalıların fəal etirazları (Avromaydan) başlanmış və nümayişlərdə Rusiya əleyhinə şüarlar səsləndirilmişdi [5, 339]. Kiyevdə olan hökumət böhranının ardınca Krım bölgəsində də (Krım Muxtar Respublikasında) Rusiya tərəfindən dəstəklənən böyük miqyaslı etiraz aksiyaları keçirilməyə başlandı. Bu proseslərin təsiri altında, 6 mart 2014-cü ildə, KMR Ali Şurası, Rusiya Federasiyasına birləşmə və ya Ukrayna daxilində muxtariyyət səlahiyyətlərinin genişləndirilməsi ilə bağlı referendum keçirmək qərarına gələndə, [5, 344] Birləşmiş Ştatlar, Rusiyanın Krımdakı hərəkətləri ilə bağlı qətnamə layihəsini müzakirə etmək üçün, BMT TŞ-ın iclasının çağırılmasına təşəbbüs göstərdi, lakin Rusiya Federasiyası nümayəndəsi təklifə veto qoydu [5, 345].

16 martda Krım yarımadasında keçirilən referendumda Rusiyaya birləşmək qərarı verildi və iki gündən sonra, Moskvada Rusiya Federasiyası ilə Krım Respublikası arasında birləşmə sazişi imzalandı [3, 345]. Krımın Rusiya Federasiyası tərəfindən ilhaqı ilə ABŞ bir sıra Rusiya məmurlarına məxsus bank hesablarının dondurulmasına, əmlakına həbs qoyulması və ölkəyə giriş vizalarına qadağalar tətbiq etdi. Moskva da cavab tədbirləri kimi, Rusiya XİN, ABŞ Konqresinin doqquz məmur və üzvlərinə qarşı sanksiyalar siyahısını dərc etdi [114]. Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının sərt tədbirləri böhranı daha da dərinləşdirdi və apreldə, Donbasda inzibati binalara nəzarəti ələ keçirmək və bütün ölkə ərazisində hakimiyyəti bərpa etmək üçün Ukrayna qüvvələri genişmiqyaslı hərbi əməliyyatlara başladı. Əməliyyatların gedişində, Donetsk və Luqansk Xalq Respublikasının yaradıldığı elan olundu [5, 347].

17 aprel 2014-cü ildə, Cenevrədə Xarici İşlər naziri S.Lavrov, Dövlət katibi C.Kerri və Ukrayna Xarici İşlər naziri vəzifəsini icra edən A.Deşitsa Ukraynadakı vəziyyətin tənzilməsi ilə bağlı Bəyanat imzaladılar. Sənəd qanunsuz silahlı dəstələrin tərksilah edilməsi, ələ keçirilən inzibati binaların, küçələrin, meydanların və digər ictimai yerlərin azad edilməsi və ağır cinayətlərdə təqsirli bilinənlər istisna olmaqla, aksiya iştirakçılarına, binaları və digər ictimai yerləri boşaldan və könüllü surətdə silahı yerə qoyan şəxslərə ümumi əfv tətbiqini nəzərdə tuturdu. ABŞ, Aİ və Rusiyadan olan müşahidəçilərin iştirakı ilə ATƏT-in Xüsusi Monitorinq Missiyası yaradılmalı və Ukraynanın bütün regionlarının və siyasi qüvvələrinin maraqlarını nəzərə alan geniş milli dialoqun dərhal başlanması ilə hərtərəfli, şəffaf və məsuliyyətli konstitusiya prosesinin həyata keçirilməsi də nəzərdə tutulmuşdu. Ancaq, razılaşma yerinə yetirilmədi (Xüsusi Monitorinq Missiyasının yaradılması istisna olmaqla) [169]. Aprel-may aylarında Amerika administrasiyası Krımın Rusiyaya birləşdirilməsi ilə əlaqədar Rusiyanı beynəlxalq səviyyədə təcrid etməyə yönəlmiş növbəti sanksiyaların tətbiqi təşəbbüsü ilə çıxış etdi və Rusiya Federasiyasının yeddi dövlət məmuruna və Rusiya iqtisadiyyatının əsas sektorlarına qarşı sanksiyalar qüvvəyə mindi. Rusiya bu sanksiyaların 1980-ci illərin Soyuq

Müharibə dövrünə düşən ikitərəfli əlaqələrə ciddi zərər verəcəyini bildirdi və öz növbəsində, Ukraynaya təzyiq göstərmək üçün əks iqtisadi tədbirlər hazırladı. İyul ayının sonunda, Rusiyaya qarşı sanksiyaların üçüncü mərhələsi qəbul edildi [3, 381]. 2015-ci ilin fevralın 12-də Ukraynada münaqişəyə son qoymağın prinsiplərini müəyyən edən Minsk 2 sazişi imzalandı və ABŞ və Rusiya rəsmiləri müharibəni dayandırmaq üçün yeni razılaşmanı alqışladılar [150].

Ukraynada bu hadisələr baş verərkən, həm Suriya, həm də İraq sərhədlərində İŞİD terror təşkilatının güclənməsi ABŞ və Rusiyanın bölgədə fəallığını artırdı. 2014-cü ilin iyununda İŞİD birləşmələrinin hücuma keçməsi və bir neçə həftə ərzində nəzarət məkanını (Mosul şəhəri və ətraf ərazilər hesabına) genişləndirməsi, ABŞ-da kəskin narazılıqlar və mənfi münasibət doğurdu. Avqust ayından etibarən Amerika təyyarələri İŞİD mövqelərinə hava bombardımanına başlayanda, Rusiya bu hava hücumlarının BMT nizamnaməsinə zidd olduğunu iddia etdi [5, 286]. Lakin, Suriya hökumət qüvvələrinin ardıcıl məğlubiyyətləri və əhəmiyyətli ərazi itkiləri, İŞİD təşkilatının böyüməsi ilə Rusiya Federasiyası da 2015-ci ildə hava zərbələri ilə Suriyada birbaşa müdaxiləyə və İŞİD-ə qarşı hərbi əməliyyatlara başladı [5, 286]. Rusiya tərəfindən bu cür qərarın verilməsinin bir neçə mümkün səbəbi ola bilərdi:

- Hafiz Əsəd hakimiyyəti dövründə Moskva ilə olan əlaqələrə xüsusi diqqət yetirmiş, Rusiya ilə güclü siyasi, iqtisadi və mədəni əlaqələr yaratmışdı. Rusiya hərbi dəniz qüvvələri Suriyanın Tartus limanından istifadə hüququna malik idi, bir çox Bəəs rəsmiləri və yüksək vəzifəli hökumət rəsmiləri Rusiyada təhsil almışdı. B.Əsədin devrilməsi Rusiyanın Yaxın Şərqdəki əsas tərəfdaşının itirilməsi demək olardı ki, bu da Rusiyanın regionda təsirini gücləndirmək qabiliyyətini 2003-cü ildə İraq və 2011-ci ildə Liviyadan sonra bir daha sarsıdacaqdı;
- Suriya hökumətinin məğlubiyyəti İŞİD terror birləşməsi də daxil olmaqla, radikal dini ekstremistləri cəsarətləndirə bilərdi ki, Rusiya bu prosesin daha sonra öz ərazilərinə (xüsusən Şimali Qafqaz bölgəsinə) və qonşu Orta Asiyada respublikalarına sıçrayacağından qorxurdu;

- Rusiya səlahiyyətliləri həmçinin Suriyaya müdaxiləni Ukrayna böhranı fonunda ağır beynəlxalq tənqid və sanksiyalarla üzləşdikdən sonra Rusiyanın qlobal təsirini bərpa etmək üçün bir yol kimi qiymətləndirmiş ola bilərdi;
- Suriyaya müdaxilə etməklə, Moskva hərbi gücünü, mövcud və yeni imkanları sınaqdan keçirmək və Rusiyanı əsas diplomatik oyunçuya çevirmək qabiliyyətini nümayiş etdirməyi hədəfləyirdi;
- Bir sıra rus siyasətçilərinə və təhlilçilərinə görə, Ərəb baharının son hədəfi İran idi ki, bu isə birbaşa Rusiya ilə Çinə ciddi bir zərbə vurmaq mənasını verməkdə idi. Bu baxımdan onlar Suriyanı İranın və Rusiyanın Qərb təsirindən qorunması üçün sədd rolu oynadığına inanırdılar.

Beləliklə, Rusiya hakimiyyəti Suriyada da ABŞ-la uzunmüddətli rəqabətə daxil oldu və Dəməşqlə Tartus hərbi dəniz obyektində və Lattakiyadakı Hmeymim aviabazasında hərbi mövcudluğunu saxlamaq üçün müqavilələr bağladı, yeni 5-ci hücum korpusunun yaradılması da daxil olmaqla, Suriya silahlı qüvvələrini modernləşdirməyə yardım göstərdi, Rusiya Hərbi Dəniz Qüvvələrinin Aralıq dənizi eskadrilyasını yenidən quraraq bölgədəki gücünü daha da gücləndirdi [17, 24]. .Rusiyanın hərbi müdaxiləsi terrorizmlə mübarizədə əməkdaşlıq kimi təqdim olunurdu. Lakin, problem burada idi ki, Suriyanın müxtəlif bölgələrində bütün silahlı müxalif qruplar Rusiya Federasiyası tərəfindən terrorçu kimi tanınırdı [5, 294].

Dekabrın 11-də ABŞ, Rusiya Cenevrə şəhərində üçtərəfli danışıqlara başladı. Ayın 18-də, tərəflər Vyanada Suriya vətəndaş müharibəsinə son qoymaq və Suriyada yeni hökumətin qurulmasını təmin etmək məqsədilə həll yolu axtarmaq üçün beynəlxalq səyləri dəstəkləyən qətnaməni təsdiqlədilər [5, 296]. Vyanada keçirilən Suriya sülh danışıqlarının iki mərhələsi ABŞ və Rusiya arasında Suriya nizamlanmasına dair, ilk növbədə, Bəşər Əsədin siyasi gələcəyi məsələsində dərin fikir ayrılığını bir daha ortaya qoydu.

2016-cı il fevralın 26-da, Rusiya ilə ABŞ-ın nəzarəti altında, Suriyada B.Əsəd hökuməti ilə mülayim Suriya müxalifəti arasında barışıq qüvvəyə mindi. Lakin, İŞİD və Cəbhət ən-Nusra birləşmələrinə qarşı mübarizə isə davam edirdi [5, 296]. Sentyabrda, ABŞ Dövlət katibi C.Kerri və Rusiya Xarici İşlər naziri S.Lavrov Cenevrədə, “Suriyaya aid Birgə Sülh Plan”-ını təqdim etdilər. Bu plan, 48 saat ərzində atəşkəsin təmin edilməsini, əməliyyatların koordinasiyasını, bir sıra yaşayış məntəqələrindən ağır zirehli maşın və artilleriyanın çıxarılmasını, “mülayim müxalifətin” radikallardan – İŞİD və Cəbhət ən-Nusradan ayırlmasını nəzərdə tutmuşdu [5, 297]. Ancaq, razılaşma tezliklə pozuldu.

2017-ci ilin aprelində, ABŞ Prezidenti D.Trampın əmrilə Aralıq dənizində yerləşən Amerika hərbi gəmiləri, Suriyanın Homs şəhərindən 40 km məsafədə olan Əl-Şeyrat aviabazasına kütləvi və ardıcıl Tomaqavk qanadlı raket zərbələri endirdi [5, 287]. Rusiya Baş naziri D.Medvedev, “suveren bir dövlətə təcavüz aktı” kimi bu hücumların Rusiya-Amerika münasibətlərini əhəmiyyətli dərəcədə pozacağını və ABŞ-ı Rusiya ilə müharibənin başlanğıcına gətirdiyini söylədi [159]. İlin sonunda Rusiya tərəfindən təklif edilən Soçidə Milli Dialoq Forumunun keçirilməsi ideyasına ABŞ administrasiyası mənfi reaksiya verdi. Beləliklə, Suriya ilə bağlı paralel hərbi əməliyyatlar aparıldığı kimi, danışıqlar da ayrıca aparılmağa başlandı [5, 310].

2017-ci ilin yanvarında, ABŞ-da D.Tramp administrasiyası hakimiyyətə gəldikdən sonra, ABŞ Ukrayna münaqişəsi ilə bağlı danışıqların birbaşa iştirakçısına çevrildi və Aİ-Rusiya danışıqları, Amerika-Rusiya danışıqları ilə əvəz olundu [5, 353]. Avqust ayında D.Tramp Konqres tərəfindən səs çoxluğu ilə qəbul edilən və Ukraynadakı hərəkətlərinə və seçkilərə müdaxilə etdiyi iddiasına görə Rusiyaya qarşı yeni sanksiyalar tətbiq edən qanun layihəsini imzaladı. ABŞ-ın Rusiyadakı diplomatik işçilərinin 755 əməkdaşı ixtisar olundu, Rusiyanın San Fransiskoda diplomatik qərargahı bağlandı [150]. Lakin, D.Trampın Ukrayna ilə bağlı birmənalı olmayan mövqeyi və Rusiyaya qarşı tətbiq olunan sanksiyalara qarşı qərarsızlıq nümayiş etdirməsi beynəlxalq ictimaiyyətin narahatlığına səbəb olmuşdu. Bu narahatlığı ortadan qaldırmaq üçün, 2017-ci ildə Konqresdə Respublikaçı və

Demokratlar Ukrayna ilə əlaqəli Rusiyaya qarşı tətbiq olunan sanksiyaların yalnız Konqresin təsdiqlənməsi ilə ləğv edilə biləcəyini nəzərdə tutan Amerikanın Düşmənlərinə Qarşı Sanksiyalar Qanunu (CAATSA) qəbul etdilər. Qanunda əlavə sanksiyaların tətbiqi də nəzərdə tutulmuşdu. 2018-ci ilin yanvarında ABŞ Xəzinədarlığı gələcəkdə sanksiyalara cəlb oluna biləcək V.Putinə yaxın olduğu iddia edilən 210 nəfərin siyahısını dərc etdi. Siyahıya Rusiya Nazirlər Kabinetinin və Prezident administrasiyasının bütün üzvləri, digər yüksək vəzifəli məmurlar, dövlət firmalarının rəhbərləri və Rusiyanın 96 ən varlı iş adamı daxil idi [150].

Hər iki tərəf, 26 yanvar 2018-ci ildə, Dubayda baş tutan görüşdə ilk olaraq, Minsk razılaşmalarının iki mərhələyə bölünməsi barədə razılığa gəldilər: əvvəlcə sülhməramlıların təmas nöqtələrində yerləşdirilməsi, daha sonra onların “xalq respublikaları”-nın ərazisinə mərhələli şəkildə daxil olması. Ancaq, Dubay razılaşması da baş tutmadı [5, 354]. 2018-ci il fevralın 7-dən 8-ə keçən ABŞ-ın rəhbərlik etdiyi koalisiyanın, Deyr əz-Zor əyalətinin şərqindəki Haşam və Əl-Tabiyə şəhərləri yaxınlığında Suriya hökumətyönlü qruplaşmaya kütləvi hava və artilleriya zərbələri endirməsindən sonra ölənlər arasında Suriya rejimini dəstəkləyən qüvvələrlə yanaşı, Rusiya əsgərlərinin də həlak olması xəbəri Rusiyada siyasi qalmaqala səbəb oldu və media tərəfindən "Soyuq Müharibədən sonra Rusiya və ABŞ vətəndaşları arasında ilk ölümcül toqquşma" kimi qiymətləndirildi [147].

Aprelin 7-də, Suriyanın bir neçə qeyri-hökumət təşkilatı və KİV tərəfindən Suriya hökumət qüvvələrinin Duma (Şərqi Quta) şəhərinə kimyəvi hücumun edildiyi barədə yayılan xəbərlərdən sonra daha bir böyük miqyaslı böhran meydana gəldi. ABŞ B.Əsəd hökumətini bu hücumda ittiham etdi. Dəməşq və Moskva bu iddiaları rədd edərək, yayımlanan videoları səhnələşdirilmiş və saxta sübut olaraq qiymətləndirdi və təkzib etdi [108]. Sentyabrın əvvəlində ABŞ Suriya ordusunun və hökumətyönlü birləşmələrin Suriyada hökumət əleyhinə silahlı qrupların sonuncu böyük anklavı olan İdlib vilayətində genişmiqyaslı hücuma hazırlanması ilə əlaqədar Rusiyanı Suriya hakimiyyətinin planlarını dəstəkləməkdən imtina etməyə çağırdı, çünki Amerika administrasiyasının fikrincə bu, humanitar fəlakətə səbəb ola bilərdi.

Rusiya hakimiyyəti isə öz növbəsində İdlibdəki silahlı müxalifəti terrorçulardan ayırmaq və dinc əhali üçün riskləri minimuma endirməklə sonunculara qarşı əməliyyat təşkil etmək zərurətində təkid etdi. Rusiya hakimiyyətinin fikrincə, məhz İdlibdə yaraqlılar təxribat hazırlayırdılar və onlar mərhələli kimyəvi hücum təşkil etmək niyyətində idilər və bundan Qərb ölkələri Suriyaya zərbə endirmək üçün istifadə edə bilərdilər. Bu xəbərlər fonunda Suriyanın Aralıq dənizi sahillərində vəziyyət daha da pisləşdi [175]. Sentyabrda ABŞ Xəzinədarlığı Rusiyanın Suriyadakı aerokosmik qüvvələri üçün yanacaq tədarükü ilə bağlı Rusiyanın hüquqi və fiziki şəxsləri, habelə Rusiya gəmilərinə qarşı sanksiyalar elan etdi [187].

Oktyabrda, D.Tramp ABŞ qoşunlarının əksəriyyətini Suriyadan çıxarması ilə Rusiya Xarici İşlər Nazirliyi D.Trampın qərarını dəstəkləyərək, bunun Suriyada “siyasi nizamlanma üçün real perspektivlər” yaratdığını bildirdi [17, 25]. 2019-cu ilin oktyabrında ABŞ-ın Suriyanın şimal-qərbində keçirdiyi xüsusi əməliyyatlar zamanı İŞİD lideri Əbu Bəkr əl-Bağdadinin öldürülməsi təsdiq olunduqdan sonra, prezident D.Tramp Rusiya hökumətinə əməkdaşlığa və yardımlara görə təşəkkür etdi. Lakin, Rusiya Müdafiə Nazirliyinin sözçüsü general-mayor İqor Konaşenkov bu xəbərə skeptisizmlə reaksiya verərək açıqlamasında "ABŞ-ın İdlibin deeskalasiya zonasının Türkiyənin nəzarətində olan hissəsində İŞİD lideri Əbu Bəkr əl-Bağdadinin növbəti dəfə “məhv edilməsi” əməliyyatı ilə bağlı etibarlı məlumatı olmadığını" elan etdi və bu əməliyyatın müvəffəqiyyəti ilə bağlı "qanuni suallar və şübhələr" doğuran "ziddiyyətli detallar" olduğunu söylədi [161]. Rusiyanın bu mövqeyi onunla izah olunurdu ki, Rusiya və Amerika prezidentlərinin hər biri müxtəlif vaxtlarda İŞİD-in, eyni zamanda məhv edildiyini və bu nəticəyə nail olmaqda ən çox töhfə verənin öz orduları olduğunu irəli sürürdülər. Bu onunla əsaslandırılırdı ki, ABŞ-ın rəhbərlik etdiyi qüvvələr İŞİD-i Rusiyadan daha çox əsas şəhərlərdən və ərazilərdən sıxışdırıb çıxarmışdı; Rusiya 2015-ci ilin sentyabrında Suriyada hava bombardımanına başlasa da, İŞİD-ə qarşı kampaniyalar yalnız 2017-ci ildə ciddiləşmişdi, o zaman ki, qrup artıq ciddi şəkildə zəifləmişdi və qüvvələrini ABŞ-ın dəstəklədiyi döyüşlərə cəmləşdirmək məcburiyyətində qalmışdı. Beləliklə,

ABŞ-ın mövqeyinə görə Moskvanın əsas məqsədi İŞİD-ə qarşı mübarizə aparmaq olmamışdı, əskinə 2015-ci ilin payızına qədər ölkənin 70 faizinə nəzarəti itirmiş prezident B.Əsəd rejiminə qarşı silahlı müxalifəti yatırtmaq idi. Rusiyanın İŞİD-in hərbi geri çəkilməsinə verdiyi töhfənin ABŞ-dan daha kiçik olmasının əsas səbəbi, yuxarıda qeyd edildiyi kimi, Moskvanın əsas məqsədinin Suriya hökumətini ölkəni nəzarətində saxlamasına birbaşa meydan oxuyan üsyançı qruplara qarşı dəstəkləməsi idi. 2020-ci ilin yanvarında İranlı general-mayor Qasım Süleymaninin Amerikanın pilotsuz təyyarəsinin zərbəsi ilə öldürülməsindən sonra Rusiya Xarici İşlər Nazirliyi bu hərəkəti “bölgədə gərginliyin artmasına səbəb ola biləcək ehtiyatsız addım” kimi pislədi [150].

2021-ci il martın əvvəllərindən Donbas bölgəsində Ukrayna ordusu ilə “Donetsk Xalq Respublikası” və “Luqansk Xalq Repsublikası”nın silahlı birləşmələri arasında şiddətli mövqe döyüşləri və toqquşmaların ardınca dekabrın 1-də V.Putin qərbə Ukraynada Moskvanın “qırmızı xətlərini” keçməmək barədə xəbərdarlıq etdi [150]. Aprelin 13-də isə C.Bayden Rusiya Prezidenti V.Putinlə telefon danışığında ABŞ-ın Rusiyanın Krımda və Ukrayna sərhədlərində qəfil ordu toplanması ilə bağlı narahatlığını dilə gətirdi, həmçinin Ukraynanın suverenliyi və ərazi bütövlüyünə sarsılmaz sadiqliyini vurğuladı [103]. Növbəti ilin ilk ayında, C.Bayden Rusiyanın Ukraynanı işğal edəcəyinə inandığını söylədi. Yanvarın 22-də isə, Dövlət Departamenti Rusiya-Ukrayna sərhədində davam edən gərginliyə istinad edərək, ABŞ vətəndaşlarına Ukraynaya və ya Rusiyaya səfər etməməyi tövsiyə etdi, növbəti ay C.Bayden də eyni çağırışı etdi [161].

Fevralın ortalarında, münaqişənin şiddətlənməsi və Rusiya hökumətinin, DXR və LXR-i təkcə onların faktiki nəzarətində olan ərazilərində deyil, Ukraynanın hər bir vilayətində müstəqil dövlətlər kimi rəsmən tanıması ilə etdiyi çıxışda ABŞ Prezidenti C.Bayden V.E.B. (Vnesheconombank) də daxil olmaqla dörd Rusiya bankına, həmçinin Putinə yaxın olan milyarderlərə qarşı ilkin sanksiyalar elan etdi [104]. Ayın 24-də Rusiya Prezidenti V.Putin sərhəddə cəmləşmiş Rusiya silahlı qüvvələrinin Ukraynanı "demilitarizasiya və denasifikasiya etmək" üçün Ukraynada

"xüsusi hərbi əməliyyat" göstərişi verdikdən və paytaxt Kiyev də daxil olmaqla, Ukraynanın hər tərəfinə raket-hava zərbələri endirilməsi ilə başlayan müdaxilədən sonra, Prezident Co Bayden Rusiyanın işğalını "təxribat" olaraq pisləyən bir bəyanat verdi və V.Putini "fəlakətli həyat itkisi və insan iztirabları gətirəcək əvvəlcədən düşünülmüş müharibəyə başlamaqda" günahlandırdı, [83] martın 4-də isə ABŞ-ın Ukraynadakı səfirliyi Rusiyanın Ukraynanın Avropadakı ən böyük nüvə obyektini ələ keçirməsindən sonra atom elektrik stansiyasına zərbə vurmağın müharibə cinayəti olduğunu bəyan etdi [146].

Prezident C.Bayden aprelin 12-də jurnalistlərə verdiyi müsahibədə Rusiyanın Ukraynadakı hərəkətlərini "soyqırım" və "vəhşilik" adlandırdığına işarə edərək, sülh danışıqlarının "dalan nöqtəyə" çatdığını, Rusiyanın "vəhşiliklərinə" qarşı sübutların artdığını və V.Putinin fikrincə müharibənin Moskvanın məqsədlərinə çatana qədər davam edəcəyini söylədi: "Rusiya Prezidenti Vladimir Putin Ukrayna vətəndaşlığı anlayışını kökündən silmək istəyir. Putin uzun müddətdir ki, Ukraynanın 1991-ci ildə Sovet İttifaqının parçalanması ilə müstəqillik əldə etməsindən narazıdır." [150].

Nəticə olaraq, beynəlxalq səviyyədə təcavüz aktı hesab edilən işğal İkinci Dünya Müharibəsindən sonra Avropanın ən böyük qaçqın böhranına səbəb olub, 4,5 mln-dan çox ukraynalı və əhalinin dörddə biri ölkəni tərk edib. Bu müharibə həmçinin, ABŞ-Rusiya münasibətlərini donma mərhələsinə gətirib, qarşılıqlı təhdidlər və sanksiyalar faydalı əməkdaşlıq ümidlərini azaldıb. ABŞ rəsmilərinin sözlərinə görə, Rusiyanın Ukraynaya hərbi müdaxiləsində şəhər döyüşlərində Suriyadan gətirilən muzdulular da cəlb edilib. Ekspertlərin fikrincə, bu addım Ukraynada döyüşlərin potensial eskalasiyasına işarə edir.

## NƏTİCƏ

Beləliklə, məlum xronoloji çərçivədə ABŞ-Rusiya münasibətlərinin nəzəri məsələləri və onların xüsusiyyətləri ilə bağlı aparılan təhlil və analizlərin məntiqi nəticəsi olaraq qeyd etmək olar ki, yeni mərhələdə və minillikdə dövlətlər arasında artıq siyasi və ideoloji qarşıdurmanın olmadığı bir şəraitdə beynəlxalq stabilliyin

saxlanması sahəsində ümumi ortaq maraqların mövcudluğu və hərbi-strateji xarakterli problemlərin birgə həlli zərurəti ikitərəfli tərəfdaşlığın inkişafı üçün münbit şərait yaradırdı.

Əsrin ilk on illiyində tərəflər əməkdaşlıqda və qlobal və regional problemlərin birgə həllində, ziddiyyətlərin və narazılıqların toqquşmalarla və qarşıdurma ilə yox, danışıqlar və güzəştlər hesabına aradan qaldırılmasında maraqlı idi. Buna, həm Rusiyanın ABŞ-la rəqabət edə biləcək potensialının olmaması, özünün daxilində bir sıra ciddi problemlərin (nüvə silahı, sərhəd məsələləri, etnik-separatçı münaqişələr və borclar) mövcudluğu, bundan əlavə, Amerika-Rusiya prezidentləri arasında şəxsi dostluq münasibətlərinin olması təsir göstərirdi. Lakin, bu da bir həqiqətdir ki, ABŞ və Rusiya yeni dövrdə ikitərəfli münasibətlərin yenidən qurulması problemi ilə üzləşmişdilər. Buna səbəb, tərəflərin potensial güc imkanlarının və təsir qüvvələrinin qeyri-bərabər səviyyəsi idi. Bunu da əlavə etmək lazımdır ki, Rusiya və ABŞ-ın elan etdikləri strateji əməkdaşlıq yalnız deklorativ xarakter daşıyırdı, belə ki, əməkdaşlıq qeyri-bərabər səviyyədə həyata keçirilirdi.

